# NOVRUZ BAYRAMIMIZ MÜBARƏK!


**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 11 (6153) 20 mart 2026-cı il | Qiyməti 40 qəpik


# Prezident Novruzu Qarabağda qarşıladı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Xocavənd rayonunun Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar.**

**Adalet.az xəbər verir ki, sonra dövlətimizin başçısı və birinci xanım kəndə köçmüş Bəybala Qasımovun evində olublar. Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xanobaya qayıdan kənd sakinləri ilə görüşüblər.**

**Dövlətimizin başçısı Xanoba kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıb.**



## Xüsusi karantin rejiminin müddəti uzadıldı

**Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb.**

Adalet.az-ın xəbərinə görə, Nazirlər Kabineti bu barədə qərar verib.

Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2026-cı il 1 iyul saat 06:00-dək uzadılıb.

Bundan əvvəl bu müddət 2026-cı il 1 aprel saat 06:00-dək olan dövrü əhatə edib.

## *Hakan Fidan: "Türkiyə bu məsələdə güzəştə getməyəcək"*



**Türkiyə milli təhlükəsizliyi ilə bağlı güzəştə getməyəcək, savaş dərhal dayandırılmalıdır.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan ABŞ ilə İran arasındakı davam edən münaqişə barədə açıqlama verərkən deyib. Nazir bildirib ki, müharibə artıq bütün regiona yayılıb və bu vəziyyət ciddi narahatlıq doğurur: "Türkiyəyə yönələn raket təhlükəsi fonunda isə ölkə milli təhlükəsizlik məsələlərində heç bir güzəştə getməyəcək. Münaqişəyə dərhal son qoyulmalıdır və tərəflər regionda sabitliyi bərpa etməlidir".

*Aqil ABBAS*

## "QƏBƏLƏ" NİYƏ UDUZUR?

Bax:səh-3

## *Bu həftə 11 günlük tətil başlayır*

**Bu həftə Azərbaycanda 11 günlük tətil başlayır.**

Adalet.az xəbər verir ki, bu il Novruz və Ramazan bayramı günləri üst-üstə düşür. Martın 20, 21, 22, 23, 24-ü Novruz bayramıdır. 21 və 22 mart tarixləri şənbə və bazar günlərinə təsadüf etdiyindən Əmək Məcəlləsinin tələblərinə əsasən, 25 və 26 mart tarixləri qeyri-iş günləri olacaq. Martın 20, 21-i qeyd ediləcək Ramazan bayramı iş günü hesab olunmayan başqa bayram günü ilə üst-üstə düşdüyü üçün növbəti iş günü istirahət günü hesab olunur.

Beləliklə, Əmək Məcəlləsinin tələbinə əsasən, növbəti iş günləri - 27 və 30 mart da qeyri-iş günləri olacaq.

Bununla da Novruz və Ramazan bayramları ilə əlaqədar 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29 və 30 mart tarixləri qeyri-iş günləridir. 31 mart bayramdan sonra ilk iş günü olacaq.

## Hüquq-mühafizə orqanları əməkdaşlarının NƏZƏRİNƏ!

**"Ədalət" qəzetinin regionlar üzrə redaktor müavini, Azərbaycanın tanınmış jurnalisti, yazıçı-publisist Məzahir Əhmədoğlunun imzası hər kəsə məlumdur. Təəssüf ki, dələduzluq edən bir şəxs Məzahir Əhmədoğlunun adından və nüfuzundan istifadə edərək ayrı-ayrı idarə və müəssisə rəhbərlərinə, iş adamlarına, millət vəkillərinə, hətta hüquq-mühafizə işçilərinə telefonla müraciət edərək pul dilənir!!!**

**Həmin dələduz öz müraciətində "60 illik yubileyini" qeyd etmək, "qəzaya düşdüyü üçün" yardıma ehtiyacı olduğunu və digər bəhanələri dilə gətirərək həyasızcasına pul istəyir. Sonuncu dəfə həmin şəxs 070-200-58-16 nömrəsindən istifadə edib.**

**"Ədalət" qəzeti olaraq bildiririk ki, Məzahir Əhmədoğlunun adından istifadə edən həmin şəxs mətbuata yad bir şərəfsizdir və hüquq-mühafizə orqanlarına üz tuturuq:**

**BU ŞƏRƏFSİZİ TAPIN VƏ QANUNLA CƏZALANDIRIN!**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ANASININ KÖKSÜNDƏ YATAN VƏ YAŞAYAN RAQUF



***Raquf Orucov! Bu ad artıq Azərbaycanda, eləcə də ölkəmizdən kənarda, yəni Türk dünyasında bir əfsanəyə çevrilib. Haqqında yüzdən çox məqalə yazılıb, sənədli filmlər çəkilib, döyüş yoldaşlarından müsahibələr alınıb. Yazıçı Şərif Ağ da ciddi və maraqlı bir kitab yazıb. Bu məqalələrdə, sənədli filmlərdə, döyüş yoldaşlarının müsahibələrində, eləcə də Şərif Ağın kitabında Raquf Orcuovun qəhrəmanlıqlarından, sərkərdəliyindən, Vətənə sevgisindən, qeyri-adi döyüş qabiliyyətindən söz açılır. Mənim indiyədək yazılanları təkrar etmək fikrim yoxdu, mən məsələyə başqa tərəfdən yanaşıram.***

***Raquf Orucov Qarabağın Kolanı tayfasındandı. "Kolanı" sözü, daha dəqiq desək, "kolan" sözü ilk dəfə şumer dilində rastımıza çıxır. Bu sözün tərcüməsi iki məna daşıyır: güclü-qüdrətli və varlı-dövlətli. İkisi də bu gün Azərbaycan dilində işlənir. Xüsusilə Qarabağ dialektində: hallı-kallı və bir də kalan. Güclü-qüdrətli şəxslərə "hallı-kallı adamdır" deyirlər. Varlı adamlara isə "kalan adamdır".***

Bax:səh-2

*Əbülfət MƏDƏTOĞLU*

## Novruz düşüncələri...

Bax:səh-8

# Prezident xalqımızı təbrik etdi



**Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

Adalet.az xəbər verir ki, mətndə deyilir:

"Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər diləyirəm.

Azərbaycan torpağında çox qədim köklərə malik Novruz bayramı ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs əmanətidir.

Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır.

Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətlərindəndir.

Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüzillərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır.

Əminəm ki, yaz fəslinin yeniləşdirici ab-havası gələcəyimizi arzularımıza uyğun qurmaq şövqümüzü daha da artıracaq və biz əzmimizlə azadlığına qovuşdurduğumuz əzəli yurd yerlərimizi aydın səma altında gözəlliklər məskəninə çevirəcəyik.

Qoy qarşıdan gələn Novruz bayramı qəlblərinizi nurla doldursun, hamınıza xoş bahar əhval-ruhiyyəsi bəxş etsin, evinizə, ocağınıza əmin-amanlıq, firavanlıq və bol ruzi-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!"

# İlham Əliyev Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin bir qrup hərbi qulluqçusunu təltif edib

**Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçuları təltif edilib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncama əsasən, xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin aşağıdakı hərbi qulluqçuları təltif ediliblər:

**"Vətən uğrunda" medalı ilə**

Hüseynov Ramil Arif oğlu - mayor

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Mövlayev Samir Yaqub oğlu - mayor
Abbasov Elsevər Məhəmməd oğlu - kapitan
Eldarov Zaur Səvzixan oğlu - kapitan
Hüseynov Elçin Allahverdi oğlu - kapitan
Fərzəliyev İlkin Mirzə oğlu - leytenant
Vahabzadə Şahin İdayət oğlu - leytenant
Adamov Xəyal Fikrət oğlu - baş çavuş
Hacızadə Səbuhi Elşən oğlu - baş çavuş
Qəhrəmanzadə Elman Qəhrəman oğlu - baş çavuş.

# Samir Nuriyev Xocavənddə iclas keçirdi

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xocavənd şəhərində Qərargahın növbəti iclası keçirilib.**

Adalet.az xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış prosesinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu bildirib.




Deyib ki, bu proses yalnız ərazilərin fiziki baxımdan bərpasını deyil, həmin torpaqlarda həyatın yenidən qurulmasını, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını və keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışını nəzərdə tutan kompleks yanaşmanı əhatə edir. Qərargah rəhbərinin sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə son illər həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində əsas prioritet baza infrastrukturunun yaradılması olub. Elektrik enerjisi, qaz və su təchizatı infrastrukturunun yenidən qurulması, yolların, körpülərin və tunellərin inşası regionda həyatın bərpası üçün ilkin zəruri şəraiti formalaşdırıb. Hazırkı mərhələdə isə dövlət tərəfindən ayrılan resursların mühüm hissəsi yaşayış fondunun genişləndirilməsinə, fərdi və çoxmənzilli evlərin tikintisinə və bərpasına yönəldilir. Bununla yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri və dövlət xidmətləri mərkəzləri kimi sosial obyektlərin fəaliyyətlərinin təşkili paralel şəkildə həyata keçirilir. Qeyd olunub ki, bu yanaşma öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən normal həyat şəraitinə sürətli adaptasiyasına imkan verir.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək ümumilikdə 41 yaşayış məntəqəsinin tikilərək və bərpa edilərək istifadəyə verildiyini, həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışının təmin olunduğunu vurğulayan qərargah rəhbəri görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insanın yaşadığını və fəaliyyət göstərdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb. Qeyd edilib ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və Böyük Qayıdış Proqramının miqyası genişlənəcək.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə layihələrin icrası Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Proqramda nəzərdə tutulmuş tədbirlər ardıcıl şəkildə icra olunur, bu isə qarşıya qoyulan məqsədlərə mərhələli şəkildə nail olunmasına və bərpa-quruculuq prosesinin uğurla davam etdirilməsinə imkan yaradır. S.Nuriyev vurğulayıb ki, məskunlaşmanın dayanıqlılığı birbaşa məşğulluq imkanlarının yaradılması ilə bağlıdır. Bu baxımdan yeni iş yerlərinin açılması, kənd təsərrüfatı, xidmət sektoru, istehsal, tikinti və logistika sahələrində fəaliyyət imkanlarının genişləndirilməsi, həmçinin sahibkarlığın təşviqi, investorların cəlb olunması və dəstək mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət daşıyır. Qərargah rəhbəri tarixi, mədəni və dini abidələrin bərpasının Böyük Qayıdış prosesinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək, bunun milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, habelə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlər barədə məlumatlar təqdim olunub. Məskunlaşma, iqtisadi fəallığın artırılması, sahibkarlığın inkişafı və mədəni irsin bərpası istiqamətində aparılan işlərə dair məruzələr dinlənilib. İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilmiş strateji vəzifələrin səmərəli icrası üçün zəruri tədbirlərin vaxtında həyata keçirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, hər bir məsələ üzrə konkret addımlar atılmalı və verilmiş tapşırıqlar operativ şəkildə icra olunmalıdır.

# *Azərbaycanda vergi ödəyicilərinin sayı artıb*

**Bu il martın 1-nə Azərbaycanda 1 690 311 vergi ödəyicisi olub.**

Adalet.az xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti məlumat yayıb. Məlumata görə, bu, ötən il martın 1-i ilə müqayisədə 4,9 % çoxdur. Vergi ödəyicilərinin 86,8 %-i fiziki şəxslər, 13,2 %-i hüquqi şəxslər və digər təşkilatlardır. Son 1 ildə fərdi sahibkarların sayı 4,7 %, idarə, müəssisə və təşkilatların sayı isə 6,3 % artıb. Bu il fevralın sonuna qeydiyyatda olan kommersiya qurumlarının sayı isə 1 il əvvələ nisbətən 6,9 % çox - 206 250 vahid təşkil edib. Fevralda 1 163 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların 91,1 %-i yerli investisiyalı, 8,9 %-i xarici investisiyalıdır. Kommersiya qurumlarının 88 %-i elektron qaydada qeydiyyata alınıb. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin (MMC) elektron qeydiyyatının xüsusi çəkisi 97,4 % təşkil edib. Dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 92,1 %-i MMC formasında yaradılıb. Son 1 ildə aktiv kommersiya qurumunun sayı 7,7 % artıb.

Aqil ABBAS

# ANASININ KÖKSÜNDƏ YATAN VƏ YAŞAYAN RAQUF

*Raquf Orucov! Bu ad artıq Azərbaycanda, eləcə də ölkəmizdən kənarda, yəni Türk dünyasında bir əfsanəyə çevrilib. Haqqında yüzdən çox məqalə yazılıb, sənədli filmlər çəkilib, döyüş yoldaşlarından müsahibələr alınıb. Yazıçı Şərif Ağ da ciddi və maraqlı bir kitab yazıb. Bu məqalələrdə, sənədli filmlərdə, döyüş yoldaşlarının müsahibələrində, eləcə də Şərif Ağın kitabında Raquf Orcuovun qəhrəmanlıqlarından, sərkərdəliyindən, Vətənə sevgisindən, qeyri-adi döyüş qabiliyyətindən söz açılır. Mənim indiyədək yazılanları təkrar etmək fikrim yoxdu, mən məsələyə başqa tərəfdən yanaşıram.*

*Raquf Orucov Qarabağın Kolanı tayfasındandı. "Kolanı" sözü, daha dəqiq desək, "kolan" sözü ilk dəfə şumer dilində rastımıza çıxır. Bu sözün tərcüməsi iki məna daşıyır: güclü-qüdrətli və varlı-dövlətli. İkisi də bu gün Azərbaycan dilində işlənir. Xüsusilə Qarabağ dialektində: hallı-kallı və bir də kalan. Güclü-qüdrətli şəxslərə "hallı-kallı adamdır" deyirlər. Varlı adamlara isə "kalan adamdır".*




*Kolanılar döyüşkən tayfa olduğundan Osmanlının sərhədlərini qoruyar və döyüşlərdə də ön cərgədə vuruşardılar. Onlara "akınçılar" deyirdilər. Yaxın Şərqdəki, üstündə hələ də müharibə gedən, Kolan (Qolan) təpələri də "Kolanı" sözündən götürülüb. Kolan (Qolan) təpələri susuz ərəb səhralarında ən bolsulu ərazi sayılır.*

*Kolanı tayfaları Türk dünyasının müxtəlif yerlərində yaşayırlar. Bu gün əsasən Qarabağda təxminən 40-dan artıq kəndin yerləşdiyi əraziyə Kolanı deyirlər. Naxçıvanda, Şamaxıda, Qərbi Azərbaycanda, Türkiyədə, İraqda, yəni keçmiş Osmanlı ərazisində yayılıblar. Çox qəribədir ki, Qarabağda Kolanı adında kənd yoxdur, amma bu tayfadan ayrılıb başqa yerə köçənlərin kəndləri Kolanı adlandırılıb. Və bu tayfanın camaatı Kolanı olmaqla fəxr edirlər.*

*Raquf Orucov da kolanı idi, Ağdamın Cinli kəndindən. Və Raquf Orucov da hallı-kallı şəxsiydi, yəni güclü və qüdrətli. Amma maddi cəhətdən "kalan" adam deyildi, yəni varı-dövləti yoxuydu. Amma mənəvi cəhətdən çox kalan adamıydı. Yolunda şəhid olduğu Vətənidir, yolunda şəhid olduğu xalqıdır onun varı-dövləti. Balalarından çox sevdiyi əsgərləridir onun varı-dövləti. Ay-ulduzlu bayrağıdır onun varı-dövləti. İgidliyinə görə qazandığı "Murov qartalı" ləqəbidir onun varı-dövləti.*

*Haqqında yazılan məqalələrdə, eləcə də döyüş yoldaşlarının, adi adamların Möhtərəm Prezident İlham Əliyevə ünvanlanmış müraciətlərdə Raquf Orucova "Milli Qəhrəman" adı verilməsi xahiş olunur. Əslində xalq arasında elə Milli Qəhrəman kimi tanınır. Yazını kompütərə diqtə edərkən Raquf Orucov adını eşidəndə əməkdaşımız Mehriban da dedi ki, Milli Qəhrəman Raquf Orucovdan yazacağıq? Dedim ki, hə.*

*Mehdi Hüseynzadə "Mixaylo" kimi xalqımızın ürəyində bir əfsanə kimi yaşayır. Əslində isə o, Sovet İttifaqı qəhrəmanı adını ölümündən 12 il sonra Ulu Öndər Heydər Əliyevin Dövlət Təhlükəsizliyi Komitəsinin arxivlərindən tapıb çıxarından və uzun zaman onun Sovet İttifaqı Qəhrəmanı adı alması üçün apardığı mübarizədən sonra bu fəxri ada layiq görülmüşdü.*

*Ulu Öndər Heydər Əliyev 1993-cü ildə İbad Hüseynovun müharibədə göstərdiyi qəhrəmanlıqları eşidib öyrənəndən sonra demişdi ki, o, Milli Qəhrəmandır. İbad Hüseynov da bu ada 27 il sonra Möhtərəm Prezident İlham Əliyev tərəfindən layiq görüldü.*

*Raquf Orucovun canından çox sevdiyi Vətən uğrunda şəhid olmasından 10 il keçir. İnanırıq ki, Möhtərəm Prezident İlham Əliyev Raquf Orucovun layiq olduğu "Milli Qəhrəman" adını rəsmiləşdirəcək.*

*Və buna həyat yoldaşı Sevinc xanımdan da, övladlarından da, Raqufu sevən və əfsanələşdirən döyüş yoldaşlarından da daha çox torpaqlarımız işğal altında olanda düşmən səngərlərini keçərək Ermənistanın 30 kilometr ərazisinə daxil olaraq əsir düşmüş əsgərlərini xilas etmək üçün üç erməni əsgəri gətirib igidlərini əsirlikdən xilas elədiyi döyüşçüləri daha çox sevinəcək. Və bir də torpaqlarımız işğal altında olanda erməni səngərlərini keçərək Cinli kəndindəki qəbiristanlıqda dəfn olunmuş ziyarət etdiyi anasının da ruhu sevinər.*

*Raquf Orucovun iki ANASI vardı. Deyə bilərsiniz ki, bir adamın necə iki anası ola bilər? Əslində bizim hamımızın iki ANASI var - biri bizi doğan ANA, biri də yolunda şəhid olmaq istədiyimiz və şəhid olduğumuz ANAMIZ VƏTƏN!*

*Raquf Orucovun "Milli Qəhrəman" adına layiq görülməsinə onu doğan ANADAN da çox yolunda şəhid olduğu ANASI VƏTƏN sevinər!*

# Əsgərlikdən boyun qaçıranlara qarşı qaydalar sərtləşdirilir

**Müddətli həqiqi hərbi xidmətə çağırışdan yayınma hallarının vaxtında və effektiv qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının aidiyyəti qanunvericilik aktlarında, o cümlədən Cinayət, Miqrasiya və İnzibati Xətalar Məcəllələrində, ”Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” və ”Hərbi vəzifə və hərbi xidmət haqqında” qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli Qanunu qəbul edilib.**

Adalet.az xəbər verir ki, həmin Qanunla Azərbaycan Respublikasının Cinayət Məcəlləsində edilmiş dəyişikliyə əsasən ”çağırışdan boyun qaçırma” dedikdə vətəndaşların üzrlü səbəblər olmadan tibbi müayinəyə (şəhadətləndirməyə), müddətli həqiqi hərbi xidmətə, toplanışlara və səfərbərlik üzrə hərbi xidmətə çağırış üzrə gəlməməsi başa düşülür.

Bununla yanaşı, vətəndaşların müddətli həqiqi hərbi xidmətə və səfərbərlik üzrə hərbi xidmətə çağırışdan boyun qaçırdıqda, barələrində çağırış üzrə qərar qəbul edilənədək, onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilib. Artıq bu dəyişikliklər ”Hərbi xidmət keçməkdən boyun qaçırma, hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etmə və fərarilik işləri üzrə məhkəmə təcrübəsi haqqında” 2001-ci il 1 noyabr tarixli 1 nömrəli Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 23 yanvar 2026-cı il tarixli Qərarında da öz əksini tapıb. Belə ki, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun Qərarında Cinayət Məcəlləsinin 321.1-ci maddəsində məsuliyyətə səbəb olan əməllər qismində bir sıra hallar göstərilib.




Vətəndaş həqiqi hərbi xidmətə çağırış müddəti başa çatanadək, habelə tibbi şəhadətləndirməyə, hərbi toplanış və təlimlərə üzrlü səbəb olmadan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə gəlmədikdə hərbi xidmətdən boyun qaçırma kimi qiymətləndirilir və məsuliyyətə səbəb olur.

Bundan başqa çağırışçının hərbi xidmətdən yayınmaq, o cümlədən tibbi müayinəyə (tibbi şəhadətləndirməyə), müddətli həqiqi hərbi xidmətə çağırılmasına dair çağırış vərəqəsinin çatdırılmasının qarşısını almaq üçün ona şamil edilən cari çağırış müddəti başa çatanadək yaşayış yerini 3 aydan çox müddətə dəyişdirdikdə yaşayış yeri üzrə hərbi qeydiyyatdan çıxmaması və olduğu yer üzrə hərbi qeydiyyata durmaması və ya yaşayış yerini dəyişərkən ”Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunun 7.3-cü maddəsində göstərilən vəzifəsinə əməl etməyərək hərbi qeydiyyatda olduğu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrinə məlumat verməməsi də CM-in 321-ci maddəsi ilə məsuliyyətə səbəb olan əməllər kimi qiymətləndirilə bilər.

Yuxarıda qeyd olunan kateqoriyalara aid, ölkənin hüdudlarında və kənarında olan, aktiv möhlət hüququ olmayan vətəndaşlarımıza bildirmək istərdik ki, hərbi vəzifələrinin icrasına və hərbi öhdəliklərinə məsuliyyətlə yanaşsınlar, habelə hərbi biletlərində və ”mygov” platformasında olan şəxsi kabinetlərində qeyd olunan vaxtda Dövlət Xidmətinin qeydiyyatda olduqları struktur bölmələrinə yaxınlaşsınlar. Hərbi sahədə qanunvericiliyin təkmilləşdirilməsi ölkənin milli təhlükəsizliyini gücləndirmək, Silahlı Qüvvələri çağırışçılarla vaxtında və keyfiyyətlə komplektləşdirmək, səfərbərlik sisteminin səmərəliliyini artırmaq məqsədini daşıyır.

# "İqtisadi diplomatiya siyasətinin ən böyük uğurları dövlətimizin aktivinə yazıldı"

**”Hazırkı dünya müasir beynəlxalq münasibətlər sistemində iqtisadi maraqlara daha çox üstünlük verir. Qərarlar qəbul olunarkən siyasi faydalar hesablanır, ticarət və inkişaf isə əsas prioritet kimi götürülür. Ölkələr arasında ticarət, investisiya və texnologiya mübadiləsi sürətlə artır. Hazırda iqtisadi gücü dövlətin ümumi gücünə çevirən ölkələr daha güclü sayılır. Arxada qalan illərdə dövlətin gücü əsasən siyasi və hərbi potensialla ölçülürdüsə, indi isə bu güc daha çox güclü iqtisadi siyasət ilə müəyyən olunur”.**

Adalet.az xəbər verir ki, bunu ”Yeni Xətt” Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

Onun sözlərinə görə, ölkələr arasında siyasi və investisiya payı artdıqca qarşılıqlı əməkdaşlıq daha etibarlı olur:

”Bu isə bəzi mənasız siyasi istəkləri arxa plana keçirə bilir. Lakin bu iqtisadi əlaqələri qəbul etməyən, müasir tələblərə və standartlara uyğunlaşmayan ölkələrdə müharibə riski daha çox olur. Halhazırda biz bunu bir neçə ölkə timsalında görürük.

Siyasi qaydalarını qəti müdafiə taktikası ilə qorumağı seçən ölkələr artıq iqtisadi sanksiyalar, hərbi müdaxilə və digər təzyiqlərlə üzləşirlər.Məqsəd həmin ölkələri güclənən iqtisadi diplomatiya modelini dəstəkləyənlər ətrafında konsolidasiyaya cəlb etməkdir. Eyni zamanda, onları dünyada yeni formalaşan iqtisadi modeli dəstəkləyən güclərin yaratdığı birliklərə və konfederasiyalara inteqrasiya olunmağa məcbur sövq etməkdir.

Hazırkı dünya modelində iqtisadi qərarlardan fərqli olaraq, siyasi qərarlar daha çox qısamüddətli məqsədlər üçün vacib sayılır”. O, deyib ki, bizim üçün vacib olan isə ölkəmizin müasir dünya modelində və yeni dünya düzənində rolu və mövqeyidir:

”Bəli, biz bu kontekstdə kifayət qədər ciddi uğurlar əldə etmişik. Ölkəmizin idarə olunmasında məsuliyyəti üzərinə götürən dövlətimizin başçısı ölkə olaraq bizim üçün uzun müddət kök salmış və yaranmış problemləri aradan qaldırmağa nail oldu. Bu müddət ərzində hörmətli Prezident böyük təcrübəyə yiyələndi və bu, siyasətdə ən ağır yollardan biri hesab olunur.



Uzunmüddətli mərhələlərdə bəzi ölkələrin iç üzünün açılması, həmin ölkələrin görünməyən və açıq ifadə olunmayan siyasi dil və hərəkətlərlə ifadə etdikləri istək və arzularını bu təcrübələr vasitəsilə öyrənib dəf etmək o dövr üçün çox mürəkkəb və ağır bir prosesdir”.

R.Hüseynov bildirib ki, siyasi, diplomatik və hərbi gücümüzü müasirləşdirərək və modernləşdirərək iqtisadi qüdrətimizi artırmaqla İlham Əliyev nəcib və böyük düşüncə ilə dövlətimizin maraq və hüquqlarını yüksək səviyyədə təmin etdi və qorudu: ”Bu böyük düşüncə və strateji addımlar uzun müddətə hesablanan iqtisadi diplomatiya siyasətinin ən böyük uğurları kimi dövlətimizin aktivinə yazıldı. Yeni reallıqlarla həm Cənubi Qafqazda, həm də Azərbaycanda beynəlxalq münasibətlər kökündən dəyişdi. Bu gün hələ də köhnə siyasi qərarların arxasınca gedən ölkələrin və beynəlxalq təşkilatların önəmi, nüfuzu, statusu və autoriteti demək olar ki, sıfıra enib. Lakin Azərbaycan bu gün dünyada zəfər qazanmış və qlobal proseslərdə mühüm rol oynayan ölkələr sırasında yer alır.

Cənab Prezidentimizin Avropa İttifaqı Şurasının prezidenti Antoniu Koşta ilə görüşünün nəticələri bir daha göstərdi ki, Azərbaycan regionda və dünyada mühüm rol oynayan ölkədir.

Ölkə olaraq iqtisadiyyatın bütün sahələri ilə bağlı Avropa İttifaqının Azərbaycanla strateji tərəfdaşlığının əhəmiyyəti vurğulandı.

Münasibətlərin daha yüksək səviyyədə, müsbət dinamika ilə dərinləşdirilməsinə sadiqlik nümayiş olundu. Möhtərəm Prezidentimizin müxtəlif sahə və səviyyələrdə tərəfdaşlığın fəal mərhələdə olması ilə bağlı mühüm mesajları gələcəkdə ölkəmizin davamlı inkişafına, iqtisadiyyatımızın daha da güclənməsinə hesablanmış mühüm strateji iqtisadi layihələrdən xəbər verir.

Bu istiqamətdə atılan addımlar Azərbaycanın beynəlxalq arenada mövqeyini daha da möhkəmləndirir və ölkəmizin etibarlı tərəfdaş kimi rolunu gücləndirir. Yeni əməkdaşlıq formatları və təşəbbüslər isə Azərbaycanın regionda sabitlik və inkişafın əsas aparıcı qüvvələrindən biri olduğunu bir daha təsdiqləyir. Hər şey Vətən üçün, hər şey Azərbaycan üçün”.

**Vasif ƏLİHÜSEYN**

*Aqil ABBAS*

# "QƏBƏLƏ" NİYƏ UDUZUR?

**Ölkədə ən gözəl futbol infrastrukturası ”Qəbələ”nindir. ”Qarabağ”dan da, ”Neftçi”dən də, ”Səbail”dən də daha gözəl infrastrukturası var. Üçmü-dördmü stadionu var - biri oyun üçün, digərləri məşq üçün. Güclü bazası var, akademiyası var. Futbol üçün nə lazımdırsa hələ neçə il bundan qabaq ”Qəbələ”də yaradılıb.**

**Dəfələrlə, hətta ailəmi götürüb Qəbələyə futbola baxmağa getmişəm. Və həmişə də məyus olmuşam. Məyus olmağıma da səbəb stadionda azarkeşlərin azlığı olub. Özü də stadion kənarda deyil ki, yol uzaq ola azarkeşlər gəlməyə ərinə. Belə demək mümkünsə, azarkeşlər həyətlərinin barından hoppansalar stadionun ortasına düşərlər. ”Qarabağ”, ”Neftçi”, ”Turan-Tovuz”u çıxsaq, digər klublar da azarkeşlərdən aclıq çəkirlər. Futbolumuz tamaşaçısız teatra dönüb. Tamaşaçı alqışı olmasa aktyor necə oynaya bilərsə, tamaşaçısız futbolçu da elə oynayar.**



**”Sabah” bu gün liderdi. Çox gözəl oyun nümayiş etdirir. O gün baxıram, öz meydançasında oynayır, onun da tamaşaçısı yoxdur.**

**Qayıdaq Qəbələyə. Qəbələ respublikamızın ən füsunkar, səliqəli şəhərlərindən biridir. Niyə ”Qəbələ”nin futbolçuları Bakıda yaşamalıdır? Buyursunlar öz doğma şəhərləri Qəbələdə yaşasınlar, insanların arasında olsunlar, bazara-dükana çıxsınlar, çayxanalarda çay içsinlər, qəbələlilərlə doğmalaşsınlar. Gör nə qədər adam onlarla şəkil çəkdirmək istəyər, çay içmək istəyər, dostlaşar, onu meydanda görmək üçün stadiona gedər.**

**Çox təəssüf ki, on iki klubda oynayan bütün futbolçular Bakıda yaşayır.**

**Niyə ”Turan”ın futbolçuları Tovuzda yaşamasın? Əsrik dərəsinin təmiz havasını dadmasın?**

**”Kəpəz” Gəncəyə köçəndən, öz doğma meydançasında oynamağa başlayandan sonra görün, Tovuzdakı kimi, stadiona nə qədər azarkeş gəlir, oturmağa yer də tapmayacaqlar.**

**Nə isə...**

## *“Şoyqunun səsləndirdiyi statistika Rusiya vətəndaşlarını qorxutmalıdır...”*

**”Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu Ukrayna Silahlı Qüvvələrinin 2025-ci ildə Rusiyanın infrastrukturuna hücumları əhəmiyyətli dərəcədə artırdığını bildirib. Onun sözlərinə görə, bu cür zərbələrin sayı təxminən dörd dəfə artıb. Sergey Şoyqu bildirib ki, son bir ildə müxtəlif obyektlərə 23 mindən çox hava hücumu həyata keçirilib”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, bildirib ki, bu kifayət qədər böyük rəqəmlərdir:

”Şoyqu qeyd edib ki, vəziyyət, xüsusən də vacib infrastrukturun qorunması sahəsində təhlükəsizlik tədbirlərinin gücləndirilməsini tələb edir. Şoyqunun digər etirafına görə, Ukraynanın dron hücumlarından Rusiyanın heç bir bölgəsi, hətta uzaq Ural da sığortalanmayıb. Şoyqu açıqlamasını ”bu məsələlər Prezident Vladimir Putin diqqət mərkəzindədir” cümləsi ilə bitirsə də, Ukrayna ilə müharibə dövründə ilk dəfə Rusiyanın yüksək rütbəli rəsmilərindən birinin dilindən həyəcan təbilinin çalındığını eşidirik”. Onun sözlərinə görə, Şoyqu demək istəyib ki, Rusiya vətəndaşları ətraflarında partlayışların və ölənlərin davamına hazır olmalıdırlar: ”Şoyqunun səsləndirdiyi başqa bir statistika da Rusiya vətəndaşlarını qorxutmalıdır. Təhlükəsizlik Şurasının katibinin sözlərinə görə, Ukrayna 2025-ci ildə Rusiya ərazisində 1830 diversiya törədib və bu 2024-cü illə müqayisədə 40 faiz, 2023-cü illə müayisədə isə 6.5 dəfə çoxdur. Rusiya üçün təhlükənin miqyasının artdığını rəqəmlərlə söyləyən rusiyalı rəsmi müharibənin necə sona çatdırılacağı ilə bağlı heç bir fikir söyləməyib. Şoyqu son açıqlamasıyla ya Prezidentinə işarə edir ki, vəziyyət gərgindir və müharibənin sona çatdırılması barədə düşünülməlidir, ya da Kremlin vətəndaşların daha ağır günlərə hazırlaşmaları barədə Kremlin sifarişini yerinə yetirir”.

**Vasif**



Səxavət Məmməd

# Yaxın Şərq «qırmızı xətt»i keçdi

ABŞ/İsrail-İran müharibəsi başlayanda qeyd etdim ki, ABŞ/İsrail prosesə əməliyyat kimi hazırlaşıb, İran isə total müharibə kimi. ABŞ prezidenti Donald Tramp da qeyd etdi ki, onlar əməliyyat kimi hazırlaşıblar, İran isə müharibə kimi.

Gələk əməliyyatla müharibənin fərqinə. Tramp iki gündür bütün dünyaya car çəkir ki, onlar qalib gəliblər. Hətta bunun əksini yazan media qurumlarını belə tənqid edir. Eynən 12 günlük müharibənin sonundakı kimi. Tramp bildirirdi ki, İranın bütün nüvə potensialını məhv ediblər. Bunun əksini deyən, hətta bu yöndə sual verən jurnalistləri təhqir edirdi. Əməliyyatlar başlayanda isə o və komandasının digər üzvləri deyir ki, əgər əməliyyatlar başlamasa idi, İran iki günə nüvə silahı əldə edəcəkdi. Bəs İranın nüvə potensialını məhv etmişdin?

Əməliyyatlarla müharibələrin əsas fərqi onun sonu ilə bağlıdır. Əməliyyatların qalibi olmur, əməliyyatların nəticəsi olur! Qalib və məğlub müharibələrdə olur!

İndiki şərtlərdə əməliyyatlar dayanarsa, nəticə nə olacaq? Öncə ABŞ üçün:

ABŞ İranın ali dini liderini, İranın 40-dan çox generalını sıradan çıxarmış, infrastrukturuna ağır zərbə vurmuş olacaq. Bu, onsuz da iqtisadi sanksiyalar məngənəsində sıxılan İran üçün əlavə problemlər yaradacaq. İran daxilində böhranlı vəziyyət yaradacaq. Əsas diqqət yetirilməli məqam nədən ibarətdir? Əməliyyat başlayarkən qarşıya qoyulan hədəf nə idi? İndi nüvə məsələsini ön plana çıxarsalar da, əsas hədəf İrandakı hakimiyyəti devirmək, İranın əlindəki saflaşdırılmış uranı və uzaqmənzilli raketləri İranın əlindən almaq, Körfəzə tam nəzarət, Çinin ticarət yollarını sıradan çıxarmaq idi.

Nəticə nədir? Bunların hansınasa nail olunub? İndiki şərtlərdə bunların hansınasa nail olunub demək, ən azı obyektivlikdən uzaq olmaq deməkdir.

Bu şərtlərdə ABŞ nələri itirdi? Ərəb ölkələri təhlükəsizliklə bağlı yenidən düşünməli olacaqlar. ABŞ-nin Yaxın Şərqdəki hərbi bazalarının varlığı sual altına düşəcək, qızların məktəbinə endirilən zərbə isə Tramp və ABŞ-nin imicini yerlə bir etmiş olur.

İsrail üçün hansı nəticələr əldə olundu? ABŞ-dən fərqli olaraq İsrail ərazisi də ağır dron və raket zərbələrinə məruz qaldı. Dağıntılarının miqyası o həddə çatıb ki, artıq video görüntüləri yayanlar 5 illik həbs cəzasına məhkum edilir. Yəni, İsrail İranın infrastrukturunu dağıtdığı qədər İran da İsrailin infrastrukturunu sıradan çıxarıb. Yuxarıda İran üçün dediyim, İsrail üçün də keçərlidir. Dağıntıların bərpası o qədər də asan olmayacaq. İsrail qarşısına qoyduğu nəyəsə nail oldu desək, yenə də obyektivlikdən uzaq olarıq. İsrail İranın uzaqmənzilli raketləri tələb edirdi. İran həmin tələb edilən raketləri İsrailə göndərdi, ancaq zərbə olaraq. Rejim dəyişikliyi məlum məsələ - yoxdur. Əksinə əhali hakimiyyət ətrafına daha sıx birləşib. Netanyahunun İran xalqına səslənməsi də məhz çarəsizlik göstəricisidir. Çünki tapşırıqlar uğurla icra olunsa da, gözlənilən nəticə yoxdur.

İsrail ərazisindəki dağıntılarla bərabər başqa nələr itirdi? Holokosta görə dünyada məğdur, məzlum olan israillilərə qarşı artıq insanların mövqeyi 180 dərəcə dəyişib. Bu barədə çox yazmaq istəmirəm, böyük ehtimalla videoları hər kəs izləyib və nə demək istədiyimi anlayır.

Müharibənin üçüncü günündə yazdığım hələ də keçərlidir - ABŞ və İsrailin alternativ planı yoxdur.

Əməliyyat necə icra olunur? Misal üçün Azərbaycanın Qarabağda keçirdiyi antiterror əməliyyatı kimi. Tapşırıq Qarabağdakı erməni qeyri-qanuni silahlılarını sıradan çıxarmaq, qondarma rejimi ləğv etmək idi. Nəticə necə oldu? Həm silahlılar təslim oldu, həm rejim ləğv edildi, bonus olaraq da orada yaşayan ermənilər Qarabağdan öz xoşları ilə getdilər. Buna deyirlər uğurlu əməliyyat, buna deyirlər əməliyyatın uğurlu nəticəsi. İndiki şərtlərdə ABŞ və İsrailin apardığı birgə əməliyyatla bağlı bunu deyə bilmərik.

Müharibələrdə qələbə olur, məğlubiyyət olur, bir də Pirr qələbələri olur. İranın apardığı müharibə birinci növbədə nəyi ortaya çıxardı - İranın vitrinə dini, mollaları ön plana çıxarıb, əslində isə İranın sözün hər mənasında militar dövlət olduğunu. İlk gündən yazırdım ki, İran müharibənin miqyasını genişləndirəcək. Görünən odur ki, buna nail olurlar. İlk dəfə idi ki, İranla Hizbullah İsrailə zərbələri danışılmış, sanki eyni yerdən idarə olunurmuş kimi endirməyə başladı. Kənardan bu asan görünə bilər. Ancaq bunun icrası son dərəcə ağır və böyük əmək sərf edən bir məsələdir.

İran bu müharibədən indiki şərtlərdə qalib çıxdığını elan etsə də, bu Pirr qələbəsi olacaq. Çünki həm dini lider, həm çoxlu sayda general itirdi. Bundan əlavə ərazisi şiddətli bombalanaraq infrastrukturu ağır zərbə aldı. Bu şərtlərdə müharibə bitərsə, insan itkilərini şəhidliklə öz xeyrinə dəyişə biləcək. İnfrastrukturun bərpası ciddi vaxt və maliyyə anlamına gələcək.

Bu şərtlərdə müharibə bitərsə, İranın ritorikası dəyişəcək. Xüsusilə Körfəz ölkələrinə diqtə edəcək. Bundan sonra İrana qarşı addım atacaq ölkələr ötən yazıda yazmışdım ki, 50 dəfə düşünmək məcburiyyətində qalacaqlar. Hesab edirəm ki, bu rəqəm daha böyük olacaq.

Bu müharibə sahədə İranın müharibəsi olsa da, əslində Çinlə Rusiyanın müharibəsidir. Müharibənin əsl qalibləri kimlər olacaq? Hesab edirəm ki, bu müharibənin qalibləri indiki şərtlərdə Çin, Rusiya və ən çox qazananı isə Türkiyə olacaq. Dünən Türkiyə tərəfi bir foto yayımladı, bildirdi ki, İncirlik hərbi bazasında ABŞ əsgərləri olsa da, orada komandir türkiyəli zabitdir. Çox keçmədən İncirlik hərbi bazası istiqamətinə də raket göndərildi. Sanki İranla Türkiyə paslaşırdı. Türkiyə bununla ABŞ-ni şantaj edəcək. Onlardan Patriot hava hücumundan müdafiə sistemləri, F-35 proqramına qayıtmağını tələb edəcək. Türkiyə cəmiyyətində, sosial şəbəkələrdə və mətbuatında "NATO-dan çıxaq" dalğası görsək, heç təəccüblənməməliyik. Çünki bu da təzyiqin bir forması kimi işləyəcək. Ona görə də, düşünürəm ki, müharibə indiki şərtlərdə bitsə, Türkiyə bunu çox ciddi şəkildə öz xeyrinə çevirə bilər. ABŞ və İsrail tərəfləri bildirir ki, İranın enerji infrastrukturunu qısa zamanda sıradan çıxara bilər. Əgər bu baş verərsə, İranın əlində nüvə silahından daha təhlükəli bir silahı da işə düşə bilər. Körfəz ölkələrinin suyu haradan, İsrailin isə suyu haradan götürməsi məlumdur. Hətta Qərbin kəşfiyyat orqanları İranın su təchizatına zərbə endirə biləcəyi ilə bağlı məlumatlar da yayıb. Su problemi olan ölkələr üçün bu nə deməkdir, onu təsəvvür etmək o qədər də çətin deyil.

Müharibə başlamazdan əvvəl də qeyd edirdim ki, Rusiya və Çin ABŞ-nin qısa zamanda bu müharibəni bitirməsinə imkan verməyəcəklər. Onların əsas məqsədi ABŞ-ni Yaxın Şərq bataqlığına salmaq idi. Bu şərtlərdə müharibə bitsə belə, ABŞ Yaxın Şərqdə varlığını qoruması üçün çox çalışacaq.

# Polis həmişə olduğu kimi dövləti və xalqı qoruyur...

**Azərbaycan polisi çox şanlı və şərəfli bir yol keçib. Çünki onlar dövlətimizin və xalqımızın ən ağır günlərində onların yanında olub.Qanunu icra edərkən heç nədən çəkinməyib. Hətta şəhid olmaqdan , ölümdən belə qorxmayıb. Birinci Qarabağ savaşında onların torpaqlarımız uğrunda aslan kimi necə döyüsdüklərinin şahidi olmuşam. Onda indiki kimi müasir silahlarımız və döyüş maşınlarımız yox idi. Amma igid polislərimiz, qorxmaz oğullarımız vardı.**

Və onlar təpədən - dırnağa hər cür silahlarla təchiz edilmiş erməni əsgərlərinə qan uddururdular. Düzdür, silah da müharibədə önəmli rol oynayır.Ancaq əsas sözü əsgər, polis və digər döyüşçülər deyirlər. Onların hər cür müasir silahları var idi, bizim aslan kimi döyüşən oğullarımız. İkinci Qarabağ savaşında və antiterror əməliyyatları zamanı bu şirbiləkli, aslan ürəkli oğullarımız və o cümlədən polislərimiz öz sözlərini dedilər.

Çevik Polis Alayının əməkdaşları antiterror əməliyyatı zamanı Xankəndi, Xocavənd, Xocalı, Əsgəran, Ağdərə və digər yaşayış məntəqələri uğrunda gedən döyüslərdə qəhrəmanlıqla döyüşdülər. Və bir daha Prezident İlham Əliyevə, xalqa, dövlətə, vətənə sədaqətlərini nümayiş etdirdilər. Sübut etdilər ki, Azərbaycan əsgərinin, Azərbaycan polisinin qarşısında heç bir düşmən qüvvəsi tab gətirə bilməz! Bunu tək düşmənlərimiz deyil, bütün dünya bildi! Bu gün Azərbaycan polisi ölkəmizdə cinayətkarlığa qarşı mübarizədə və ictimai asayişin qorunmasında çox böyük rol oynayır. Həmin mübarzənin öndə Çevik Polis Alayının əməkdaşları da var.

Onlar dövlət tədbirlərinin keçirilməsində, mədəni-kütləvi yığıncaqların təhlükəsizliyinin



təmin edilməsində öz üzərlərinə düşən vəzifə borcunu məsuliyyətlə yerinə yetirirlər. O cümlədən Bakı şəhərində bütün bayram tədbirlərinin keçirilməsi zamanı şənlikdə iştirak edən insanların təhlükəsizliyini yüksək səviyyədə təmin edirlər. Qarşıdan milli bayramımız - Novruz bayramı gəlir. Düz on gün iş günü olmayacaq.Yeni martın 20-dən 30-na kimi Azərbaycan polisi, eləcə də Çevik Polis Alayı gücləndirilmiş rejimdə işləyəcək. Yəni biz istirahət mərkəzlərində, evimizdə dincələrkən, bayram edərkən onlar 24 saat iş başında olacaq və bizim təhlükəsizliyimizi qoruyacaqlar.

**Allah da onları qorusun. Bir faktı da qeyd edək ki, Çevuk Polis Alayının Binəqədi rayonundakı bölüyü və onun komandiri Elvin Babayev Prezidentə, dövlətə və xalqa sədaqətlə xidmət edirlər. Onlar Bakı şəhərində və rayon ərazisində keçirilən bütün dövlət, kütləvi tədbirlərdə insanların təhlükəsizliyini yüksək səviyyədə təmin edirlər. Bununla yanaşı, Çevik Polis Alayının Xətai, Nizami, Yasamal, Nəsimi və Nərimanov rayonlarındakı bölükləri də cinayətkarlığa qarşı mübarizədə və ictimai asayişin qorunmasında öz üzərlərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirirlər. Bu isə o deməkdir ki, xalqımız bayram günlərində çox rahat istirahət edə, şənlənə bilər. Çünki onları qoruyan və təhlükəsizliyini təmin edən Azərbaycan Polisi var! Novruz bayramı münasibətilə öncədən Azərbaycan polisini təbrik edir, onlara cansağlığı arzulayırıq!!! Allah bir daha şərəfli və namuslu Azərbaycan polisini qorusun!!!**

**Emil FAİQOĞLU**

# «Azərbaycan müharibədə nəinki tərəf tutmur, əksinə...»

**"Son bir həftədir sosial mediada qarşıma bir neçə video çıxıb ki, bu halın məni narahat etmədiyini desəm, doğru olmaz. Qarşıma çıxan videolarda diqqətimi cəlb edən nüans Azərbaycanda yerləşən bir neçə məsciddə axundlar İsrail-ABŞ-İran müharibəsini diqqətə gətirərək İranın və mərhum Ayatulla Seyid Əli Xomeyninin təbliğatını aparır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Samir Hümbətov deyib.

Politoloqun sözlərinə görə, bu kontekstdə ortaya sual çıxır ki, Azərbaycan dövləti rəsmən bu müharibədə bitərəf mövqe tutduğu halda və həmin axundlar Azərbaycan dövlətindən maaş aldığı halda niyə İran təbliğatı



aparılır?: "İkinci Qarabağ savaşında İran məscidlərində Azərbaycanın təbliğatı aparılırdı ya Ermənistana İran üzərindən silah aparılırdı? Axı İran PUA-ları Naxçıvanda hava limanı və məktəbi hədəf alanda niyə səslərini çıxarıb, bunun doğru olmadığını bildirmədilər? Hər addımda İranın Azərbaycanı sionislərlə (İsraillə) əməkdaşlıq etməkdə günahlandırıb hədələməyə cəhd edən İrana niyə etiraz etmirlər? Bu gün İranı müdafiə edən həmin şəxslər Azərbaycanda yaşamırmı yaxud ölkəmizin qanunlarını qəbul etmək istəmirmi? Nəhayət, qeyd etmək istərdim ki, Azərbaycan müharibədə nəinki tərəf tutmur, əksinə regionda sülhün və sabitliyin tərəfdarı olduğunu hər vasitə ilə bildirir. Hətta, Azərbaycan İrana humanitar yardım da göndərib. Hesab edirəm ki, bu məsələ ilə bağlı müvafiq qurumlar nəzarəti gücləndirərsə, bu ölkəmizin təhlükəsizliyi baxımından daha faydalı olar".

**Vasif**

# "Bu ixtisarların nazirliklərdə də aparılması çox vacibdir"

**Xəbər verdiyimiz kimi, Ağsuda 14, Tovuzda 43, Cəlilabadda 38, Qubada 36, Göyçayda 27, Lənkəranda 44, Bərdə icra hakimiyyətində isə 43 nəfər vəzifəsini itirib.**

İcra Hakimiyyətlərindəki kütləvi ixtisarlarla bağlı Adalet.az-a danışan professor Qulu Məhərrəmlinin sözlərinə görə, ümumiyyətlə idarəçilik təcrübəsi göstərir ki, nə qədər çoxştatlı, çoxməmurlu, çoxstrukturlu idarəçilik olursa bir o qədər ağsamalar olur.

O, bildirib ki, ona görə də gərəkli vəzifələri saxlayıb, digər yardımçı vəzifələrin ixtisar olunmasına təbii baxmaq lazımdır:

"Bu təkcə maliyyə vəsaitinə qənaət etmək deyil, həm də idarəçiliyin sadə mexanizm üzərində qurulmasıdır. Məqsəd budursa, əlbəttə ki, bu çox məqsədəuyğun islahatdır. Mənə elə gəlir ki, bir çox mərkəzi və yerli icra orqanlarında bir çox belə vəzifələr var ki, onlarda sadəcə olaraq ştat, maaş var, amma idarəçilikdə önəmli rol oynamır. Ona görə də bu cür ixtisarların aparılması məqsədəuyğundur və bunu təkcə yerlərdə deyil, strukturlarda, nazirliklərdə, baş idarələrdə, dövlət şirkətlərində də aparılması çox vacibdir".

**Sübhan**

## İlahiyyatçı: "Bunlar hamısı İlahi nizamın təzahürüdür"



**"İslamda təsadüf yoxdur, təvafüq var. Fətvaları yenə gözdən yayınıb fars şüubiyyəsinin ideologiyasına uyğun vermək lazım deyil. Bilməyənləri aldada bilərlər, ancaq məqsədi anlayanların iradına da nöqsan tutula bilməz. İstənilən şəxsə sübut etməyə hazıram ki, dini fıtvada "təsadüf edəcək" sözü və fikrinin istifadəsi məna olaraq da, termin olaraq da küfrdür və İslam fəlsəfəsinə, hüququna ziddir. Təvafüq sözü ilə tanış deyillərsə bilənlər fətva şurasına izah etsin zəhmət olmasa".**

Adalet.az xəbər verir ki, bunu Tural İrfan deyib.

O, bildirib ki, nə kainat təsadüfən yaradıb, nə də Ramazan bayramı təsadüfən Novruz bayramına rastlayıb:

"Bunlar hamısı ilahi nizamın təzahürüdür və bir hikmətə, səbəbə, zərurətə bağlıdır. Təsadüf başqadır, zərurət başqa. Dini fətvalar verilərkən diqqətli olunmalı, ən azı mötəbər alimlərin fətva nümunələrinə nəzər yetirilməlidir. Fətva verilərkən hansı dəlilə, hansı sübuta əsaslanılıbsa o da mətndə açıq göstərilməlidir. Əgər Qurana, Peyğəmbər hədislərinə, icmaya, rəyə, qiyasa, istihsana, ağıla əsaslanıblarsa bu göstərilməlidir. Artıq indi "ağa deyirsə sür dərəyə, sür" dövrü keçib. İndi insanlar ağıla, dəlilə əsaslanan həqiqətləri qəbul edirlər. Ən əsası isə İslam hüququnun, fiqhin, üsuli-fiqhin metodologiyası bunu tələb edir".

## Politoloq: "Robert Köçəryanın baş nazirliyə namizəd olması Kremlin planıdır"



**"Ermənistanın eks-prezidenti R.Köçəryan "Hayastan" bloku tərəfindən baş nazirliyə namizədliyi irəli sürülüb. Rusiyanın dəstək verdiyi R.Köçəryan və iş adamı S.Karapetyanın "Güclü Ermənistan" partiyasının N.Paşinyana qarşı ciddi şəkildə kampaniya aparacağı gözlənilir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib. O, deyib ki, Rusiya hər iki partiyanı dəstəkləməklə N.Paşinyanın elektoradını parçalamağa çalışır:

"Buna baxmayaraq hər iki siyasi təşkilatin N.Pasinyanın qələbəsinə ciddi maneə yaradacağı mümkün görünmür.İyunun 7-də keçiriləcək seçkilərdə N.Paşinyan və R.Köçəryan arasında əsas mübarizə olacaq. Rusiyanın dəstək verdiyi, Qarabağ hərəkatının davam etməsinin vacibliyini vurğulayan, revanşist kilsə rəhbərliyinin dəstək verdiyi R.Köçəryan və Qarabağ hərəkatına qarşı olaraq, sülhü təbliğ edən N.Paşinyan arasında xalq seçim edəcək. Ümumiyyətlə R.Köçəryanın namizəd olması, N.Paşinyanın qələbəsini şərtləndirən əsas amillərdən biridir. Amma, Rusiya Ermənistanda seçkilərdə təxribatlara əl ata bilər. Ona görə də Avropa İttifaqı Ermənistana missiya göndərəcək. Ermənistan uğrunda Avropa İttifaqı və Rusiya arasında mübarizə yeni müstəvidə davam edəcək. Türkiyə və Azərbaycan hazırkı N. Paşinyanın qələbəsində maraqlıdır.Gürcüstan hakimiyyəti isə, Rusiya ilə birgə R.Köçəryana dəstək verməsi gözlənilir.Gürcüstan hakimiyyəti R. Köçəryanın qələbə qazanmasında maraqlıdır".

## Ekspert: "Qaz cihazı olan otaqda təhlükəsizlik məsələsi ön planda olmalıdır..."



**Son zamanlar dəm qazından boğulan insanların sayı artmaqdadır. Təhlükəsizlik qaydalarını bilməmək və buna riayət edilməməsi sonda faciəyə gətirib çıxarır.**

Mövzuyla bağlı Adalet.az-a danışan təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev bildirdi ki, dəm qazı natamam yanma məhsuludur və yanma prosesi düzgün getmədikdə bu cür hadisələr baş verir:

"Yanma prosesi o zaman düzgün getmir ki, orda standartlara uyğun olmayan qaz cihazlarından istifadə edilir, otaqda kifayət qədər baca olmur, qaz cihazlara hər hansı bir kənar müdaxilə etdilir və faciə baş verir. Ümumiyyətlə, qaz cihazı olan otaqda təhlükəsizlik məsələsi ön planda olmalıdır. Yəni qazın yanması üçün otaqda kifayət qədər oksigen tələb olunur. Ona görə qaz cihazı quraşdırılan otağa diqqət etmək lazımdır ki, nəfəslik, havalandırma sistemi olsun, tüstü bacaları normativ standartlara uyğun və işlək vəziyyətdə olsun. Əlavə olaraq dəm qazı və qaz sızması əleyhinə dedektorlar da olmalıdır".

E.Nurəliyev deyib ki, dəm qazı əsasən hamam otaqlarında yaranır: "Ümumiyyətlə, təhlükəsizlik baxımından hamam otaqlarında qaz cihazının quraşdırılması məqsədəuyğun deyil. Quraşdırılsa belə mütləq orda təhlükəsizlik məsələsi nəzərə alınmalıdır".

**Vasif ƏLİHÜSEYN**

# "İnstitusional və hüquqi mexanizmlər heç vaxt indiki qədər geniş olmamışdır..."

**"Son 25 il ərzində, insan alverinin ilk beynəlxalq səviyyədə tanınmış tərifinin qəbul edilməsindən və ATƏT çərçivəsində insan alverinə qarşı ilk öhdəliklərin formalaşdırılmasından sonra, təşkilata üzv dövlətlər insan alveri ilə mübarizə istiqamətində fəaliyyət göstərirlər. Bəs bu səylər real irəliləyişə gətirib çıxarırmı? Təkcə 2024-cü ildə region üzrə dövlətlər tərəfindən təxminən 30 minə yaxın insan alveri qurbanı qeydə alınmışdır".**

Adalet.az xəbər verir ki, bunu "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib. O, bildirib ki, bu rəqəm bir tərəfdən cinayətin miqyasının genişlənməsini göstərsə də, digər tərəfdən dövlətlərin aşkarlama və identifikasiya imkanlarının artdığını da əks etdirir:

"2026-cı il ATƏT-in apardığı sorğusunun nəticələri göstərir ki, dövlətlər tədricən qurbanların müdafiəsini mərkəzə qoyan idarəetmə modelinə keçsələr də, qanunvericilikdə əldə olunan irəliləyişlə onun praktik tətbiqi arasında hələ də ciddi "icra boşluğu" (implementation gap) mövcuddur. Əmək miqrasiyası və işə qəbul proseslərinin tənzimlənməsi üzrə yeni hüquqi çərçivələr, eləcə də insan hüquqları üzrə korporativ məsuliyyət və "due diligence" qanunvericiliyinin artması kimi tədbirlər sistemli risklərin - xüsusilə borc əsarəti (debt bondage) və əmək istismarı məqsədli insan alverinin - qarşısını almaqda nə dərəcədə effektivdir? Digər tərəfdən, qurbanların müəyyən edilməsi mexanizmləri də dəyişməkdədir. Əvvəllər əsasən hüquq-mühafizə orqanlarının əməliyyat məlumatlarına əsaslanan identifikasiya prosesi indi getdikcə çoxsahəli əməkdaşlıq modellərinə, vətəndaş cəmiyyəti və sosial xidmətlərin iştirakına, həmçinin qurbanların öz təşəbbüsü ilə yardım axtarmasına doğru yönəlir.Eyni zamanda, cinayətkar şəbəkələr şifrələnmiş kommunikasiya vasitələri və süni intellekt texnologiyalarından daha aktiv istifadə etdikcə yeni bir sual yaranır: cinayətkar qrupların texnoloji



çevikliyi ilə hüquq-mühafizə orqanlarının texniki imkanları arasında "rəqəmsal uçurum" dərinləşirmi?".

M.Zeynalovanın sözlərinə görə, uşaq müdafiəsi sahəsində də maraqlı bir paradoks müşahidə olunur:

"İnstitusional və hüquqi mexanizmlər heç vaxt indiki qədər geniş olmamışdır, lakin sahədə, yəni yerli icmalar və xidmət səviyyəsində, praktiki müdaxilə və profilaktika tədbirlərinin zəifləditi barədə narahatlıqlar artır. Bu ziddiyyət nə ilə izah olunur? Digər mühüm məsələ insan alverçilərin əmlak və maliyyə aktivlərinin müsadirəsi ilə bağlıdır. Bu tədbirlər doğrudanmı qurbanların kompensasiya və bərpa imkanlarını artırır, yoxsa hüquqi mexanizmlərlə onların real istifadə oluna bilməsi arasında hələ də ciddi uyğunsuzluq qalır? Nəhayət, son illərdə qurbanların və sağ qalanların rəyinin sistemli şəkildə toplanması və siyasətə inteqrasiyası sürətlə artmışdır; bu praktikanın istifadəsi 2021-ci ildən bəri təxminən üç dəfə artmışdır.

Bu tendensiya insan alverinə qarşı qanun və siyasətlərin effektivliyini və yardım xidmətlərinin keyfiyyətini qiymətləndirmə üsullarını dəyişdirirmi? Bu suallar göstərir ki, insan alveri ilə mübarizədə normativ və institusional irəliləyişlər olsa da, real təsirin qiymətləndirilməsi və praktiki nəticələrin təmin edilməsi hələ də əsas çağırış olaraq qalır".

**Vasif ƏLİHÜSEYN**

# «Ermənilər Qarabağla bağlı tezislərin yeni müharibəyə səbəb olacağını anlamamış deyillər»

**"Ermənistanın keçmiş prezidenti Robert Köçəryan lideri olduğu "Hayastan" blokunun baş nazirliyə namizədi olub. Köçəryan martın 16-da blokun tədbirindəki çıxışında hər il Ermənistanda 45 min yeni iş yeri yaradacağını vəd edib. Tərəfdarlarına müraciətində Köçəryan vurğulayıb ki, təhlükəsizlik Ermənistanın qarşıdakı illərdə əsas prioritetlərindən biri olacaq qalacaq. O bildirib ki, buna nail olmaq üçün ölkənin döyüşə hazır orduya, güclü liderə və etibarlı müttəfiqə ehtiyac var. O, həmçinin Azərbaycanla sülhə üstünlük verdiyini, ancaq bunun üçün aydın təhlükəsizlik**



**zəmanətinə ehtiyac olduğunu söyləyib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Köçəryanın sözlərinə görə, Ermənistanın xarici siyasəti proqnozlaşdırıla bilən, başa düşülən olmalı və böyük dövlətlər arasındakı fikir ayrılıqlarından sui-istifadə etmək ideyasını rədd etməlidir:

"Robert Köçəryanın açıqlamalarının mənası aydındır. O "etibarlı müttəfiq" dedikdə Rusiyanı nəzərdə tutur. Yəni demək istəyib ki, qalib gələrsə, Ermənistan Cənubi Qafqazda əvvəlkitək Rusiyanın vassalı rolunu oynayacaq. Erməni saytlarında Köçəryanın çıxışında Qarabağla bağlı fikrinə rast gəlmədim. Əksinə, o baş nazir olacağı halda Azərbaycanla sülhə üstünlük verəcəyini bildirib. Hiyləgər Köçəryan bilir ki, seçkiqabağı çıxışlarında "Qarabağın geri qaytarılması" kimi məntiqsiz fikirlər səsləndirsə, səs qazana bilməyəcək. Ermənilərin əksəriyyəti Qarabağla bağlı tezislərin Azərbaycanla yeni müharibəyə səbəb olacağını anlamamış deyillər. Ona görə, Köçəryan seçiciləri qorxutmaq istəmir. Ancaq erməni seçiciləri onu da bilməlidirlər ki, yenidən Köçəryanı hakimiyyətə gətirsələr, bu sülh quruculuğuna, o cümlədən bölgədə kövrək sabitliyə zərbə olacaq".

Demək, Bakıdan ermənilərə indidən mesaj göndərilməlidir ki, hazırki sülh quruculuğundan kənarlaşmaq bölgədə gərginlik mənbəyinə və Ermənistanın itkilərinə səbəb olacaq".

**Eldar**

# "ABŞ-nin quru qoşunlarının İrana müdaxiləsi hərbi münaqişəni genişləndirəcək"

**"ABŞ-nin diqqətinin İranla müharibəyə yönəlməsi Ukraynaya hərbi yardımların gecikdirilməsinə səbəb olur. Bundan istifadə edən Rusiya Ukrayna cəbhəsində hərbi təzyiqləri artırmağa çalışır. Lakin Ukrayna artıq kifayət qədər möhkəm müdafiə mövqeləri formalaşdırıb və Rusiyanın quru qoşunları ilə ciddi irəliləyiş əldə etməsi real görünmür".**

Adalet.az zəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, əgər ABŞ İrana qarşı quru əməliyyatına başlasa, bu vəziyyət Çinin geosiyasi mövqeyinin daha da güclənməsinə səbəb ola bilər:



"Çünki belə bir əməliyyat ABŞ üçün uzunmüddətli və çətin müharibə deməkdir. Eyni zamanda Rusiyanın Ukraynada ilişib qalması qlobal güc balansında Çinin yüksəlişini daha da sürətləndirə bilər. ABŞ-nin Rusiya-Ukrayna müharibəsində həlledici nəticə əldə etmədiyi bir mərhələdə İrana qarşı geniş hərbi əməliyyatlara başlaması Vaşinqtonun eyni vaxtda iki strateji cəbhədə ciddi çətinliklərlə üzləşməsi riskini artırır.

ABŞ prezidenti Donald Trump isə birbaşa olaraq İsrailin təhlükəsizliyini və regiondakı geosiyasi mövqelərini möhkəmləndirmək məqsədilə İrana qarşı hərbi addımları sürətləndirdi. Halbuki Rusiya-Ukrayna müharibəsi davam etdiyi şəraitdə bu qərar riskli görünür. ABŞ həmçinin enerji və ticarət marşrutlarının təhlükəsizliyini qorumaq üçün Hörmüz boğazının açıq saxlanması məqsədilə NATO ölkələrini dəstəyə çağırır. Digər tərəfdən Vaşinqton Rusiyanın tərəfdaşları sayılan Venezuela, Kuba və İran üzərinə siyasi və iqtisadi təzyiqi artırmaqla Moskvanın qlobal dayaqlarını zəiflətməyə çalışır. Paralel olaraq ABŞ iqtisadi və texnoloji rəqabət vasitəsilə Çinin gücünü balanslaşdırmağa çalışır.Bununla belə, ABŞ-ın təkbaşına yeni qlobal siyasi nizam qurması real görünmür. Bu prosesdə həm Avropa İttifaqı, həm də NATO kimi müttəfiq strukturların rolu həlledici olaraq qalır".

**Sübhan**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Vətən daşı olmayandan...

**Vətəni sevmək hamının borcudur. Ən azından Vətən elə Ana deməkdir. Vətəni seviriksə, deməli Anamızı da sevirik. Hər bir insan Vətənə öz borcunu müxtəlif formada ödəyir; kimi şəhid olur, kimi qazi olur, kimi də qalib olur.**

**Əsas məsələ odur ki, elinə-obana, Vətəninə xidmət edəsən. İnsan da var ki, Vətənin ağır günündə yanında olur, canını bu yolda fəda edir, böyük quruculuq və abadlıq işlərinə təkan verir. Və belə Vətənpərvər insanlardan biri də Qubadlı rayonunun Mollu kəndindən olan gözəl insan, böyuk ziyalı, elinə-obasına çətin, ağır gündə arxa duran iş adamı İlham Əliyevdir. O, Qubadlının sayılıb-seçilən, böyük hörməti olan ailələrdən birinin övladıdır.**



**Həmişə də Qubadlı ilə nəfəs alıb, onun adını, şərəfini uca tutub. Qubadlının ən ağır, ən çətin anlarında insanların arasında olub və onlara arxa durub.**

**Həm Birinci Qarabağ Savaşında, həm də İkinci Qarabağ müharibəsində döyüşən əsgərlərimizin, oğullarımızın yanında olub. Onlara maddi və mənəvi kömək göstərib. Başqa cür də ola bilməz. Çünki vətənpərvərlik, yurd sevgisi İlham qardaşımızın qanındadır**

**2020-ci il sentyabr 27-də başlayıb noyabrın 10-da başa çatan 44 günlük möhtəşəm qələbəmizdən və ərazi bütövlüyümüz təmin edilndən sonra o, Qubadlıda və eləcə də işğaldan azad edilən digər rayonlarda bir iş adamı kimi abadlıq, quruculuq, tikinti işlərində yaxından iştirak edib. Daha doğrusu, ürəyinin, qəlbinin atəşini elinin-obasının yenidən qurulmasına həsr edib. Hər dəfə bir iş görəndə, daşı daş üstə qoyanda sevinib.**

**Və sevinib ki, insanların yurda qayıtması üçün möhtəşəm işlərin görülməsində iştirak edib. O, tək elini-obasını sevməyib, bütün Türk dünyasını sevib. Dəfələrlə Vətənpərvərliklə bağlı Türkiyədə keçirilən tədbirlərə dəvət alıb və orda iştirak edib! İlham Əliyevin bu gün də bir ayağı bərpa və quruculuq işləri gedən işğaldan azad olunmuş rayonlarımızdadır! Və o deyir ki, hər dəfə o yerlərə gedəndə çiynimdən ağır bir yük götürülür və özümü çox rahat hiss edirəm.**

**Mən həmişə Ulu Öndər Heydər Əliyevin və prezident İlham Əliyevin tutduğu siyasi xətti müdafiə etmişəm. Çünki bilmişəm ki , hər iki böyük siyasətçi bizi işıqlı yola aparır. Və mən də bu yolu tutmuşam! Bəli, bizim tanıdığımız İlham qardaşımız belə bir vətənpərvər insandır. Xalq şairi Məmməd Araz çox gözəl deyib: "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı..."**

## *"İranı idarə edən generallar Ermənistanı da hədəf seçə bilərlər..."*

**"Ermənistanın baş naziri Nikol Paşinyan son açıqlamalarının birində ABŞ-İran müharibəsi fonunda "Tramp yolu"nun tikintisinin ləngiyə biləcəyini deyib. İlk baxışdan Paşinyan bu açıqlaması ilə Vaşinqtonun İrana qarşı müharibənin dəhlizin tikintisini arxa plana keçirdiyini demək istəyib".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, bildirib ki, ancaq Paşinyanın bu açıqlamasını həm də Tehranı sakitləşdirməyə çalışması kimi dəyərləndirmək mümkündür: "İrandakı mühafizəkar qüvvələr İkinci Qarabağ müharibəsi bitən gündən "Zəngəzur dəhlizinin əleyhinəyik" deyirdilər. Onların bu mövqeyi "Tramp yolu" üçün də eynidir. İran sağa, sola dron və raket atsa da, Ermənistana hələ toxunmayıb. Ancaq hazırda İranı idarə edən generallar Ermənistanı da hədəf seçə bilərlər. Doğrudur, Tehran illər boyu Ermənistan hakimiyyəti ilə əlbir olub, ancaq Nikol Paşinyanın Qərblə yaxınlığı İrandakı dairələri narahat etməyə bilməz. Paşinyanın "Tramp yolu"nun keçdiyi istiqaməti ABŞ-yə icarəyə verməsi də iranlı genaralların diqqət mərkəzindədir. Odur ki, Azərbaycana dron atanlar Ermənistanı da hədəf seçə bilərlər. Bu Paşinyanı devirmək istəyən Rusiyadakı qüvvələrin, o cümlədən erməni radikalların maraqlarına cavab verər".

Sübhan

## *23 manata fındıq olar???*



**Bayram qabağı Bakının bütün bazarlarında və marketlərində demək olar ki qoz, fındıq, badam, fısdıq ləpələrinin qiyməti kəllə-çarxa qalxıb. Ümumiyyətlə, bütün çərəzlərdə qiymət artımı var.**

Amma fındıq ləpəsinin qiyməti lap fantastikdir. Hələ bu yaşa çatmışam fındığın indiki kimə baha- yəni kiloqramı 22-23 manata görməmişəm.Dəfələrlə diqqət eləmişəm; nə bazarlarda, nə də marketlərdə əksər insanlar ona baxıb gedir və almırlar. Çünki onun qiyməti əl yandırır.

Tək- tük adam tapılar ki, baha qiymətə olan fındıqdan alsın.Bəs fındığın belə baha qiymətə satılmasına səbəb nədir? Təbii ki, bu suala birmənalı cavab vermək çətindir.Ekspert Kamil Əliyev deyir ki, ötən il ölkəmizdə fındıqçılıq sahəsində böhran yaşanıb, daha doğrusu, məhsuldarlıq yaxşı olmayıb.

Belə ki, havaların əlverişsiz keçməsi, fındıq ağaclarının xəstəliyə yoluxması məhsuldarlığa mənfi təsir edib!Bununla yanaşı, xaricdən ölkəmizə bu məhsul o qədər də yetərincə ixrac olunmayıb. Eyni zamanda qiymətlərin süni surətdə artırılması da heç kimə sirr deyil.Bax bütün sadaladığımız səbəblər qiymət artımına səbəb olub. Bir sözlə, pulun varsa , fındıq al, pulun yoxsa , baxa- baxa qal və mənim kimi kənara çəkil. Guya fındıq yeməsək dünya dağılacaq???

## *Rusiya toylarında oxuyan müğənnilərin çoxunun sənətdən xəbərləri yoxdur...*



**Bu gün hər yerindən duran deyir ki, müğənniyəm. Tay bilmirlər ki, müğəninin səsi olar, səhnə mədəniyyəti olar. Hələ biz onun bəstəkar və xalq mahnılarını gözəl ifa etməsini demirik. Televizayalara çıxıb orasını-burası göstərmək, atılıb-düşmək və düşük-düşük barmaqlarını uzadıb, tamaşaçıların görüşünə " soxmaq" müğənnilik deyil. Amma adi musiqi notlarını bilməyən və küçədən birbaşa televiziyalara gələn belələri bu böyük sənəti təhqir edir, ayaqlar altına atırlar.**

Üstəlik də yaxşı pul qazanırlar və deyirlər ki, hər ay 15-20 gün Rusiya toylarındayıq. Bunu da düz deyirlər.Çünki onları toylara aparan , başlarına dollar səpənlər də onlar səviyyəli adamlardır. Bu barədə Əməkdar artist Gülüstan xanım da öz narahatlığını bildirir. O deyir ki, Rusiya gedənlər çoxu avtobus dayancaqlarında, Avtovağzallarda bayağı mahnıları səsləndirilən toy müğənnilərıdir.Çünki Rusiya bazarlarında alver edən adamlar onları toylarına aparır və çoxlu pul verirlər.

Onların da musiqi duyumu həmiya aydındır.Təbii ki, musiqi zövqü olamayan belə admalrın imkanları böyükdür və sənətdən xəbəri olmayan " müğənni" ləri toylarına aparırlar.Gülüstan Əliyeva düz deyir, kor atın da , kor nalbəndi olar! Və bu gün musiqimizi və insanların zövqünü korlayan belə müğənnilər Rusiya toylarında meydan sulayır. Bunun da günahkarı elə biz özümüzük. Toylara sənətkarları deyil, küçədən gələn müğənniləri aoarırıq!!!

## *Dövlət bağçası, yoxsa özəl bağça?!*



**Hər bir insanın öz seçimi var. Bu gün kimlərəsə, öz uşaqlarını ya dövlət bağçasına, ya da özəl bağçaya qoyur. Və bunları hər bir xidmətə görə digərlərindən seçilir. Təbii ki, imkanlı ailələr uşaqlarını öncə özəl bağcalara qoyular.**

Çünki həmin bağçlara baha olsa da, şəriti və xidməti yüksək səviyyədədir. Bir qayda olaraq qışda istilik sistemi, yayda kondisioner sistemi mövcuddur. Hələ üstəlik də, tədris, təlim- tərbiyə və qidalanma yüksək səviyyədədir. Orada uşaqlar üçün verilən qidalar çoxçeşidli və kolarilidir. Düzdür, qiymətlər çox bahadır.

500 manatdan tutmuş 1500 manata qədər və daha da çox. Əlbəttə belə şəraitdə uşaqlar özlərin daha yaxşı hiss edir. Amma dövlət bağcalarında bu xidmətin heç onda biri də yoxdur. Uşaqlarını dövlət bağçalarına qoyanlar həm yeməyin keyfiyyətindən, həm də xidmətdən çox narazılıq edirlər. Onlar deyir lər ki, bəzən uşaqlar ət yeməyi belə vermirlər.

Çox vaxt makorondan və vərməşildən hazılanmış yeməklər bişirilir. Üstəlik də, bəzi dövlət bağçalarında antisanitariya səriti hökm sürür. Bax, buna görə də imkanlı ailələr dövlət bağçalına uşaqlarını qoymurlar və özəl bağçaları seçirlər! Və hər bir ailə öz imkanı hesabına ya dövlət, ya da özəl bağçalara üstünlük verir! Bu da təbiidir!!!

## *Riyaziyyat fənnindən sualllar çətin olub...*



**Dövlət İmtahan Mərkəzinin martın 9-da keçirdiyi 11- iciləri buraxılış imtahanında Riyaziyyatdan düsən sualllar çox çətin olub. Bunu əksər abituriyentlər söyləyirlər. Onlar deyirlər ki, həmin fəndən elə suallar var idi ki, çox çətin idi. Hətta elə suallar oldu ki, onun cavabı çox vaxt apardı.Bununla yanaşı, keçilməyən dərslərdən və ali məktəb səviyyəsində suallar olub. Təbii ki, bu da abituriyentlərin haqlı narazılığına səbəb olub və eyni zamanda onların yüksək nəticə göstərməsinə də mənfi təsir edir. Bu məsələ ilə bağlı bir neçə riyaziyyat müəllimi də öz fikirini səsləndirib.**

Onlar bildiriblər ki, həqiqətən də martın 9- da keçirilən imtahana zamanı bir çox suallar çətin olub. Bu isə əlavə vaxt aparmaqla yanaşı, abituriyentlər arasında çaşqınlıq yaradıb. Dövlət İmtahan Mərkəzinindən isə bildirirlər ki, bütün suallar orta məktəbdə tədris olunmuş proqram əsasında hazırlanıb. Elə bizim ekspertlərində əksəriyyəti orta məktəblərdə dərs deyən müəllimlərdir.

Dövlət İmtahan Mərkəzin həmişə qəbul imtahanlar zamanı belə vəziyyətdə abituriyentlərə yox , özlərinə haqq qazandırırlar .

El dilində demiş olsaq, heç kəs öz ayranına turş demək istəmir! Amma görünən odur ki, belə qəliz və çətin sualları tərtib etməklə sadəcə olaraq aidiyyəti qurum abituriyentləri çaşdırmaq istəyib və bu istəyinə də nail olub. Hörmətli Dövlət İmtahan Mərkəzinin rəhbərliyi , sualları mürəkkəbləşdirmək yox, sadələşdirmək lazımdir.

Çünki qonşu Ermənistanda , Gürcüstanda ali məktəblərə qəbul olan və bitirənlər bizdəkikərdən qat- qat çoxdur.Bunun da nəticəsində ali məktəbə qəbul ola bilməyən abituriyentlər qonşu ölkələrin təhsil ocaqlarına üz tuturlar . Həmin universitetlər onlar imtahansız qəbul olmaq üçün milyonlarla vəsait ödəyirlər. Elə olmazmı ki, həmin milyonlar ölkəmizdəki ali məktəblərin, daha döğrusu, dövlətimizin büdcəsinə keçirilsin. Bundan həm dövlətimiz qazanar, həm də həmin tələbələr!!

## *Maşın yarıyolda qalırsa...*



**Heç kimə sirr deyil ki, bir çox sürücülər avtomobillərini saz vəziyyətdə saxlamırlar. Bu da gec-tez özünü göstərməlidir. Ona görə də birmənalı olaraq hər bir nəqliyyat vasitəsini idarə edən sürücü onu texniki cəhətdən saz vəziyyətdə saxlamalıdır!**

Amma təəssüf ki, bir çox halda bu belə olmur. Başqa sözlə demiş olsaq, bir çox hallarda avtomobillər sıradan çıxaraq saatlarla hərəkətin intensiv olduğu küçə və prospektlərdə qalır. Belə olanda da digər nəqliyyat vasitələri üçün qəza şəraiti yaranır.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis mayoru Toğrul Nəsirli deyir ki, belə vəziyyət yarananda ilk növbədə sürücü təhlükəsizlik tədbirləri görməli, qəza işıqların yandırmalı, avtomobil yolun hərəkət hissəsindən evakuasiya edilməlidir. Bu proses nə qədər tez yerinə yetirilsə, mövcud qəza vəziyyəti aradan qaldırılmış olar.

**Eyni zamanda Bakı Şəhəri Dövlət Yol Polisi İdarəsinin əməkdaşları xidmət apardıqları avtomobil yollarında yarıyolda qalmış nasaz avtomobilləri yolun hərəkət hissəsindən götürülməsi üçün sürücülərə lazımi kömək göstərir.Ümumiyyətlə, digər nəqliyyat vasitələrinin hərəkəti üçün maneəçilik göstərən hər hansı mövcud çatışmazlıq operativ olaraq əməkdaşlarımız tərəfindən aradan qaldırılır. Bir də əgər sürücülər yarıyolda qalmaq istəmirlərsə, onada zəhmət çəkib idarə etdikləri avtomobilləri saz vəziyyətdə saxlasınlar!!!**

**Emil FAİQOĞLU**



# Gəncədən başlayan böyük dostluq: Səməd Vurğun və Mir Cəlal



**_Ramiz Göyüş_**
**_Yazıçı-publisist_**

**Səməd Vurğun yeniyetmə çağlarında da , Qazax müəllimlər seminariyasında oxuduğu illərdə də, sonralar qaynar həyata atılanda da, yüksək vəzifə kürsüsündə də həmişə çevrəsində çoxsaylı dostları, tələbə yoldaşları, ziyalılar, dövrünün görkəmli şəxsiyyətələri, söz və sənət adamları olurdu. O, həm fitri istedadı ilə, həm də şəxsiyyətinin bütövlüyü ilə müasirləri arasında şöhrət qazanmışdı.**

Səməd Vurğun şəxsiyyətinə və yaradıcılığına böyük hörməti olan, onunla dostluq edən ziyalılarımızdan biri də görkəmli pedaqoq, nasir, ədəbiyyatşünas alim Mir Cəlal olmuşdur. Duzlu, məzəli, yumoristik və nəsihətamiz hekayələrin, altı romanın, altı monoqrafiyanın, ədəbiyyat nəzəriyyəsi dərsliyinin müəllifi, Səməd Vurğunun yaradıcılığına aid 6 disertasiyanın elmi rəhbəri, milli ziyalılıq etalonu olan Mir Cəlal həm də maraqlı memuarların, xatirələrin müəllifidir. Onun İçərişəhədə, Kiçik Qala küçəsindəki 16 nömrəli kirayədə yaşadığı evin sahibi, hesabdar Mirzə Qasımdan tutmuş, Ali Sovetin sədri Soltan Məcid Əfəndiyevədək, "Kommunist"qəzetinin baş redaktoru İbrahim Əminbəylidən, məşhur folklorşünas Vəli Xulufluya, dahi bəstəkarımız Üzeyir bəyədək, ən səmimi xatirələri vardır. Ancaq onun ən kövrək xatirələri məhz böyük şairimiz Səməd Vurğunla bağlıdır. Bu xatirələrdən biri 1956-cı ilin mayında şair ağır xəstə yatarkən yazılıb. Həyatının son günlərini yaşayan Səməd Vurğun üçün çox ağır may günlərində, onu itirəcəyini yəqin bilən dostu Mir Cəlal böyük kədər hissi ilə yazırdı: "...otuz ilə yaxın bir müddətdə onunla bir yerdə, eyni cəbhədə, eyni sahədə, həm işdə, həm ailədə, məişətdə yaxın-həmfikir olmuşam. Onunla keçirdiyim saatlar, günlər zehnimdə canlandıqca ətrafıma baxır, böyük şairi, həqiqi dostu axtarır, həyacanımı gizlədə bilmirəm."

Səməd Vurğunla Mir Cəlal arasında cəmi iki yaş fərqi olmasına baxmayaraq, elə ilk tanışlıqdan sonra onların arasında qarşılıqlı mehriban və səmimi bir ünsiyyət yaranmışdı. Sonralar bu münasibət inkişaf edərək ailəvi dostluğa çevrilmişdi. Mir Cəlal da, Səməd Vurğun kimi, istər yaradıcılıq, istər elmi-pedaqoji, istər ictimai fəaliyyəti, istərsə də şəxsiyyəti etibarı ilə dövrünün görkəmli ziyalılarından idi. Bu baxımdan onların sıx münasibətlərinin olmasında bir təbii qanunauyğunluq var idi.

Böyük şairlə, böyük ədibin dostluğunun başlanğıcı 100 il bundan əvvələ-1928-ci ilə gedib çıxır. Mir Cəlalın uşaqlıq və gənclik dövrü Gəncədə, 30-cu illərin qaynar ədəbi-mədəni nühitində keçir və bu mühit onun gələcək taleyinin müəyyənləşməsində və formalaşmasında mühüm rol oynayır. O vaxtlar Gəncədə "Qızıl Gəncə" jurnalı nəşr olunurdu. "Qızıl qələmlər"cəmiyyətinin Gəncə filialı fəaliyyət göstərir və Həmid Araslı, Mikayıl Rzaquluzadə, Nigar Rəfibəyli, Zeynal Xəlil, Cəfər Xəndan, Səməd Vurğun, Əli Məhzun, Əli Razi, Əhməd Cəmil kimi gələcəyin görkəmli ədəbiyyat adamları bu dərnəyin fəal üzvləri idi. Bu ədəbi mühit elmə, təhsilə, yaradıcılığa böyük meyl göstərən Mir Cəlalı da özünə çəkir və çox keçmir ki, o, da bu cəmiyyətin fəal üzvlərindən birinə çevrilir. Elə həmin illərdən də Mir Cəlalın Səməd Vurğunla münasibətləri yaranır. Mir Cəlal xatirələrində yazır: "Mən Səməd Vurğunu ilk dəfə Gəncədə (Kirovabadda) o zaman cavan ziyalıların çox sevdiyi Maarif evində görmüşəm... Səməd Vurğun... Qubadan müəllimlik vəzifəsinə Gəncəyə köçürülmüşdü. Partiya məktəbində ədəbiyyat dərsi deyirdi. Ancaq Vurğun yaratmaq, yazmaq, gündən-günə böyüyən doğma, izdihamlı şəhərin qaynar ictimai həyatında fəal çalışmaq həvəsi ilə yanırdı. Proletar yazıçıların burda bir şöbəsi təşkil olunmuşdu, "Qızıl Gəncə" adlı jurnal nəşr edilirdi. Sənaye ocaqlarında, komsomol, həmkarlar yığıncaqlarında cavan şair və ədiblərin çıxışları təşkil olunurdu."

Bu tədbirlərdə yaxından iştirak edən gələcəyin böyük ədəbiyyatşünası və yazıçısı Mir Cəlal həmin günləri xatırlayaraq yazırdı: "Belə məclislərdən biri dəmir körpü yanındakı Maarif evində keçirilirdi. Bakıdan Proletar Yazıçıları cəmiyyətindən gəlmiş nümayəndələr çıxış edirdilər. Şeirlər oxunur, nitqlər deyilir, alqışlar gedirdi. Məclisin axırına yaxın Əbdülbaqi Fövzi bir şeir oxudu: "Komsomol qız , məni gəl dinlə bir az". Sonra boz şinel geymiş arıq, qara oğlan tribunaya çıxdı, nitqini qeyri-adi, o zaman az təsadüf edilən bir ahəng və sərbəstliklə başladı.



"A yoldaşlar, bayaq siz burda oxunan yazını nəyə görə alqışladınız? Bəyəm o şeirdi? Bəyəm şeir elə olar? Yox, yanılırsınız. O, şeir deyil, açıq məktubdur. Şeirə, sənət əsərinə verilən tələb başqadır...

Oradaca mən bildim ki, bu oğlan Səməddir. Səməd Vurğun Fövzinin zəif bir şeiri xüsusi bir əda ilə oxuyub, lovğalanmasından bərk hirslənmişdi. Fikrini açıq söyləyib, o yazının şeir ilə heç bir əlaqəsi olmadığını dedi...Sonralar Fövzi mərkəzi mətbuatda ("Maarif və Mədəniyyət" R.G.) "Şairə cavab" şeirini yazdı. Cavab özü o vaxt oxunan şeirdən də dayaz və məzmunsuz idi."

Gənc Mir Cəlal da baş verən hadisələrin təsiri altında ilk hekayələrini yazır, "Müəllim" adlanan birinci hekayəsi "Qızıl Gəncə"nin ədəbiyyat səhfəsində, "Həkim Cinayətov" adlanan ikinci hekayəsi "Ədəbiyyat cəbhəsi" adlanan jurmalda nəşr edilmişdi. Bu hekayələr əslində baş verən proseslərə gənc ədibin mövqeyi və reaksiyası idi.

Həmin hekayələr Mir Cəlalın bir yazıçı kimi ədəbi mühitdə tanınmasında xüsusi rol oynamışdı. Elə həmin günlərdən Mir Cəlalın Səməd Vurğunla həm çəxsi münasibətlər zəmnində, həm də yaradıcılıq müstəvisində bir yaxın dostluq münasibətləri yaranmağa başlamışdı.

Həmin günləri xatırlayan Mir Cəlal "Xatirə dəftəri"ndə yazırdı: "...Belə məclislərdə Vurğunun gur, bakir, yeni, səmimi, cazibəli şair səsi eşidilir, sürətlə yayılırdı. Həmin yığıncaqlarda mən Vurğunu həm komsomol yoldaşım, həm də yeni, inqilabi şeirin gələcəyə, böyük gələcəyə, bir müraciəti kimi iftixar hissi ilə dinləyirdim...Bir dəfə şeirlərindən birini çap etdirmək üçün Gəncə qəzetinin redaksiyasına getməyi məndən xahiş etdi. Redaksiyada "Şərq Ərəbi" təxəllüsü ilə çaılışan, rəsmiyyətçi bir qəzetçi var idi. Şeiri alıb oxudu və ehmalca Səmədə qaytardı ki, "Bizim qəzetdə çap oluna bilməz." Vurğun vüqar və təmkinini pozmadan qəzet işçisinə kəskin cavab verdi:

"Nə oldu, mənim şeirlərim mərkəzi mətbuatda çap olunmağa layiq oldu, amma sənin qəzetində yaramadı?...

... Səməd şeiri götürüb , cibinə qoydu, redaksiyadan çıxdı. Neçə gün sonra həmin şeir mərkəzi mətbuatda, sonra isə Moskva qəzetlərində çap olundu (gərək ki, şeir "Mən də bir əsgər kimi" sərlövhəli idi).Vurğunun şeiri və şöhrəti yalnız gəncədə yox, bütün respublikada və onun xaricində sürətlə yayılmağa başlayırdı. "

Çox keçmir xəyalı göylərdə uçan, yazıb yaratmaq eşqi ilə alışıb yanan gənc Səməd üçün Gəncə mühiti ona dar gəlir, onu daha byük şəhərlər, daha qaynar mühit cəlb edir, yeni meydan axtarır, dünya görüşünü artırmaq, təhsilini davam etmək barədə düşünürdü. Və 1929-cu ilin may ayında artıq Səməd Vurğunun Bakı, həmin ilin iyulundan isə Moskva həyatı başlamışdı. Həmin illər Səməd Vurğunun "Şairin andı",sonra isə "Fənər" kitabları nəşr olunur və müəllifinə şöhrət gətirməklə, gənclər tərəfindən böyük rəğbətlə qarşılanır. Həmin kitaba daxil olan şeirlərindən birində yazırdı:

***Mən***
***nəfəsləri benzin və***
***kükürd qoxulu***
***milyonların şairiyəm,***
***Düşməniyəm onların-***
***Divanları məxmər və***
***ipək döşəməli salonların...***

Və ya

***Üfüqləri sonsuz bu kaintda***
***Məni yaşadan quvvət,***
***öz əməyim, öz əlimdir.***
***Böyük bir insan olmasam da***
***həyatda,***
***Cəbhədə bir əsgər kimi qalmaq***
***son əməlimdir.***

Artıq Gəncə mühiti gənc ədib- Mir Cəlalın da arzu və ideallarının gerçəkləşməsi üçün kifayət etmirdi. O, da təhsilini davam etdirmək, ədəbi və ictimai proseslərdə daha fəal iştirak etmək istəyirdi və elə bu məqsədlə də Bakıya köçərək, o vaxtlar yeganə aspiranturası olan Elmlər Akademiyası Filialının nəzdindəki Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olur. Həmin illər hər iki şəxsiyyətin yolları yenidən kəsişir və Səməd Vurğun da həmin institutda aspiranturanın ədəbiyyat şöbəsinə qəbul olunur. Lakin onların heç birinin Bakı şəhərində yaşamağa yerləri yox idi. Mir Cəlal həmin günləri xatırlayaraq yazırdı: "Aspiranturanın müdirliyinə Ali Sovet sədri vəzifəsində olan Soltan Məcid Əfəndiyev təyin olunmuşdu. Qəbul haqqında əmri alandan, dərs cədvəlini öyrənəndən sonra yaşamaq yeri hayına qalmalı olduq. Aspiranturanın yataqxanası yox idi və buna təminat da verilmirdi. Biz Soltan Məcidin yanına gedib yer xahiş edəndə bir qəbz yazıb, kəndli evində bizə yer istədik. Həmin kağız ilə bizi (mən və Səmədi) ümumi yataqxanaya buraxmalı oldular."

Aspiranturada oxuduğu illərdə də Səməd Vurğunla Mir Cəlalın dostluğu daha da möhkəmlənir. Mir Cəlalı Səməd Vurğunun yaradıcılığı daha ciddi maraqlandırır və O, şairin yaradıcılığına həsr olunmuş "Yenidən qurulma yollarında "adlı məqalə yazır və məqalə "Hücum" jurnalında dərc edilir. Bu məqalə həm müəllifinə, həm də Səməd Vurğuna nüfuz qazandırmaqla ədəbiyyatçılar tərəfindən maraqla qarşılanır. Mir Cəlal yazırdı: "Onun (Səməd Vurğunun R.G.) təhsili də, iş üslubu da, münasibətləri də, həmişə yenilik, bir az da şairlərə məxsus qəribəliklərlə seçilirdi. Biz aspiranturada oxuyarkən K.Marksın "Kapital" əsərini öyrənib təhlil etmək məsələsi müzakirə olunurdu. Bəziləri deyirdi: "Bu kitabı ədəbiyyatçı aspirantlar üçün sətirbəsətir təhlildən keçirmək, əmtəə təsərrüfatının hətta detallarını konspektləşdirmək lazımdır... Səməd Vurğun ümumi axına qoşulmadı və müəllimlə açıq danışmaqdan çəkinmədi:

"Yoldaş müəllim -dedi - siz iqtisadçısınız, "Kapital"ı hərfinəcən bilirsiniz, çox sağ olun.

Amma mən iqtisadçı yox, şairəm, şairliyimdə də qalmaq istəyirəm. Ona görə də siz bu kitabın əsas teoriya ilə ictimai inkişaf qanunları, sənət və ədəbiyyatın spesifikası ilə bağlı fəsillərini bizə öyrədin, minnətdar olarıq.

Bütün aspirantlar və müəllim bu fikri bəyəndilər, dərslər bu istiqamətdə planlaşdırıldı...

Bir dəfə sinifkom, dərsə geçikən aspirantlar sırasında onun adını oxuyanda Səməd qəti etiraz etdi.

"Gecikmək,- dedi-yarımçıq adamın işidir. Mən geçikmərəm, Mən ya gələrəm, ya heç gəlmərəm."

**İndi işıqlı xatirəsi, müdrik söz-söhbətləri minlərlə məsləkdaşlarının, tələbələrinin xatirəsində yaşayan, görkəmli pedaqoq, yazıçı və alim Mir Cəlalın dahi şairimiz Səməd Vurğunla dostluğunu, ədibin varislərindən biri, görkəmli dövlət və təhsil xadimi, diplomat, ADA universitetinin yaradıcısı və rektoru professor Hafiz Mir Cəlal oğlu Paşayev, həm yaddaşında və qəlbində yaşadır, həm də əməlində gerçəkləşdirir. Onun nəticəsidir ki, bu günkü Azərbaycan təhsilinin təşəkkülündə və inkişafında müstəsna rolu olmuş Qazax Müəllimlər Seminariyasının yenidən bərpası, bu təhsil ocağının bazasında ADA Universitetinin Qazax Müəllimlər Seminariyası Təhsil Mərkəzinin yaradılması, bir vaxtlar bu seminariyanının ilk məzunlarından biri olmuş və həm də seminariyaya şöhrət gətirmiş Səməd Vurğunun xatirəsinin əbədilədirilməsinə ən böyük töhfədir. Həmin təhsil Mərkəzində Səməd Vurğun oturduğu partanın qoyulması və guşənin yaradılması isə Hafiz müəllimin böyük şairə olan ehtiram nümunəsidir.**

## *"Halbuki, Qarabağ hərəkatının davam etdirilməsi yeni müharibə deməkdir"*

**"Ermənistanda parlament seçkisi (7 iyun) yaxınlaşdıqca, ölkədə daxili vəziyyət də kəskinləşir. Burada əsas mübarizə Baş nazir Nikol Paşinyanın başçılıq etdiyi "Mülki Müqavilə" partiyası ilə Rusiyayönlü və Daşnaksütyun zəkalı siyasi qüvvələr arasında gedir. Əsas məsələ isə "sülh, yoxsa müharibə", yaxud Azərbaycan üçün bitmiş olan "Ermənistan Qarabağ hərəkatını davam etdirsin, ya yox?!" dilemması ətrafındadır".**

Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Qulu Məhərrəmli deyib.

Onun sözlərinə görə, bununla bağlı Nikol Paşinyan özünün Feysbuk səhifəsində yaydığı videoçıxışında bəyan edib ki, iyu-



nun 7-də dəqiq qərar verilməlidir:

"Ermənistan Qarabağ münaqişəsini davam etdirir, ya yox? Hazırda meydandakı siyasi mövqelər belədir: sülh partiyası (Paşinyan) Qarabağ hərəkatının əleyhinədir, müharibə partiyası isə birbaşa və ya dolayısı ilə deyir ki, Qarabağ hərəkatı davam etdirilməlidir. Paşinyan bir az da konkret danışaraq deyib ki, "...Ktriç Nersisyan müharibə partiyasının rəhbərliyini üzərinə götürüb, qalanları - Levon Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarkisyan və başqaları - bu məntiqə sığışırlar". Halbuki, Qarabağ hərəkatının davam etdirilməsi yeni müharibə deməkdir. Ona görə də xalq qarşıdakı seçkilərdə deməlidir: o, Qarabağ hərəkatını davam etdirir, ya yox? Paşinyan videoçıxışda həm də xalqı Konstitusiya dəyişikliyinə səs verməyə çağırıb. Deyib ki, Konstitusiyada Müstəqillik Bəyannaməsinə istinad olunması yanlışdır, çünki bu sənəd müstəqillik bəyannaməsi deyil, daha çox konflikt bəyannaməsidir. Qarabağ ermənilərinin qayıdış məsələsi ilə manipulyasiya edənləri də tənqid atəşinə tutan Paşinyan çıxışını bu müddəalarla yekunlaşdırıb ki, biz sülh yolunu seçirik, çünki Sülh şəraitində Ermənistan daha da möhkəmlənəcək, müstəqilliik və suverenlik daha da güclənəcək. Bax bunları kim istəyirsə, mənim arxamca gəlsin".Bəs erməni xalqı N.Paşinyanın arxasınca gedəcəkmi? Buzcə, Rusiya ciddi müdaxilə etməsə, gedəcək".

**Sübhan**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Novruz düşüncələri...

## İlaxır çərşənbə tonqalının pıçıldadıqları

**Səhərin gözü hələ açılmamışdı. Tək-tək pəncərələr işıq-işıq oyanırdı. Adama elə gəlirdi ki, oyanan pəncərələr göy üzündəki sayrışan ulduzların əvəzidi - İndi ulduzlar çəkilib gedəcək, pəncərələrin işıqları bəzəyəcək dünyamızı, şəhərimizi.**

Gecənin yuxusuzluğunu əsnəməklə canından silkələyib tökməyə çalışan və tək-tək yanmağa başlayan pəncərələrə ümid yeri kimi baxan ürəyim yataqdan qalxıb həyətə çıxdı. Əslində bu, təkcə ürəyimin, oyaq duyğularımın yarıqaranlıq səhərə üz tutması deyildi. Bu, həm də ürəyimin bütün gecəni içində qovurduğu vurub-çıxdığı, toplayıb böldüyü, amma nəticəsini, hasilini tapa bilmədiyi bir yaşamın narahatlığı idi. Mənə elə gəlirdi ki, gecənin qaranlığı Ayın, ulduzların işıqlarına bələnsə də, ürəyimə yükdü, ürəyimə zindandı, sıxır məni. Sıxdıqca da ürəyimin döyüntüsü də artır, həyəcanı da... və mən elə məhz bu səbəbdən dan yerinin söküləsini gözləməyə özümdə güc tapmadım. Bircə onu bildim ki, adəti üzrə işıqlarını söndürüb yatdığımız otaqdan özümü həyətə atdım (bu yerdə yadıma həmişə məndə təbəssüm doğuran bir dostun "mən on yaşımdan həyata atıldım"- sözləri gəlib düşür, məsələyə dəxli olsa da, olmasa da).

Qəribədi, şəhərdə yaşasam da, məskunlaşdığım ərazidə əməlli-başlı bir kənd abu-havası hökm sürür. Xoruzlar banlayır, itlər hürür, hətta beş-on mal-davarını otarmağa aparan məhlə adamlarının da söhbətləri eşidilir. Çox təəssüf ki, bu mal-davar saxlayanlar hərdən şəhərin yaşıllığına da bir "qayçı gəzdirirlər" fərqinə varmadan.

Bax, belə bir səhərdə daha doğrusu, açılmaqda olan səhərdə mən narahatlığını anladığım ürəyimlə var-gəl edirəm. Kənardan baxan bunu səhər idmanı da saya bilər. Ancaq mənim bu anda nə idmanlıq, nə də onun barəsində düşünəcək həvəsim yoxdu. Çünki çoxumuza problem olan təzyiq məsələsi də iki gündür mənimlə xudahafizləşmir, çağrılmamış qonaq kimi kəsdirib yanımı. Təbii ki, burada təbiətin də öz diktəsi var, necə deyərlər, arğac ondan keçib. Üstəlik də bizim ekoloqlarımız əməlli-başlı "qaş düzəltmək əvəzinə göz tökürlər". Onlar obyektivlik naminə hava proqnozunun sonunda hər gün meteohəssas adamlara da xəbərdarlıq edirlər. Təbii ki, bu onların vəzifəsidi, ancaq insanların psixologiyasını, hazırkı iqtisadi durumdan yaranan stresslərini nəzərə almamaq da doğru deyil. Gərginlik içində olan insanlara elə meteohəssas sözü kifayət edir və belə olanda istər-istəməz Sovet dönəmini xatırlayıram. Az qala 45-46 dərəcə isti altında kətmən vuran, pambıq yığan, təsərrüfatla məşğul olan insanlar görəsən meteohəssas deyildilər, yoxsa onda Günəş başını basdırıb yatmışdı, partlayışlarla işi yox idi?! Və yaxud göydən hansısa bir cisim qopub üzü yerə tərəf gəlmək fikrinə düşmürdü, zəlzələlər, vulkanlar baş vermirdi, nə isə...

Bu sualları elə-belə sözgəlişi yazdım, onsuz da ekoloqlarımız da bilir nə edir, stresi yaradanlarımız da, onu yaşayanlarımız da. Bu yerdə "çax-çaxın baş ağrıtmasına" ancaq ironiya ilə gülmək olar. Necə ki, düşündüklərimə məhz özüm də elə o cürə gülürəm...

Deməli, cəmiyyət, quruluş dəyişsə də problemlər dəyişməyib, sadəcə kosmetik əməliyyatlar, bir az da cərrahi müdaxilələr olub və olmaqdadı. Bu hər şey olmadığı kimi, hər şeyin olmağı da demək deyil. Elə kədərin, dərdin özündə də bunu hiss etmək olar.

*Oyana bilmirsən əvvəlki vaxtda*
*Qopmur kirpiyindən bu yaz yuxusu*
*Sanki bədəninə isti yataqda -*
*Bükülüb bu fəslin bəyaz yuxusu!..*

*Dağılıb yastığa qarışıb telin,*
*Üzündən gözəllik boylanan gəlin*
*Qurulmuş saata uzanan əlin -*
*Uzatmaq istəyir bu naz yuxusun*

*Gördüyün ruhmudu, yoxsa ki, mələk,*
*Əbülfət, beləsi doğulur tək-tək!*
*Durub bir kənarda ya şəklini çək -*
*Ya da ki, şair tək sən yaz yuxusun!..*

***

Səhərin gözləri açılmağa başladı. Bu vaxt qulağıma çox tanış və şirin bir səs gəldi. Bir qəribə duyğu ilə sağa-sola boylandım. Hələ budaqları çılpaq olan ağacların arasından gəlirdi bu səs. Xüsusi bir maraqla o səsi axtarmağa başladım və tapdım. Sinəsi sarı, ovuc içi boyda olan bu balaca quşcuğaz (nədənsə kənddə biz ona Bayramquşu deyirdik -Ə.M) Bakıya da gəlib çıxmışdı. Özü də Novruz bayramının əvvəlində, axır çərşənbədə. Çox qəribə oxuyurdu, elə bil darıxmışdı. Səsində ayrılıqdan qurtuluşun istisi də vardı, qayıdışın sevinci də. Doğrusu məni çox mütəəssir etdi, haldan-hala saldı və özüm də hiss etmədən sinəsinin altı sapsarı olan bu balaca bayram quşuna çevrilib Bakıdan Qarabağa sarı uçub getdim. Öz üdə birbaşa kəndimizə... amma evimizə yox, öncə kolların arasından əlimi tikanlar didə-didə bənövşələr dərdiyim "Quşlu dərə"dəki bulağın üstünə. Ürəyim susamışdı o bulağın dodaqları üçün, gözləri üçün.

Ürəyim, əllərim, gözlərim hansı kolun dibində neçə bənövşə olduğunu yadda saxlamışdı, ona görə də birbaşa ora uçub getdim. Getdim ki, ürəyimin yanğısını söndürüm.. getdim ki, sayını, yerini bildiyim bənövşələri dərim, bulağın üstündə heç kimin ağlına gəlməyən sıx böyürtkən kollarının arasındakı nərgizləri toplayım. Yaşıdlarım arasında təkcə mən o nərgizlərin yerini bilirdim. Onu başqa kimsə dərməsin deyə, gizləndiyi yerə ətrafdan quru çör-çöp gətirib bir çəpər çəkirdim, gizlədirdim onu hamıdan, gizlədirdim ki, onu heç kim görüb dərməsin. Mən o nərgizi həmişə ən çox sevdiyim müəllimimə aparırdım.

Amma çox-çox illər sonra bildim ki, sən demə müəllimim nərgiz gülünü sevmirmiş, sadəcə mənim qəlbimə toxunmamaq üçün nərgizləri qəbul edirmiş. Özəl bir həyatın xatirəsi nərgiz gülünü mənə doğma, ona isə yad edibmiş...

Topladığım güllərlə məğrur bir görkəm alıb görüşə gedənlər kimi yavaş-yavaş evimizə tərəf gedirəm. Getdikcə heyrət və ağılasığmaz dəhşətli bir ağrı məni bürüyür - evimiz yoxdu, çəpərimiz yoxdu, həyətimizdəki meyvə ağacları necə doğranıbsa izi də qalmayıb. Bir anlıq mənə elə gəlir ki, yolu səhv salmışam, harasa özgə bir yerə gəlib çıxmışam. Ancaq yox... mən yanıla bilmərəm. Özümü yanılmadığıma inandırmaq üçün evimizin qarşısından keçən yolun üstündəki qaya parçasını axtarıram. Hə, bu daş parçası yerindədi. Deməli onun üstündə dəmir parçası ilə ovduğum hərflər də yerində olmalıdı. Əlimi daşın mamır tutmuş çöhrəsinə sürtürəm, ovcumun istisi ilə bu daşı əzizləyə-əzizləyə onun sinəsindəki yazıları axtarıram. Mamır dolub dəmir parçası ilə ovduğum rəqəmlərin izlərinə. Qoparıram onları. Tarix olduğu kimi qalır - 24.05.1976. Bu mənim orta məktəbdəki son zəngimin tarixidi. Başqa heç nəyi axtarmağa gücüm çatmır, əlim daşlaşır sanki, ruhum donur sanki, eləcə o daşa söykənib bünövrəsinə qədər yanıb dağılmış evimizə baxıram.

Həyətimizdə bitən qaratikan kollarını seyr edirəm. Bu kollar da puçurlayıb. Baharın nəfəsi buralara da gəlib çatıb. Nə isə...

*Gəlib çatdı vaxt, vədə*
*Bənövşə gözün açdı.*
*Nə varsa təbiətdə*
*Damarına su qaçdı...*

*Torpaq yarıyuxulu,*
*Ağaclar da puçurlu...*
*Bu gələn yaz quşları*
*Budaq-budaq uçurtdu...*

*Ömrün təzə səhifəsi*
*Yazılır yenə gül-gül...*
*Dəlib torpaq qəfəsi -*
*Bax, gülür Xarı bülbül...*

*Bir coşqunun içində*
*Süzür hər kəs bu vaxtı.*
*Baharın gəlişiylə -*
*Açılır yerin baxtı...*

***

Son vaxtlar hər şeydə nəsə bir qeyri-adilik axtarıram. Hətta aylarla, günlərlə gözümün qarşısında olanlarda da nəsə yeni cizgilər tapmaq istəyirəm. Bu bəzən alınır, bəzən isə yox. Bundan üzülsəm də, fikrimdən, israrımdan çəkilmirəm, eləcə axtarıram... bax öncədən dediyim kimi yuxusunu kirpiyimdə yandırdığım, dan yerini gözlərimdə açdığım həmin bu səhərdə də mən nəsə axtarırdım. Bəri başdan deyim ki, bu axtarışım boşa getmədi, Bayramquşunu tapdım, kəndimə gedib-gəldim və bir də həmişə qanımda, canımda olan ən əziz varlığı özümlə birlikdə bu gün gedə bilmədiyimiz o yerlərə aparıb gətirdim, özünün xəbəri olmadan. Apardım ki, o da görsün, tanısın, xatırlasın, onun da yaddaşı təzələnsin. Mən bacardığımı elədim - apardım onu! Ancaq bilmədim ki, o, mənimlə getmişdi və bir də o da mənim yaşadıqlarımı yaşadımı?..

Deyə bilərsiniz ki, bunu özündən niyə soruşmursan. Ancaq unudursunuz ki, mən heç vaxt ondan heç nəyi soruşmuram. Onun baxışlarından, görkəmindən, nəfəsindən, hərəkətlərindən, davranışından soruşmaq istədiklərimi oxuyuram, özü də bacardığım kimi. Bəzən bütöv cümlələrlə, bəzən qırıq-qırıq, ancaq özüm oxuyuram.

İndi artıq evdəkilər də oyanıblar, dan yeri də sökülüb, Günəşin "üst dodağı görünür". İşığı getdikcə ətrafı bürüyür. Mənə elə gəlir ki, bir neçə saatdı ki, dayandığım yerdən tərpənməsəm hara gedib-gəldiyimi də biləcəklər, yanımda kimin dayandığını da görəcəklər, bu gecə də yuxusuz qaldığımı anlayacaqlar və sonra da başlayacaq çoxlu suallar, narahatlıqlar. İndiki halda isə suallara cavab verməyə iynə ucu boyda da gücüm qalmayıb. Sadəcə getmək istəyirəm, çıxıb getmək. Hara olur, olsun! Bu dan üzü yaşadıqlarımı axtarıb tapmaq üçün getmək istəyirəm. İNŞALLAH! -ümidi ilə....

**Hə, bu yazı ilaxır çərşənbə ilə Novruzun üz-üzə gəldiyi və dan yerinin hələ qaranlıqdan çıxa bilmədiyi bir məqamda bilgisayara köçürüldü. Necə deyərlər isti-isti. Bilmirəm necə alındı, ancaq inanın ki, mən yaşadıqlarımı və duyğularımı yazdım, necə varsa elə. Başqa cür yaza bilmirəm.**

**Bayramınız mübarək!**

---

**Masamın üzərində mətbəə qoxulu bir kitab var və bu kitabın dünyaya gəlişi, yəni oxucuya doğru uzanan yolu gözlərimin önündən gəlib keçir. Onların hələ kitab olacağı günə qədər oxucusu olduğumdan onun toplu halında əlimdə tutacağım günü səbirsizliklə gözləmişdim. Və nəhayət, həmin gün gerçəkləşdi. Söz dünyamıza, ədəbi müstəvimizə "Qələbə misraları, yurd tərənnümü" qədəm qoydu. Mən də bu kitaba ürəyimi açdım. Yenidən oxumaq, yenidən həmsöhbət olmaq üçün.**

Azərbaycan oxucusu Fərəc Fərəcov imzasını tanıyır. Onun Naxçıvanda yaşadığını, yazıb-yaratdığını bilir. Kitablarından da xəbərdardır, nəsrindən də, poeziyasından da. Onu da vurğulayım ki, Fərəc Fərəcov şəxsiyyəti mənim üçün səmimiyyət, sadəlik və bütövlük deməkdir. Bu üç amil Fərəc müəllimin həyatında da, yaradıcılığında da hər an özünü büruzə verir, özünü göstərir. Özü də iddiasız və təmənnasız. Çünki o, yaşadığı kimi də yaradır. Sadə, səmimi, inandırıcı, halal bədii nümunələr. Oxuyursan, inanırsan. Oxuyub inandığın sənin də gördüklərin, yaşadıqlarındı. Məhz bu prizmadan baxanda müəlliflə əsər

# QƏLƏBƏ NİDALI KİTAB




təkcə yanaşı dayanmır, həm də bütöv görünür. Zənnimcə, qələm adamı üçün bu xüsusiyyət oxucu diqqətini çəkmək, oxucu sevgisi qazanmaq üçün ən ümdə şərtlərdən biridir.

Bu gün, necə deyərlər, oxuculara isti-isti məlumat vermək istədiyim kitab bir neçə fəsildən ibarətdir. Bu fəsillər şərti bölgüdür. Mənim fikrimcə, burdakı poeziya nümunələrinin hamısı bir zəncirin həlqələridir, bir fikrin sıra düzümüdür. Çünki mövzu birdir:

- Vətən, Əsgər, Şəhid, Torpaq, Azadlıq, Sevgi, Ümummilli Lider və Ali Baş Komandan!!!

Azərbaycanın hər bir duyğusal vətəndaşı üçün adlarını çəkdiyim mövzuların nə qədər doğma olduğunu hər birimiz yaxşı bilirik. Deməli, kitabdakı şeirlər də mövzular baxımından hər birimizə doğmadır, yaxındır. Bu mənada kitabın ilk şeirinin bir bəndini diqqətinizə təqdim edirəm:

***Dedi inanıram ona özüm tək,***
***Mətin addımlarla o, gedəcəkdir.***
***Edə bilmədiyim nə varsa bütün,***
***Əminəm, çalışıb o, edəcəkdir.***

Və yaxud "Şəhidlər" şeirində:

***Vətən sınırına çökəndə duman,***
***Həyəcan təbilin çaldı şəhidlər.***
***Silaha sarılıb vermədi aman,***
***Düşməni lərzəyə saldı şəhidlər.***

Fərəc Fərəcovun bu kitabında Naxçıvanın təkcə coğrafiyası, təbiəti deyil, insanları da, tarixi də özünəməxsus şəkildə misralanıb şeirə çevrilib. İstər Culfa, Ordubad, Şahbuz, Şərur, istərsə də digər bölgələri, xüsusilə, tariximizi ifadə edən ünvanları oxucuya bir rəssam, bir müəllim sevgisi ilə təqdim olunur. Bu şeirlərdə ürək çırpıntısı və böyük sevgi özünü açıqca göstərir. Məsələn:

***Söyləyim fikrimi tam müxtəsəri,***
***Bu qala günümün bir şah əsəri.***
***Əbədi qalacaq sözü, kəsəri,***
***"Əlincə" adında qalam var mənim.***

**Kitabdakı ünvanlı şeirlərin özlərində də müəllif canıyananlığı həqiqətən xoş bir təəssürat yaradır. Şeirin ürəkdən qidalandığını dərhal hiss edirsən. Ona görə də bu kitabı əvvəldən sona kimi hər kəsin oxumasını və özünün qərar verməsini çox istərdim. Yəni mən öz payıma bir oxucu olaraq bu kitabı sevgi və sayqıyla qarşıladım və belə də dəyərləndirirəm. Düşünürəm ki, oxucular da yanılmayacaqlar. Uğurlar olsun, Fərəc müəllim!**

**Əbülfət MƏDƏTOĞLU**



Azər HƏSRƏT,
Əməkdar jurnalist

# Yaradıcılığı da, şəxsiyyəti də bütöv və böyük olan insan

**Biz də qələm adamıyıq, o da. Biz də nəsə yazırıq, o da. Amma bizim ondan, onun bizdən çox ciddi fərqi var. Onun yazdıqlarına, bizdən fərqli olaraq, böyük anlamda əsər demək lazımdır.**

Yazır o. Hər anlamda yazır, sözlə tablo cızır, ürəklərdə özünə yer edir, sevilir, sevdirir.

Artıq 23 mart 2026-cı ildə 80 yaşı qatlayıb dizinin altına qoyan Seyran Səxavətdən söz edirəm.

Aramızda ciddi sayılacaq yaş fərqi olsa da şəxsən məndən heç də yaşlı sayılmaz. Şuxdur, dikdir, həyat doludur, cəmiyyət içində sevilir, sayılır, hələ daha neçə yuvarlaq yubileyləri yola verəcək əzmdədir Seyran Səxavət.

Çox müsbət aurası var. Hələ bu müdriklik yaşını nəzərə alsaq, əslində onun tayları bəzən ağır aura ilə adamın üstünə gəlir. Amma Seyran Səxavəti görmək nədir, adını belə eşitmək adama əlavə müsbət enerji bəxş edir, eynini açır.

Mənə də münasibəti, özü demiş, hansısa səbəbdən çox yüksəkdir. Hətta bir dəfə cəmiyyət içində dedi ki, "bilmirəm bu Azər Həsrəti niyə çox istəyirəm, amma çox istəyirəm".

Məni də çox dəyərləndirir Ustad. Sağ olsun, var olsun. Belə ustadların adi bir sözü belə bizim kimi insanlar üçün, obrazlı desək, tütyə kimidir. Hələ-hələ indiki qarışıq dünyada. Elə bir dünyada ki, burada öndə gedənlər bir qayda olaraq arxadan gələnlərin uğurlarını görmək belə istəmir, bacardıqca onları arxada saxlamağa çalışır.

Seyran Səxavət isə, əksinə, arxadan gələnlərin önə keçməsini arzulayan, bacara bildiyi qədər buna yardımçı olmağa çalışan böyük Şəxsiyyətlərimizdəndir.

Bilənlər bilir, şəxsim yetərincə dünyanı gəzmiş-görmüş, müxtəlif millətlərdən olan insanlarla dostluq edən, adam tanıyan birisiyəm. Yəni məni yalançı səmimiyyətlə ram etmək alınmaz. O baxımdan gerçək səmimiyyəti olanları dərhal aşkarlayır, özüm üçün ən yüksək dəyərləri topladığım mənəvi sandığın ən ülvi yerində əbədi məskun edirəm.

Seyran Səxavət də o sandıqdakılardan biridir. Birlikdə yol getməmişik, heç bir stəkan su da içməmişik, amma uzaqdan-uzağa mənəvi bağlarımız yaranıb. O qədər yaxın bağlardır ki, sanki bu böyük şəxsiyyətlə bir kənddə doğulmuşuq, bir eldə boya-



başa çatmışıq, illərlə çörək kəsmişik

**Haşiyə:** Hələ COVID-19 pandemiyası başlamamış anidən ağlıma bir ideya gəlmişdi. Müasir yazarlarımızdan Kənan Hacının kitab təqdimatında iştirak edərkən söz mənə veriləndə yeni kitab haqqında danışmaqla bərabər dedim ki, "bugündən "Kəndə kitab" kampaniyasına başlayıram". İdeya da bu idi ki, Xaçmazdakı doğma Dədəli kəndimin kitabxanası üçün müəlliflərdən imzalı kitablar toplayım, onları xüsusi olaraq həmin kitabxanada sərgiləyək. Elə ilk kitabı da orada Kənan Hacıya imzalatdırdım: "Müəllifdən Dədəli kənd kitabxanası üçün". Beləcə bir xeyirli kampaniya başlatmış oldum. Bu kampaniya haqqında Seyran Səxavətə deyəndə qayıtdı ki, "mən sizin kitabxanaya bir deyil, bir neçə yüz kitab hədiyyə edəcəyəm". Yəni belə böyük ürək sahibidir dəyərli yubilyarımız.

Seyran Səxavəti adətən tədbirlərdə görürəm. Bacardıqca hal-əhval tuturam, bu dəyərli aydınla kəlmə kəsib az da olsa aydınlanmağa çalışıram. Bu cür adamların sadəcə varlığı, hələ bizim kimi insanlarla səmimiyyəti belə ovqatımızı yüksəltməyə bəs edir.

Bugünlərdə Seyran Səxavətlə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında geniş bir görüş də keçirilib. Baxıram, media bu görüşün bütün müsbət enerjisini cəmiyyətə ötürdükcə ötürür. Həmin o ovqat bitmir, tükənmir, elə ardı gəlir ki, gəlir.

Görüşdə iştirak edənlərin paylaşımları, xoş sözləri, Ustad haqqında təəssüratları, bu ortamda iştirakdan duyduqları xoşbəxtlik hər nəyə desən dəyər. Belə ovqat yaradan adamlar doğrudan da bir nemətdir; cəmiyyət üçün, özəlliklə də çox vaxt neqativlərdən əziyyət çəkən fərdlər üçün. Nə qədər ki, ətrafımızda, aramızda da Seyran Səxavətlər var, olacaq, bizim də yaşam həvəsimiz coşub-daşacaq.

Əslində bu yazını adəti üzrə Ustadın yaradıcılığı haqqında yazmağı düşünürdüm. Amma baxıram ki, yaradıcılıq bir kənarda qaldı, şəxsiyyəti üzərində kökləndim.

Təsadüfdürmü?

Deyil əlbəttə. Çünki istənilən şəxsin yaracılığı şəxsiyyətindən qaynaqlanır. Şəxsiyyət yaradıcılıqdan öndə gəlməlidir. Belə olanda yaradıcılıq da səmimi və faydalı olur. Seyran Səxavətdə olduğu kimi. Həm yaradıcılığı, həm də şəxsiyyəti böyük və bütöv olan insandır Seyran Səxavət.

...Deyirlər ki, hər şeyin ilki insana əziz olur. Məsələn, ailədə övladın ilki, bir şairin ilk şeiri, yazıçının ilk kitabı, məktəblinin aldığı ilk əla qiymət, ilk sevgi kimi

Bu yubiley işığında bizim də ağlımızdan Seyran Səxavətin bir ilkinə geri dönmək keçdi.

1962-ci ildə cəmi 16 yaşı olan Seyran Səxavətin mətbuatda işıq üzü görmüş ilk şeirinin adı da əlamətdir. "İki arzu" idi o qısa şeirin adı.

Mənbələr bu adda şeirin o dövrlərdə yetərincə məşhur olan və Füzulidə nəşr edilən "Qızıl Araz" qəzetində çıxdığını göstərir. Yeri gəlmişkən, mən hələ onda dünyaya gəlməmişdim; Ustad isə "İki arzu"sunda yazıb qəzetdə dərc elətdirdiyi şeirdə deyirdi:

*Sual verdi sevgilim*
*Bir gün üz tutub mənə,*
*Nədir arzun həyatda,*
*Cavan oğlan, desənə?*
*Dedim həyatda yalnız*
*İki arzum var, ay qız:*
*Biri sənət dağının*
*Zirvəsinə ucalmaq,*
*Biri də ki, səninlə*
*Ömür sürüb qocalmaq.*

Məncə Ustadın 16 yaşında şeir dili ilə izhar etdiyi hər iki arzu çin olub. Hər halda özü bunun necə olduğunu daha doğru ifadə edə bilər. Amma ən azından biri ilə bağlı bir ictimai fəal olaraq şəxsən mən hətta hökm də verə bilərəm: Seyran Səxavət sənət dağının zirvəsinə yüksəlib! Özü də indi deyil, çox-çox illər öncədən!

Heç şübhə etmirəm ki, onun ikinci arzusu da çoxdan, lap çoxdan çin olub!

Zirvədəki Seyran Səxavət indi oradan hər tərəfi seyr edir, hər şeyi hər birimizdən daha yaxşı görür, yeri gələndə göstərir. Ustad zirvədədir, arzusuna çatıb. Amma deyirlər ki, arzudan arzu doğar. Əminəm ki, Seyran Səxavətin də arzularından arzular doğub, doğur, doğacaq və hələ daha neçə-neçə zirvələri fəth edəcək o.

Enerjisi boldur, cəmiyyətdə ona tələbat - sevgi də boldur. Yəni yaşaması, yaratması, öz müsbət ovqatını ətrafa ötürməyə davam etməsi üçün səbəblər tükənməzdir.

Nə deyirik? Çox yaşa, Ustad! 80 arxada qalır, biz 100-ə hazırlaşaq indidən. Gün o gün olsun ki

Gün o gün olsun ki, 100 yaşlı Seyran Səxavət şəxsən özümə, "bilmirəm niyə, amma mən bu Azər Həsrəti çox istəyirəm" desin. Hə, hə, desin. Danışdıqmı, Ustad?

Düz 20 il sonra görüşürük, bunu deyirsiniz.

Sözümüz sözdür, görüşərik.

**Bolluca təbriklər, böyük Ustad Seyran Səxavət!**

Maşallah Məftun



## OYANMADIQ, USANMADIQ...

*"...Cümlə qurmaq dövlət qurmaq qədər çətindir"*

*Seyran Səxavət*

**A, zilli sultanlar, zilli sultanlar,**
**Cümlə quraq, cümlə cahan xar olsun.**
**Məntiq olsun, məna olsun, bar olsun,**
**Aləm sevsin, dünya sevsin, yar olsun.**

**Mühasirədədir bəlkə dilimiz,**
**Bəlkə bağlanıbdı, bizim əlimiz.**
**Bəlkə gözümüzə tor çəkilibdi,**
**Bəlkə tarlamıza daş əkilibdi.**

**Bəlkə yollarımız minalanıbdı,**
**Əlimiz, qolumuz qandallanıbdı.**
**Hələ də həlqəni yara bilmirik,**
**Hələ də cümləni qura bilmirik.**

**"Bəlkə"lərin sayı o qədərdi ki,**
**Nə vaxtdı "Bəlkə"ylə yola çıxırıq.**
**Bəlkəylə yamanca qardaş olmuşuq,**
**Bəlkəylə bilmirik hara çıxırıq.**

**"Bəlkə"-deyə-deyə səsimiz getdi,**
**Ən əziz, ən doğma kəsimiz getdi,**
**Çoxumuz alındı, bəsimiz getdi,**
**"Bəlkə"ylə ilahi qardaş olmuşuq,**
**Elə bil əzəldən sirdaş olmuşuq.**

**Mirzə Cəlil, Mirzə Sabir inciyər,**
**Səməd Vurğun, Rəsul Rza inciyər,**
**Hüseyn Cavid, Xəlil Rza inciyər.**
**Üzeyir bəy, Nuru Paşam inciyər.**

**Əlini, qolunu çırmalayıb dost,**
**Sözün ayağına getməlisən sən.**
**Dadı da, tamı da, yerində olsun,**
**Əlindən gələni etməlisən sən.**

**Yuxunun yozumu, sözün yozumu,**
**İlahidən gələr, göylərdən gələr.**
**Cümlədə, dövlətdə, Seyran Səxavət,**
**Tanrıya sevgidən, üzlərdən gələr.**

## *Xamenei gizli şəkildə Rusiyaya aparılıb - İDDİA*

**İranın yeni Ali Lideri Müctəba Xamenei Rusiya hərbi təyyarələri ilə gizli əməliyyat çərçivəsində Moskvaya aparılıb.**

Adalet.az xəbər verir ki, bunu Küveytin "Əl-Cərida" media orqanı Xameneiyə yaxın yüksək vəzifəli mənbəyə istinadən iddia edib.

Mənbənin sözlərinə görə, bu, onun sağlamlıq vəziyyəti və İrandakı mürəkkəb təhlükəsizlik vəziyyəti ilə bağlı olub. Rusiyaya çatdıqdan sonra o, uğurla əməliyyat olunub və hazırda prezident saraylarından birində yerləşən xəstəxanada müalicə alır. Mənbənin sözlərinə görə, Xamenei 28 fevralda ABŞ və İsrailin İrana "ilkin hava hücumları" zamanı yaralanıb və onun müalicəsi üçün yüksək təchizatlı xəstəxana, yaxından tibbi müşahidə və xüsusi nəzarət tələb olunub. Media həmçinin bildirib ki, İran təhlükəsizlik xidmətləri Xameneinin harada olduğunun onu müalicə edə biləcək həkimlər və mütəxəssisləri izləməklə aşkarlanacağından qorxaraq onu Rusiyaya göndərmək qərarına gəliblər. Nəşrin mənbəyinə görə, Rusiya prezidenti Vladimir Putin özü iranlı həmkarı Məsud Pezeşkianla telefon danışığında Rusiyada müalicə təklif edib və İran rəsmiləri ilə müzakirələrdən sonra təklif təsdiqlənib. Xamenei cümə axşamı köçürülüb və iranlı mütəxəssislərin müşayiəti ilə rus həkimləri tərəfindən müalicə olunur. İranın islahatçı qanadına yaxın başqa bir mənbə "Əl-Carida" qəzetinə bildirib ki, Xameneiyə aid edilən ilk müraciət Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricani tərəfindən yazılmışdır və bu onun əvvəlki açıqlamaları ilə üst-üstə düşür. İddialara görə, mətnin əsl müəllifinin Xameneinin özü olduğuna dair şübhələr var. Bu mənbəyə görə, Xamenei hətta çıxışının mətnini belə görməyib və onun ictimaiyyət qarşısında olmaması və səs yazısının olmaması bu şübhələri daha da gücləndirir.

## *"Bütün Çərşənbələr əslində iqtisadi məna daşıyır"*

**"Od, yel və su alternativ enerji mənbəyidir. Yəni onlar sadəcə təbiət hadisəsi yox, iqtisadi resursdur. Torpaq isə zəngin mineral ehtiyatları, aqrar potensialı və məkan funksiyası ilə ən fundamental resurslardan biridir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

"Hətta məhsuldar və zəngin olmayan torpaqlar belə bütün enerjilərin üzərində qurulduğu baza rolunu oynayır. O, istehsalın, infrastrukturun və yaradılan dəyərin yerləşdiyi əsas platformadır.Başqa sözlə, əsrlər əvvəl simvol kimi qəbul etdiyimiz ünsürlər, bu gün iqtisadiyyatın ən strateji istiqamətlərindən biridir.Bu gün isə ilaxır çərşənbəsidir.Hər kəsə ruzi-bərəkətli, işıqlı və uğurlu bir il arzulayıram. İlaxır çərşənbəniz mübarək", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**

## *Xəzər sahilində quşlar kütləvi şəkildə niyə ölür?*



**Xəzər dənizinin Şüvəlan sahili boyunca kütləvi quş ölümü qeydə alınıb. Sakinlərin verdiyi məlumata görə, sahilə səpələnmiş çox sayda ölü quş cəsədi ətrafdakılarda ciddi narahatlıq və maraq doğurub.**

Adalet.az xəbər verir ki, çəkiliş qrupu ərazidə olarkən hər addımbaşı batağan quşlarının cəsədlərinə rast gəlib. Qeyd edək ki, batağanlar Antarktidadan başqa dünyanın bütün bölgələrində yaşayan quş növüdür. Onların 22 növündən üçünün nəsli kəsilmiş hesab olunur. Ölkəmizə əsasən qışlamaq üçün miqrasiya edən bu quşların cəsədlərinə son günlər paytaxtın digər sahil ərazilərində də rast gəlinib. Ekoloqlar bildirirlər ki, kütləvi ölümün səbəbi təbii amillər, yoluxucu xəstəliklər və ya qida çatışmazlığı ilə bağlı ola bilər. Lakin dəqiq səbəb yalnız mütəxəssis rəyindən sonra bəlli olacaq.



*Məlahət Yusifqızı*
*AYB-nin üzvü*

# BOYALI SÖZ ARAMIRAM

**-Bu dünya sınaq meydanıdır, - deyirlər. Biz də bu inancla ömür sürüb, Haqqın qulluğuna gedirik.**

Xeyli vaxtdır, bu yazını yazmağa fürsət axtarır, başlamaq məqamını gözləyirdim.

Yaradanın xüsusi çalarla yaradıb, bizə bəxş etdiyi Sona xanım, Sona Çərkəz Azərbaycan Dövlət Universitetində müəllimim olub. Onun səmimiyyət və doğmalığı, gözəl çöhrəsi həmişə gözlərimin önündədir.

İnsana, qadına xas olan bütün gözəlliklər cəm olmuş Sona xanımı tanıdığıma şükürlər olsun! - deyirəm hər zaman. Belə bir insanın tələbəsi olmağın özünün zövqü isə başqa bir aləmdir.

Düşündüm ki, Sona xanımı dərk edib də ona yaddaşında xüsusi bir yer verməmək mümkün deyil. Onu sağlığımda yaddaşıma, Haqqıma qovuşanda ruhuma hopdurub, aparacağam Haqqın dərgahına. Haqq da mənim seçimini qiymətləndirəcək ki, yaddaş və ruhunu şər-şeytanlarla doldurmamısan.

Müəllim və insanlığı ilə yanaşı qadınlığı, - isməti, sədaqəti, hər qıza, qadına örnək ola biləcək bir xətdir, bir həyat dərsidir Sona xanımın. Həyatının özəyi, sütunu olan Çərkəzinə böyük sevgi və sədaqəti onun yaşam tərzinə, amalına çevrilib və Çərkəzini itirəndən sonra qələmə sarılıb.

*Sənsiz bu dünyanın tək bir rəngi var,*
*Gündüz də gözümdə zülmət gecədir.*
*Kaş, bircə biləydim, biləydim, Çərkəz,*
*Sən olan dünyanın rəngi necədir?!*

*...Ayrıldıq biz, hamı üçün adi söz,*
*Bizimçünsə şər güc gəldi xeyirə.*
*Çox talesiz bəndəyəm ki, bu yaşda*
*Əl atmışam qəm qoxulu şeirə,*

- deyə-deyə hiss və düşüncələrini qələmə alıb, diqqətə çatdırdı. Rusdilli olmasına, "şair deyiləm" deməsinə baxmayaraq yaddaşı oyadan fikirlər araya gətirib, dastana çevrilə biləcək şeirlərini gündəmə gətirdi Sona xanım.

*Sən məni özünlə aparmasan da*
*Mən hər gün yanına yol gələcəyəm.*
*Sənin torpağına qovuşmaq üçün*
*Öz qara bəxtimə güvənəcəyəm.*

"Bəxtəvərlik yuxu imiş" -deyib, "qara bəxtinə güvənmək", bu güvənclə sevgisinə, sevgilisinə yol getmək, onun üz qoyduğu torpağa qovuşmaq kimi hisslər hər kəsdə sevgi və sədaqət hissi aşılayıb, Çərkəzi və Sona Çərkəzi oxucuya sevdirdi.

*Düşüncələr öz fikrimdən doğulubdur,*
*Boyalı söz, ölsəm belə aramaram.*
*Mən etibar və sədaqət aşiqiyəm,*
*Üzəvari dostluqlara yaramaram.*

Şair hər nəsnədən yaza-yaza mühitini, o mühitin içərisində özünü, kimliyini, mövqeyini göstərə bildi.

***Soruşur dostlar məndən,***
***Necəyəm, nə təhərəm?!***
***Cavabım qısa olur:***
***-Sağ olun, birtəhərəm!***
***...Açığını deyim ki,***
***Canımı unutmuşam.***
***Ayaqda durum deyə***
***Ürəyimdən tutmuşam,***

-deyib də, şair olmamaq mümkün deyil və müəllifin özü öz qələmindən süzülüb, görün, necə təqdim olunur?!

-Gözümün toxluğunu, çox nəsnənin yoxluğunu, bəzən tükənməsindən qorxduğum gücümü, həyatda hamı kimi çatışmazlıqlarımın olmasına baxmayaraq, şükr edən dilimi, hamını gözəl görən, yaxşı görən gözlərimi, Allaha açılan və heç zaman boş qayıtmayan əllərimi, kimsənin paxıllığını çəkməyən, mənə pis təsir edən nə varsa, onu silə bilən beynimi, hər kəs üçün narahat olan, hər kəsin dərdini dərdi bilən, hərdən yorğun düşən və göynəyən ürəyimi sevirəm!"

Özünün şaircəsinə, şeircəsinə təsviri.

***Ər kişinin kövrək qızı,***
***Mərd qardaşlar bacısıyam.***
***Uymamışam yağlı dilə,***
***Acıların acısıyam.***

***Atam mənlə qürur duydu,***
***Anam yandı ağ saçıma.***
***Dedi: -Özünü də düşün,***
***Bala, yetənə acıma!***

***Öz-özümlə bacarmadım,***
***Hər yetənə qucaq açdım.***
***Mən özümü düşünmədən***
***Hamının ardınca qaçdım.***

Bir dəfə uzun illər sonra universitetdə böyük və səmimi insan, şair Ağa Laçınlı ilə rastlaşdım. Hal-əhvaldan sonra: - Evin, şəraitin necədir?!- dedi.

-Necə olacaq?! -Ev deyil ki! 29 kv. metrlik mehmanxana, xəstəxana, yataqxanadı. Rayondan alış-verişə, həkimə, iş dalınca gələn hər kəs bizdədi, biz də onların qulluğunda.



Ağa Laçınlı: -Dayan, görüm, sən nə ağıllı qızsan! Necə dəqiq dedin onu! Elə biz də sizin gününüzdəyik, -dedi.

Çərkəz müəllimin, Sona xanımın böyüklüyü, insansevərliyi üzündən zamanında onların da evi tanış-bilişlərə, qohum-qəbiləyə qucaq açıb və Sona xanımın yazılarına yansıyıb. Bəzən incə qəlbinə dəyib-toxunanları, üzüdönükləri qələmi ilə üzüzə qoyub, "bir vaxtlar evimin başına keçən yalançı doğmalar" -deyə qınadı Sona xanım.

***İllərlə hər yerdə yanınızdaydım,***
***Zülmət yolunuza işıq salardım.***
***Bacara bilmədim mən ürəyimlə,***
***Kaş ki, sizin kimi daş doğulaydım!***

Bu qınaq özündən çox bəlkə də Çərkəzinə qarşı soyuqluq kimi anlaşılıb. Əslində sevimli Çərkəzi sağ olsa idi, bu "ögey təbəssümlər, çürük niyyətlər ..." Sona xanıma bu qədər əsər etməz, ürəyinə toxunmazdı. Çərkəzinin böyüklüyünə, doğmalığına, yad və qohumcanlılığına qarşılıq axtarmazdı. Çünki Çərkəzi sağ olsa idi, yenə də yaddoğma bilmədən maddi və mənəvi dəstəyindən qalmaz, Sona xanımı da:

*Ummadıqlarından istilik gördüm,*
*Qanım damarımda don atdığında.*
*Yanımı kəsdirdi etibarlılar,*
*Xəstə yatağında mən yatdığımda.*

*Onlar tək çoxları ümidə döndü,*
*Yaman günlərimdə O Yaradandan.*
*Səmimi sevgilər önəmli imiş*
*Cürbəcür gərəksiz dava-dərmandan,*

-deyərdi.

Yaradan insanı geniş mənada sevgi üçün, sevib-sevilmək üçün yaradıb. Nə yazıqlar ki, həsrəti, ayrılığı da ona qarşılıq yaradıb. Belə məqamlarda insan təsəlliyə, ovunmağa daha çox ehtiyac duyur və bunu insanlardan gözləyir. Çox zaman bunlardan biri və birincisi, əvəzolunmazı ana olur. O ana da təhsilli, dünyagörüşlü, ev, ailə və cəmiyyət arasında püxtələşmiş, təcrübə yığıb, elm və mərifət sahibi olmuş ana olanda həyatda dayaq nöqtən olur. O dayaq nöqtəsi dözüm, səbr yerin, səni hər zamanında həyata bağlayan cazibə qüvvən olur.

- Sanki, dağa söykənmişdim sənli günlərimdə, kədər saçıma qəfil qar ələsə də səndən güc alırdım, Ana! Səndən başqa hər kəs mənim kədərimdən bezdi. Sən isə: - Dərdinə, kədərinə, niskilinə, qeyrətinə, təəssübkeşliyinə qurban olum, Sona! Qərib anana el-gün, ana-bacı olan, yel ətəkli, quş qanadlı, dərdlərimin dərmanı Sonam! -dedin, Ana! İllərlə məlhəm sözlərinlə ovunub, təsəlli tapdım".

***Anamın nəsihəti***
***sırğadı qulağımda,***
***Vergülü, nöqtəsi ilə***
***qalıb onlar ağlımda.***
***Dedim: -Çox küskünəm mən.***
***Yaman yoruldum, Ana!***
***Dedi: -Bu yazılıbmış,***
***Anan ölsün, baxtına!***
***Səbrini boğ, sığalla***
***xalını yatımına.***

"Yazılıbmış bəxtinə. Səbrini boğ." Yəni fələklərdən gələnə sus və təslim ol!- deməklə olmur bəzən. Və bir gün fələklər səni:

***...Gəl, qapımdan gir, qardaş!***
***Sənsizliyin zülümdü,***

-deməyə məcbur edir. Dağ üstündən dağ, yara üstündən yara vurur.

*Getdin istəmədən, ay yel ətəklim!*
*Həsrətin ömrümə yağan qar oldu.*
*Axı sən bilirdin, mən yaralıyam!*
*Mənə bu gen dünya yenə dar oldu.*

Bu da bəxtinə yazılan başqa bir yazı. Səbrini boğ, çağırışına üsyan. Şairin "taleyinə yazılanlar" fikrinə qarşı qoyduğu "taleyinə yazılmayanlar" fikri.

*Sənin taleyinə yazılmayanlar*
*Anama dərd oldu, atama ağrı.*
*Getdin istəmədən, vaxtsız, biəcəl.*
*Paramparça oldu o gündən bağrım.*

Bağrı paramparça edən ölümlərin qarşısında bir olum sözü dayanır və "ol" deməklə həyatı ollaşdıran Yaradan insanı təkcə sınağa çəkmir, eyni zamanda onun başını olum-ölümlərlə qatıb, ağlını olumölümlərlə çaşdırıb, qarışdırır. Bununla da tarazlıq yaradır. Baba Çərkəzin adını nəvə Çərkəzə ötürməklə bir tarazlıq saxlanılır. Nəvə Çərkəz baba Çərkəzdən bir yadigar olduğunun məsuliyyətini dərk etməklə yanaşı çərkəzsevərlərə bir təsəlli olduğunu da dərk edir, ən çox da Sona nənəsinə:

-Nə yaxşı ki, adını daşıdığın Çərkəz babanın çox xüsusiyyətini varlığında yaşadırsan, Çərkəz!

Çox düşüncələr yaradan Sona xanımın özündən ayrıla bilmədiyim kimi onun haqqında yazılan bu yazını tamamlamağa da çətinlik çəkirəm.

Yəni beş düşünüb, bir yazdım. Sona xanımın tələskənliyinə qıymadım və Sona Çərkəzin bir bəndi ilə yazıma son verdim, bəlkə də davam verdim.

***Sən məni görəndə boynuma sarıl,***
***Yalançı xoş-beşi qəbul etmirəm.***
***Qeyri-səmimilik qorxudur məni,***
***Elələrinə mən yaxın getmirəm.***

# Daha çox bu ölkələrdən dərman alırıq

**"Dərman vasitələrinin idxal olunduğu ölkələri sıralayan zaman ilk beşlikdə Türkiyə, Almaniya, Fransa, Rusiya və İtaliyanın yer aldığı müəyyən edilir".**

Adalet.az xəbər verir ki, bu barədə Azərtac-a müsahibəsində Analitik Ekspertiza Mərkəzinin (AEM) direktoru Murad Süleymanov bildirib.

O deyib ki, dərman vasitələrinin idxalı ilə bağlı daxil olan müraciətlər əsasında ekspertizasının aparılması üçün hər partiya üzrə götürülmüş dərman vasitəsi nümunələri barədə farmasevtik, statistik, eləcə də laborator analiz üsulu və nəticələri barədə məlumatlar AEM-in rəqəmsal "Analiz bazası"na daxil edilir:

"Dərman vasitələrinin laborator analiz nəticələri barədə sertifikatı da yekun nəticəyə uyğun qaydada birbaşa bu sistem üzərindən çap olunur. Toplanmış məlumatlar əsasında müvafiq hesabatlar hazırlanır və mövcud məlumatların analizi aparılır. Aparılmış məlumat analizlərinə əsasən ötən il ərzində müxtəlif xarici ölkələrdən respublikamıza ümumi miqdarı təqribən 196 milyon qutu dərman vasitəsi idxal edilib".

Murad Süleymanov vurğulayıb ki, hazırda ərizəçilər tərəfindən Vahid Elektron Səhiyyə platforması üzərindən qəbul edilə biləcək müraciət növlərindən biri də dərman vasitələrinin idxalı ilə bağlıdır.

"Dərman vasitələrinin təqib və izləmə sistemi" isə dərman vasitələrinin istehsaldan son istehlakçıyadək dövriyyəsinin rəqəmsal qeydiyyat və unikal identifikasiya mexanizmi vasitəsilə izlənilməsini təmin edən mühüm nəzarət alətidir. Bu sistem təchizat zəncirinin bütün mərhələlərində məlumatların real vaxt rejimində toplanmasına və mərkəzləşdirilmiş informasiya bazasında emal olunmasına imkan yaradır. Hər bir qablaşdırmaya tətbiq edilən unikal identifikasiya kodu məhsulun mənşəyini və hərəkət trayektoriyasını izləməyə şərait yaradır.

Beləliklə, qeyri-qanuni idxal, saxta məhsullar və paralel satış kimi risklər minimuma endirilir. Apteklərdə hər satış əməliyyatının rəqəmsal qeydiyyatı təkrar satış və uçotdan kənar dövriyyə hallarını texniki olaraq məhdudlaşdırır. Sistem, eyni zamanda, risk əsaslı nəzarət modelinin formalaşmasına da imkan yaradır. Analitik alətlər vasitəsilə satış intensivliyi, partiya dövriyyələri və anbar məlumatları təhlil olunur və yüksək riskli subyektlər prioritet monitorinqə cəlb edilir", - deyə AEM-in direktoru diqqətə çatdırıb.

# Məzuniyyət vaxtı üçün əməkhaqqı belə hesablanır



**İşçi məzuniyyətdə olduğu müddətdə onun iş yeri və vəzifəsi saxlanılmaqla, ona Əmək Məcəlləsində nəzərdə tutulmuş hallarda sonuncu əməkhaqqından az olmamaq şərti ilə orta əməkhaqqı da ödənilir.**

Adalet.az xəbər verir ki, bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb. Bildirilib ki, sonuncu əməkhaqqı dedikdə, işçi məzuniyyətə çıxdığı vaxt qüvvədə olan əmək müqaviləsində müəyyən edilmiş əməkhaqqı nəzərdə tutulur. Məzuniyyət vaxtı üçün ödənilən orta əməkhaqqı onun hansı iş ili üçün verilməsindən asılı olmayaraq məzuniyyətin verildiyi aydan əvvəlki 12 təqvim ayının orta əməkhaqqına əsasən müəyyən edilir. (Əgər məzuniyyətin verildiyi aydan əvvəlki aylarda işçi qismən ödənişli sosial məzuniyyətdə və ya öz təşəbbüsü olmadan ödənişsiz məzuniyyətdə olubsa, yaxud onun təqsiri olmadan boşdayanma səbəblərindən işləməyibsə və ya tam işləməyibsə, bu zaman həmin aylar yaxın dövrdəki tam işlənilən təqvim ayları ilə əvəz olunur.)

Məzuniyyətdən əvvəlki 12 təqvim ayının orta əməkhaqqı isə həmin ayların əməkhaqqının cəmlənmiş məbləğinin 12-yə bölünməsi ilə müəyyən edilir.

Alınmış məbləğin ayın təqvim günlərinin orta illik miqdarına - 30,4-ə bölünməsi yolu ilə bir günlük əməkhaqqı hesablanır. Daha sonra bu məbləğ məzuniyyət günlərinin sayına vurulur.

Bu zaman alınan məzuniyyət haqqının məbləği həmin məzuniyyət günlərinin təsadüf etdiyi iş günləri üzrə əməkhaqqı məbləği ilə müqayisə edilir.

Nəticədə alınan məbləğ işçinin sonuncu əməkhaqqından çox olduqda da məzuniyyət haqqı kimi işçiyə ödənilir, az olduqda isə işçinin sonuncu əməkhaqqına çatdırılaraq ona ödənilir.



*Mirqiyas Seyidsoylu, polkivnik*

# YURDUMUZA BAHAR GƏLİR! DİRİLİŞ BAYRAMI

**Yaz fəslinin yurdumuza gəlişinin " Bahar " və yaxud " Novruz " bayramı adı altında qeyd edilməsi haqqında ilk yazılı tarixi məlumat eramızdan əvvəl 505-ci ilə təsadüf edir. Araşdırmalar göstərir ki, bu bayram tədbirləri bütövlükdə təbiətin oyanışı və yenilənməsini özündə ehtiva edir. Suyun isinməsi, suda yaşayan canlıların üzə çıxması, günəşin hərarətinin yüksəlməsi, havada xəfif mehin-yelin yaranması, torpağın cana gəlməsi, qar altından qardələnlərin baş qaldırması, günlər keçdikcə təbiətin al-əlvan rənglərə boyanması, canlı orqanizmlərdə qaynar həyatın oyanışı, onu göstərir ki, təbiət yenilənir, il dəyişir, həyat təzələnir !..**

Qədim əcdadlarımızın miladdan çox-çox əvvəllərdən başlayaraq " Yeni ilin " - Baharın gəlişini, Novruzdan ( martın 21-də ) başlamaları sırf astronomik elmi əsaslara bağlı idi. Həmin gün Yerin şimal yarımkürəsində gecə gündüzlə bərabərləşir. İnsanların arzu - istəklərindən, iradəsindən asılı olmayaraq ilin yeni fəsli - yaz başlanır.

Azərbaycan Milli Elmlər Akademyasının Nəsrəddin Tusi adına Şamaxı Astrofizik Rəsədxanasının Bakı bölməsinində Günəş fizikası və ulduz atmosferi sahəsinin görkəmli alimi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, mərhum Rəhim Zeynalov " Kainatın bayramı " məqaləsində göstərir ki, Yazın - Novruzun gəlişinin astronomik əsasları sırf kainat qanunlarına söykənir.

Belə ki, Yerin günəş ətrafında ilk qət etdiyi məsafə orbit üzrə 940 milyon kilometrdir. Bu məsafəni Yer saatında 107 min kilometr və yaxud 29,8 kilometr / saniyə sürətlə qət edir. Yerin günəş ətrafında tam dövr etməsi 365 gün 5 saat 48 dəqiqə 46 saniyəyə başa gəlir. Bu müddət il adlanır. Yer kürəsi öz oxu ətrafında tam hərəkətini 24 saat ( daha dəqiq 23 saat 56 dəqiqə 48 saniyə ) başa vurur. Yerin öz oxu ətrafında tam fırlanmasına bir gün ( sutka ) deyilir. Yerin fırlanmasında Gecə ilə Gündüz növbələşir və vaxt vahidi yaranır. Bu harmoniyanın sayəsində Yer səthində işıq-isti və soyuğunun dəyişməsi atmosfer sirkluyasiyası yaranır..

MARTIN 21-nə YAZIN GECƏ-GÜNDÜZ BƏRABƏRLİYİ DEYİLİR.

Martın 21-dən Yer kürəsi də elə bir mövqe tutur ki, Günəş tədricən şimal yarımkürəsinin üzərinə doğru meyillənir. Bu zaman şimal yarımkürəsində gündüzün uzunluğu və tədricən temperatur yüksəlir. Bu astronomik hadisəyə görə 21 mart şimal yarımkürəsində Yaz fəslinin - Baharın başlanğıc günü hesab olunur.

Bir sıra Şərq ölkələrində də martın 21-i "Yeni il "in başlanması kimi qeyd olunur.

Bütün bunlar göstərir ki, min illərdir sevilə -sevilə böyük bayram təntənəsilə qeyd edilən " Novruz bayramı " xalqımızın milli tarixi kiçmişinə misilsiz adət - ənənələrlə zəngin olan, təbiət bayramı kimi daxil olmuşdur. Bu bayram ilk növbədə qədim zamanlardan bizim coğrafiyada yaşayan xalqlar arasında milli həmrəyliy hissləri yaratmaqla onların bir ailə şəklində birləşməsini təmin etmişdi. Tarixən Azərbaycan cəmiyyətində milli mədəniyyətin və identikliyin qorunmasında Novruz adət - ənənələrindən irəli gələn etnoqrafik bilgilərin böyük rolu olmuşdur..

Sual olunur, adət - ənənə nədir ?..

"Adət - ənənə : İnsanların mişətində və ictimai-siyasi həyatındakı hərəkətlərin vərdişə çevrilməsinə adət - ənənə deyilir ". Tarixi araşdırmalar göstərir ki, əksər zamanlarda bu adət - ənənələr cəmiyyətdə və insanlar arasında mifləşdirilərək müqəddəs qanunlara çevrilmişdir. Çünki, bu qanunlar hər zaman insanlar arasında sevgi və bağlılığı, xalqların qüdrətlənməsi, milli birliyin, sülhün - sədaqətin, bərabərliyin bərqərar olunmasının əsasını təşkil edirdi. Bu qanunlar öz fundamental xüsusiyyətlərinə görə bir neçə kateqoriyalara bölünür.

1-ci təbiət qanunları.

2-ci cəmiyyət qanunları.

3-cü dövlət qanunları.

4-cü beynəlxalq qanunlar.

Biz, bu gün ki, mövzumuza diqqətlə baxdıqda görürük ki, qədim əcdadlarımız zaman-zaman təbiətdə baş verən yenilənməni düzgün qiymətləndirməklə Yaz fəslinin gəlişini bayram şəklində keçrilməsini cəmiyyət qanunu kimi qəbul etmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra isə bu bayram dövlət statusu səviyyəsinə yüksəldilmişdir. 2009-cu ildən isə Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun Xoşməramlı Səfiri, Birinci Vitse prezident Mehriban xanım Əliyevanın böyük səyi nəticəsində Novruz bayramı UNESCO tərəfindən Qeyri - Maddi Mədəni İrs üzrə REPREZENTATİV siyahıya daxil edilmişdir. 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasında martın 21-i Beynəlxalq Novruz Günü elan olunub.

Qədim əcdadlarımızın, dəyərli adət - ənənələrlə zəngin olan mədəni - etnoqrafik irsin bu günümüzə miras saxladıqlarına görə onların ruhuna rəhmət diləyirik. Bunları qoruyub yaşatmaq, zənginləşdirmək və gələcək nəsillərə ötürmək hər bir azərbaycanlının vətəndaşlıq və həm də mənəvi borcudur. Ancaq, təəsüflər olsun ki, tarixən xarici müdaxiləçilərlə yanaşı öz içərimizdə də milli dəyərlərimizə və adət - ənənələrimizə qısqanclıq və mühafizəkar mövqeyiilə yanaşan kosmopolitlər çox olmuşdur...

Son günlərdə bizim yaxın qardaşlardan birinin oğlunun toy şənliyində bir sıra yoldaşlarla əyləşmişdik. Tamada toy şənliyinin giriş hissəsində əzəmətli səslə Vətənimizin müdafəsi və torpaqlarımızın düşmənlərdən azad olunması uğrunda canını fəda etmiş " MÜQƏDDƏS ŞƏHİDLƏR "imizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad etməyi elan etdi. Biz adəti üzrə, dərhal ayağa qalxaraq ŞƏHİDLƏRİMİZİN ruhuna ehtiram əlaməti olaraq fərağət vəziyyətini aldıq. Bir dəqiqəlik sükut başa çatan kimi, arxasınca AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ səsləndirildi. Mən, buna çox sevindim və özümdə mənəvi rahatlıq hiss etdim.

Bu zaman yoldaşlardan birinin səliqəsiz və yersiz danışığı məni peşiman etdi.

-O, dedi: - mən, toy şənliklərində adamların məcbur ayağa qaldırılmasının və Dövlət Himnin səsləndirilməsinin əleyhinəyəm. Bu heç uyğun olmayan bir işdir. Bu məsələni kim moda salıb ?!..

Yoldaşlardan biri dedi ki, burada pis nə var ki, xalq öz ŞƏHİDLƏRİNİ dəyərləndiri.

- Bu harada və hansı qanunda yazılıb ki, toylarda adamları qaldırıb ona Dövlət

Himni oxudurlar ?

- Kim bilirsə mənə izah eləsin, bu hansı qanunda yazılıb ?!..

Bizimlə masa ətrafında əyləşən yoldaşlardan bir neçəsi nə isə deməyə çalışsa da, ancaq bu yoldaş yenə də israrlı deyirdi ki, xeyir, heç yerdə və heç bir qanunda bu barədə heç nə yazımayıb.

- Mən, dedim ki, - qardaşım birincisi " moda " yox DƏB demək izımdır. İkincisi, siz qanun deyəndə hansı kateqoriya qanunu nəzərdə tutursunuz ?.

- O, dedi, məsələn Konstutisiyada bu barədə heç nə yazılmayıb.

- Dedim ki, qardaşım, Konstitusiya Dövlətimizin əsas qanunudur. Orada toy şənliyi barədə də heç nə yazılmayıb. Amma və lakin toy şənlikləri cəmiyyət qanunları, xalqımızın adət və ənənələri əsasında formalaşıb və bu gün də yaşayır. Qanunlar bir neçə kateqoriya bölünür. Bura daxildir, təbiət qanunları, cəmiyyət qanunları, dövlət qanunları, beynəlxalq qanunlar. Yadında saxla cəmiyət qanunları insanların məişətində və ictimai-siyasi həyatında vərdişə çevrilən hərəkətlərilə yaranır. Bu gün ki, toy şənliklərində adətə çevrilmiş " ŞƏHİDLƏRİN ANIM " ənənəsi xalqın öz sevgi və sayqısı ilə içdən gələn istək və məhəbbətdən yaranmış cəmiyyət qanunudur. Bu qanunu insanlara qadağan etmək mümkün deyil. Çünki bu qanunu xalqın, cəmiyyətin özü yayadıb. Belə ənənələrə görə Dövlət qanunlarına əlavə və dəyişikliklər etməyə ehtiyac yoxdur...

O, yoldaş mənim fikirlərimlə razılaşmasa da, susdu və bir daha danışmadı. Mən, son zamanlar bəzi sosisl şəbəkələrdə sağda - solda toy şənliklərində " ŞƏHİDLƏRİN ANIM " ənənəsi haqqında fikir bildirənlərə demək istəyirəm ki, əzizlərim, bütövlükdə bir millətin, bir cəmiyyətin, bir nəslin tərbiyəsi üçün ən dəyərli və təsirli təbliğat vasitəsi canlı və real nümunəvi işdir. Biz bir məsələni bilməliyik : " Millət ola bilər, əgər, millətin torpağı yoxdursa o millətin qüruru olmayacaq ". Çünki, millətin bütün dəyərləri ŞƏHİDLƏRİMİZİN qanı bahasına işğaldan azad edilmiş torpağın üzərindədir. Əgər, bu torpaq varsa demək millət var və yaşayır...

Çərşənbə axşamı günlərində, gün batana yaxın adamlar dədə - baba yurdlarının qapısında, həyətində çərşənbə tonqalları yandırarlar. Tonqal üzərində atıanar və deyərdilər : " Ağırlığım od olsun odda yanan dərd olsun ". " Ağırlığım odlara - istəməyən yadlara ". " Ağırlığım uğurluğum odda qalsın ". Bilgilərə görə qədim zamanlarda bəzi xəstəliklər, xüsusilə yolxucu xəstəlikləri odla - alovla müalicə edərdilər. Ona görə də adamlar yolxucu xəstəliklər olan yerlərdə tonqallar qalayar və xəstəlik tutmuş adamları oda yaxın gətirər, dualar oxuyar xəstələrə sağlamlıq diləyərdilər. Ən başlıcası köhnə ildən qalmış bütün köhnə əşya və tör - töküntüləri ilaxır çərşənbə axşamlarında yandırar və köhnəlikdən qurtulmağa çalışardılar...

2016-cı il martın 15-i günü !..

Əlahiddə Ümumqoşun Ordu rəhbərliyi Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Nazirlik, Xidmət, Komitə, İdarə və Təşkilatlarla birgə yaratmış olduğu " NUH YURDU " təşviqat-təbliğat briqadası bu dəfə BATABAT döyüş bölgəsində Vətənimizin müdafiəsində döyüş tapşırığı yerinə yetirən şəxsi heyətin görüşünə gəlmişdi..

BATABAT yaylağında şaxtalı, qarlı-çovğunlu, dumanlı bir gün idi. Təbiətin, havanın belə əlverişsiz olmasına baxmayaraq BİÇƏNƏK AŞRIMINDA düşmənlə üzü - üzə dayanan əsgərlərimizlə Novruz tədbirləri keçirirdik. Bəlkə də bu söhbətim bəzi yoldaşlar üçün inandırıcı gəlməyəcək. Ancaq bu həqiqətən belə idi. Azərbaycan Milli Elmlər Akademyasının Naxçıvan bölməsinin alimləri, AMEA-nın Müxbir üzvləri professor, mərhum Oruc Həsənli, professor, mərhum Hacı Qadir Qədirzadə, professor Fəxrəddin Səfərli və bir çox ziyalı, elmmədəniyyət xadimi və müvafiq vəzfəli şəxslər bu gün bizimlə birgə idi. Komandanlıq BİÇƏNƏK AŞRIMINDA dəniz səviyyəsindən 2000 mr hündürlükdə yerləşən zirvədə üç tonqal yandırmaq barədə tapşıriq vermişdi. Zirvədə tonqalların alovlanmasilə Novruzv tədirimiz başladı. Bəz yoldaşlar təşvişlə mənə yaxınlaşaraq bildirdilər ki, bu təhlükəli deyilmi ?!..

Dedim ki, nəyi nəzərdə tutursunuz?

- Bəs düşmən tonqalları görüb atəş aça bilər.

- Narahat olma qardaşım, Bu, bizlərə QORQUD DƏDƏMİZ tərəfindən tövsüyə olunub ki, Oğuz ellərini döyüşə haraylayanda " Üç tonqal " yandırarsınız. Bizdə bu vəsiyyətə sadiq qalaraq, " Üç tonqal " yandırmışıq. Görürsən burada nə qədər cəngavər igidlərimiz var. Onlar atəş açar, cavabını da alar. Dedim...

- O, gülümsəyərək bir qədər ürəkli - ürəkli dedi : allah köməyniz olsun. Mən, elədə bilirdim..

Burada hava nə qədər çovğunlu və şaxtalı olsa da, belə əsgərlərimiz böyük ruh yüksəkliyi ilə Naxçıvan Dövlət Dram Teatrı, Naxçıvan Dövlət Filarmoniyası tərəfindən nümayiş olunan " Kosa - kosa ", " Qodu - qodu ", " Yumurta döyüşü ", " Kosa və gəlin " səhnəcikləri və konsert nömrələrini böyük maraqla izləyirdilər. Azərbaycan folklor nümunələrinin gözəl bilicisi, tarixçi alim, professor, mərhum Hacı Qadir Qədirzadə Novruz bayramının gözəlliyi və dəyərləri haqqında söhbətlər apardı. Xüsusilə də bayram tonqallarının əhəmiyyətini vurğulayan zaman yumruqlarını düyünləyib əsgərlərimizi döyüşə, qisasa səsləyirdi. Mənə belə gəlir ki, zamanında edilmiş bu çağrışlar bizi zəfərə qovuşdurdu. İndi yəqin ki, bütün şəhidlərimiz kimi, gözəl alimlərimiz Oruc Həsənlinin və Hacı Qadir Qədirzadələrin ruhu şaddır. Allah hamısına rəhmət eləsin. Amin!

Bəli, Qüdrətli Azərbaycan Silahlı Qüvvələri, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında işğalda olan torpaqlarımız 2020-ci ilin sentyabrında " 44 günlük Vətən Müharibəsi " zamanı azad etməklə düşməni kaputilyatsiya İmzalamağ məcbur etdi.

Bununla Azərbaycan Respublikası öz dövlət suverenliyini bərpa etdi. İndi Qarabağın hər bir güşəsində Novruz tonqalları yandırılır.

Xalqımızın azadlığı, Respublikamızın müstəqilliyi, Dövlətimizin suverenliyi, Ölkəmizin ərazi bütövlüyi, qədim Qarabağın müdafiəsi və işğaldan azad edilməsi uğrunda canını fəda etmiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyir, sağlamlığını itirənlərə şəfa, bu yolda mücadiləsini davam etdirən mübarizlik arzulayırıq.

Bu gün ki, müqəddəs bayramlar ərəfəsində qəhrəman ŞƏHİDLƏRİMİZİN anaları, ataları, doğmaları, əzizləri başda olmaqla bütün xalqımızı səmimi qəlbdən təbrik edirik.

***Əziz və dəyərli xalqımız !***

**Sizi qarşıdan gələn İlahi qüdrətin fitrətindən doğulmuş, "Ramazan" və "Novruz" bayramları münasibətilə səmimi qəlbdən təbrik edir, sizə dəyərli və firavan ailə həyatı arzulayırıq. Müqəddəs bayramlarınız mübarək olsun!**

## *"Nəticədə ən yaxşı ixtisaslara ən yaxşı əzbərləyənlər daxil olur..."*

**"Bu, imtahanlar "yaddaş müsabiqəsi"dir. DİM imtahanlarından sonra hər il eyni müzakirə yaranır ki, suallar çox çətin olub. Bu narazılıqlarda müəyyən həqiqət payı ola bilər. Amma məsələ budur ki, suallar çətin də olsa, asan da olsa nəticə dəyişməyəcək. Bütün hallarda imtahan verənlərin içindən qəbul yerlərinin sayı bitənə qədər ən güclülər seçilir. Güclü abituriyent isə həm çətin sualda güclüdür, həm də asan sualda".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, imtahan sisteminin məqsədi isə məhz bu fərqi ortaya çıxarmaqdır: "Amma məsələnin başqa, daha əsas tərəfi var.Əslində problem sualın çətin və ya asan olması deyil. Problem imtahanların mahiyyətindədir. Bugünkü qəbul sistemi böyük ölçüdə yaddaş və əzbər üzərində qurulub. Nəticədə ən yaxşı ixtisaslara ən yaxşı əzbərləyənlər daxil olur. Kim daha çox məlumatı yadda saxlayırsa, o daha yüksək bal toplayır. Kim daha güclü əzbərçidirsə, o da ən prestijli ixtisaslara və hətta prezident təqaüdünə qədər yüksələ bilir. Əlqərəz, indiki model bir qədər "bilik yarışı"ndan çox "yaddaş müsabiqəsi"ni xatırladır. Halbuki ali təhsil sistemi yaddaşın deyil, düşüncənin, analizin, yaradıcılığın və problemləri həll etmə bacarığının ölçülməsinə əsaslanmalıdır. Bu səbəbdən əsas müzakirə sualların çətinliyi yox, imtahan sisteminin yanaşması olmalıdır".

**Vasif ƏLİHÜSEYN**

## *Metereoloqlar həyəcan təbili çalır*

**Yaxın vaxtlarda baş verə biləcək "El-Ninyo" iqlim fenomeni son on ilin ən güclüsü ola bilər.**

Adalet.az xəbər verir ki, bu barədə "Fobos" hava mərkəzinin mütəxəssisi Mixail Leus öz "Telegram" kanalında bildirib.

Onun sözlərinə görə, "El-Ninyo" Sakit okeanın ekvatorial hissəsində suyun temperaturunun anormal şəkildə artması ilə əlaqədardır. Bu proses qlobal temperaturun yüksəlməsinə, eləcə də dünyanın müxtəlif bölgələrində təhlükəli hava şəraitinin yaranmasına səbəb ola bilər.

ABŞ-nin Okean və Atmosfer Tədqiqatları üzrə Milli İdarəsinin (NOAA) proqnozuna görə, fenomen iyun-avqust aylarında yenidən başlayacaq və ən azı 2026-cı ilin sonuna qədər davam edəcək.

Meteoroloqlar bildirirlər ki, fenomenin ən güclü təsiri qarşıdakı qış mövsümündə hiss olunacaq. Nəticədə 2026 və 2027-ci illər meteoroloji müşahidələr tarixində ən isti illərdən biri ola bilər. Sakit okeanda suyun temperaturunun normadan 1,5-2 dərəcə yüksək olacağı gözlənilir.

# BƏŞƏRİ DƏYƏRƏ ÇEVRİLƏN MİLLİ BAYRAM – NOVRUZ

**Hər bir xalqın tarixində müxtəlif bayramlar, el şənlikləri olmuşdur. Onlardan bəziləri xalqa yad müəyyən bir ideologiya ilə bağlı olduğundan zaman keçdikcə unudulmuş, yaddaşlardan silinmişdir. Yalnız o bayramlar əsirlərin sınağından keçir ki, onların əsasında humanist milli və bəşəri ideyalar durur.**

Bayram anlayışı insanlığın tarixi qədər qədimdir. Bayramlar yalnız təqvim hadisəsi deyil, həm də cəmiyyətin özünü ifadə forması, ortaq yaddaşın, birliyin və mənəvi bağların möhkəmlənməsi məqamıdır. Hər bir xalqın bayramları onun dünyagörüşünü, təbiətə münasibətini, sosial münasibətlər sistemini və estetik zövqünü əks etdirir. Azərbaycan xalqı da zəngin bayram ənənələri ilə seçilən xalqlardandır.

Azərbaycan xalqının uzaq qədimlərdən bu günədək sevə-sevə qeyd etdiyi belə bayramlardan biri də NOVRUZ bayramıdır. Bayramlar sırasında Novruz xüsusi yer tutur. Qədim zamanlardan dünya xalqlarının bir çoxu yazın gəlməsini təbiətin oyanmasını əkin işlərin başlanmasını bahar bayramı kimi qeyd etmişlər. Bu münasibətlə şənliklər keçirmir, onu yeni ilin başlanğıcı kimi qarşılamışlar. Qədimdə bir sıra Şərq xalqları, o cümlədən Mərkəzi Asiya və Azərbaycan türkləri də baharın gəlişini bayram etmişlər. Bu bayram Novruz adlandırılmışdır. Novruz bayramı martın 21-də və ya 22-də keçirilir. Bu isə yaz gecə - gündüz bərabərliyinə təsadüf edir.

Novruz təkcə Azərbaycanın deyil, ümumilikdə region xalqlarının ortaq mədəni sərvətidir. Bu bayramın beynəlxalq səviyyədə tanınması və qorunması məqsədilə UNESCO tərəfindən Qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun ümumbəşəri dəyərini bir daha təsdiqləyir. Bu fakt göstərir ki, Novruz artıq milli çərçivədən çıxaraq bəşəriyyətin ortaq mədəni irs nümunəsinə çevrilmişdir.

Mədəni irs dedikdə biz yalnız maddi abidələri - qalaları, məscidləri, sarayları nəzərdə tutmuruq. Mədəni irs həm də şifahi xalq ədəbiyyatı, musiqi, folklor, mərasimlər və adət-ənənələrdir. Novruz bu baxımdan mədəni irsin canlı daşıyıcısıdır. O, nəsildən-nəslə ötürülən yaddaşdır. Əgər bir xalq öz bayramlarını yaşadırsa, deməli, o xalq öz kimliyini qoruyur.

Azərbaycan alimləri bu bayramın salnaməsini ibtidai icma quruluşunun inkişaf mərhələsi ilə bağlayır. Akademik T. Bünyadov yazır ki, bu bayram Şərq ölkələrində yaşayan, oturaq güzəran keçirən və yüksək əkinçilik mədəniyyətinə malik xalqların kəşfidir, bəşəriyyətə bəxş edilmiş zəngin mənəvi dünyadır.

Mənbələrdə xəbər verilir ki, eradan əvvəl 3-cü minillikdə Babilistanda Novruz bayramı keçirilirmiş.

Yüksək əkinçilik mədəniyyəti olan Azərbaycanda da bayram qeyd edilmişdir. Eradan əvvəl 505-ci ilə aid məlumatda Novruzun təntənə ilə keçirildiyi öz əksini tapmışdır .

XI əsrdə yaşamış Nizam əl-Mülk "Siyasətinə" əsərində yazıb ki, Novruz kütləvi xalq bayramıdır. Bu bayramın tarixinin 4000 ildən də əvvələ gedib mənbələrdə ifadəsini tapmışdır.

Əbdülqazi Bahadır xan "Şəcareyi-türkü" əsərində yazıb ki, türklər Ərgənəkondakı dağları yarıb, Bozqurdun rəhbərliyi ilə qurtuluşa günü dür sonralar hər il bayram elədilər.

İnsan mənəviyyatına güclü təsir göstərən bu bayrama sahib çıxmaq istəyən xalq çox olub. Bunu təbii saymaq olar, çünki bu bayram məzmunca zəngindir, mahiyyəti ilə çox bəşəridir, keçirilmə müddəti həyati və təbiidir. Yaxın və Orta Şərqdə doğulmuş səyyahlar öz əsərlərində daha çox Azərbaycanda bu əbədi bayramla bağlı epizodlara geniş yer veriblər.

Professor N.Qasımlı yazır: Novruz bir mövsüm mərasimi kimi coğrafi hüdudlara yayıldığından və hər il istinasız olaraq uyğun təqvim məqamında böyük coşğuyla keçirildiyindən müxtəlif tarixi mənbələrdə hakim ideoloji sistemler ondan siyasi məqsədlər üçün istifadə etməyə səy etmişlər. Belə ki, atəşpərəstlər Novruzu zərdüşlüklə əlaqələndirməyə çalışmış və hətta böyük nüfuz sahibi olduqları zamanlarda bu bayrama özlərinin bir sıra cizgilərini ( səməni, şam yandırmaq və s.) daxil də edə bilmişlər. İranda Novruza sırf İran hadisəsi anlamı vermək məqsədi ilə onu mifik Cəmşidin taxta oturduğu gün sayaraq bu gündə çox saylı rəvayətlər yaradılmışdır.

E.ə. III minillikdə şumerlərin astronomik kəşfləri, Yaxın Şərqdə dəfə bahar bayramını, çöldə, təsərrüfat həyatının dirçəlməsi bayramını ortaya çıxartdı. O vaxt şumer münəccimləri fəsillərə aid təqvim vklöçi edərkən ulduzlar zəmindəki yeni - yeni hadisələri müşahidə etmiş əm onlardan ölkə iqtisadiyyatında, xalqın ictimai həyatında səmərəli şəkildə istifadə etmişlər göydəki ulduz toplarının ( ruplarının, bürclərinin) öz yerlərini dəyişməsi, bir-birini əvəz etməsi yer üzərindəki fəsillərin dəyişməsinə uyğun bir şəkildə baş layanda verir.



Beləliklə, aşkar etmişlər ki, bahar girəndə çöl - tarla işlərinin başladığı vaxta ( martın 22-də), göydə şir adlı ulduzlar topası göy qübbəsinin zirvəsini fəth edərək orada qərar tutur.

Qədim Şumerlər bu astral hadisəni, şir ulduzlar bürcünün öküz və bürclərini üzərindəki qələbəsi kimi təsəvvür edərək onu simvolik rəsm motivləri vasitəsi ilə təsvir etmişlər.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və milli-mənəvi dəyərlərin qorunması istiqamətində mühüm xidmətləri olan Heydər Əliyev Novruz bayramına xüsusi önəm vermiş, onu dövlət səviyyəsində yüksək statusa qaldırmış və milli həmrəyliyin simvoluna çevirmişdir.

Sovet dövründə Novruz bayramının qeyd olunması müxtəlif illərdə məhdudlaşdırılmış, bəzi hallarda isə qeyri-rəsmi xarakter daşımışdır. Lakin xalq yaddaşında yaşayan bu bayram milli kimliyin ayrılmaz hissəsi olaraq qorunmuşdur. 1969-cu ildə Azərbaycan rəhbərliyinə gələn Heydər Əliyev milli-mənəvi dəyərlərin dirçəldilməsi istiqamətində ardıcıl siyasət yürütməyə başladı.

Məhz onun təşəbbüsləri nəticəsində Novruzun geniş və açıq şəkildə qeyd olunmasına şərait yaradıldı. Bu addım təkcə mədəni tədbir deyildi; bu, milli şüurun gücləndirilməsi, xalqın tarixi köklərinə qayıdışı demək idi.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev Novruz bayramını müstəqil Azərbaycanın ideoloji dayaqlarından biri kimi təqdim etdi. Onun çıxışlarında Novruz yalnız folklor hadisəsi kimi deyil, dövlətçilik fəlsəfəsinin tərkib hissəsi kimi səciyyələndirilirdi.

Əliyev Novruzun aşağıdakı məzmununu xüsusi vurğulayırdı: Xalqın birliyi və həmrəyliyi; Sülh və tolerantlıq ənənələri; Torpağa, təbiətə sevgi; Milli-mənəvi irsə bağlılıq

Onun təşəbbüsü ilə Novruz şənlikləri dövlət səviyyəsində təşkil olunmağa başladı, paytaxt Bakıda və regionlarda ümumxalq tədbirləri keçirildi, tonqallar alovlandırıldı, xalq sənəti nümunələri nümayiş etdirildi.

H.Əliyevin milli mədəniyyət strategiyası yalnız ölkə daxilində deyil, beynəlxalq miqyasda da özünü göstərdi. Onun formalaşdırdığı mədəni diplomatiya xətti nəticəsində Azərbaycan Novruzu dünya ictimaiyyətinə təqdim etməyə başladı. Bu siyasət sonrakı illərdə daha da genişləndirildi və nəhayət, Novruz bayramı 2010-cu ildə UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs siyahısına daxil edildi, həmçinin United Nations tərəfindən 21 mart Beynəlxalq Novruz Günü elan olundu.

Bu uğurun təməlində Heydər Əliyevin milli-mədəni irsin qorunması və dünyaya tanıdılması istiqamətində müəyyən etdiyi strateji kurs dayanırdı.

Heydər Əliyev Novruzu yalnız ənənəvi bayram kimi deyil, milli ideologiyanın mühüm komponenti kimi qiymətləndirirdi. Onun fikrincə: "Novruz bayramı bizim milli sərvətimizdir, xalqımızın qədim tarixinin, zəngin mədəniyyətinin parlaq təzahürüdür."

Bu yanaşma Novruzu siyasi yox, mənəvi birlik platformasına çevirdi.

H.Əliyevin Novruz siyasəti milli kimliyin möhkəmləndirilməsinə xidmət edirdi. Xüsusilə müstəqilliyin ilk illərində yaşanan siyasi və sosial çətinliklər fonunda Bu bayram cəmiyyət üçün psixoloji dayaq rolunu oynayırdı.

Bayram vasitəsilə tarixi yaddaş canlandırılırdı. Gənc nəslə milli ənənələr aşılanırdı; Dövlətçilik və milli birlik ideyası gücləndirilirdi. Bu mənada Novruz həm mədəni, həm də ideoloji funksiya daşıyırdı. Onun Novruz bayramı ilə bağlı təşəbbüsləri təkcə mərasim xarakteri daşımırdı. Bu təşəbbüslər milli ideologiyanın formalaşdırılması, dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və Azərbaycan xalqının tarixi-mədəni kimliyinin qorunması istiqamətində strateji əhəmiyyət daşıyırdı.

Bu gün Novruz bayramının dövlət səviyyəsində geniş qeyd olunması, beynəlxalq miqyasda tanınması və xalqın mənəvi birliyinin simvoluna çevrilməsi məhz Heydər Əliyevin müəyyən etdiyi siyasi-mədəni kursun davamı kimi qiymətləndirilə bilər.

Novruz bayramı Azərbaycan xalqının minilliklərdən süzülüb gələn milli-mədəni yaddaşının canlı təcəssümüdür. Bu bayram təkcə təqvim hadisəsi deyil, həm də xalqın dünyagörüşünün, təbiətə münasibətinin, mənəvi dəyərlərinin və sosial həmrəyliyinin ifadəsidir. Novruz milli identikliyin formalaşmasında və qorunmasında mühüm rol oynayan mədəni fenomendir.

Tarixi mənbələr və elmi araşdırmalar göstərir ki, Novruz qədim Şərq sivilizasiyalarında formalaşmış, zamanla müxtəlif xalqların mədəni təcrübəsində zənginləşmişdir. Bu bayramın kökləri ilə bağlı araşdırmalarda Zərdüşt dünyagörüşünə istinad edilir; burada işıq və qaranlıq, xeyir və şər qarşıdurması təbiətin oyanışı ilə simvolik əlaqədə təqdim olunur.

Müasir dövrdə isə Novruz beynəlxalq səviyyədə də tanınmışdır. UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi və BMT Baş Assambleyasında 21 martın Beynəlxalq Novruz Günü kimi qəbul edilməsi onun ümumbəşəri dəyər daşıdığını təsdiqləyir. Lakin Novruzun ən dərin mənası məhz milli dəyərlər sistemində üzə çıxır.

Fəlsəfi baxımdan Novruz "başlanğıc" anlayışının simvoludur. Burada zaman xətti deyil, çevridir. Hər son yeni başlanğıca çevrilir. Bu, Şərq düşüncəsinə xas olan dövri zaman konsepsiyasını əks etdirir.

Novruz insanın öz daxilində də yenilənmə prosesini təşviq edir. Evlərin təmizlənməsi, küsülülərin barışması, borcların qaytarılması kimi adətlər sosial və mənəvi katarsis funksiyası daşıyır. Bu baxımdan Novruz yalnız təbiətin deyil, insan münasibətlərinin də saflaşma mərasimidir.

Novruz süfrəsindəki elementlər də fəlsəfi məna daşıyır:

Səməni - həyatın və dirçəlişin simvoludur;

Şam - işığın qaranlıq üzərində qələbəsini ifadə edir;

Su - paklıq və davamlılıq rəmzidir;

Güzgü - insanın özünüdərkini və daxili aydınlığı təcəssüm etdirir.

Beləliklə, Novruz milli dəyərlər sistemində həm ontoloji (varlıqla bağlı), həm də etik (əxlaqi) məzmun daşıyır.

Milli dəyərlərin mühüm elementi kollektivlik və paylaşma mədəniyyətidir. Novruz günlərində ailə üzvlərinin bir araya gəlməsi, qohum və qonşuların ziyarəti, süfrə paylaşımı sosial bağlılığı gücləndirir.

Antropoloji baxımdan Novruz keçid mərasimi (rite of passage) xüsusiyyətlərinə malikdir. Köhnə ilin yola salınması və yeni ilin qarşılanması kollektiv şüurda transformasiya aktıdır.

Azərbaycan xalqının təqvim-mərasim sistemində Novruz bayramı təkcə bir günlə məhdudlaşmır; o, bütöv bir mərasimlər silsiləsidir. Bu silsilənin ən mühüm mərhələsini isə Novruza aparan dörd çərşənbə təşkil edir: Su, Od, Yel və Torpaq çərşənbələri. Bu çərşənbələr yalnız təbiət hadisələrinin poetik təcəssümü deyil, həm də xalqın minilliklər boyu formalaşmış kosmoqonik düşüncəsinin, dünyagörüşünün və estetik zövqünün ifadəsidir.

Çərşənbələr qədim türk təbiət kultlarının, zərdüşti inancların və xalq mifologiyasının vəhdətində yaranaraq milli-mədəni kimliyimizin ayrılmaz hissəsinə çevrilmişdir.

İlk çərşənbə Su ilə bağlıdır. Su həyatın mənbəyi, təmizliyin və yenilənmənin simvoludur. Xalq inanclarına görə, Su çərşənbəsində sular oyanır, çaylar, bulaqlar dirilir.

İkinci çərşənbə Od ünsürünə həsr olunur. Azərbaycan coğrafiyası qədimdən od kultu ilə bağlı olmuş, atəş müqəddəs sayılmışdır. Od - işıq, istilik və qoruyucu güc deməkdir.

Üçüncü çərşənbə Yel ilə bağlıdır. Yel - nəfəs, hərəkət və canlanma rəmzidir. Xalq inanclarına görə, bu gündə küləklər oyanır, təbiətə dinamika gəlir.

Sonuncu çərşənbə Torpaqla bağlıdır. Torpaq ana obrazı ilə əlaqələndirilir, məhsuldarlıq və bərəkət rəmzi sayılır. Bu çərşənbədə torpağın oyanması qeyd olunur.

Əkinçiliklə məşğul olan qədim toplum üçün torpağın dirilməsi həyatın davamı demək idi. Torpaq Çərşənbəsi həm də dövranın tamamlanması, dörd ünsürün vəhdəti anlamını daşıyır.

Beləliklə, Su, Od, Yel və Torpaq bir araya gələrək kainatın bütövlüyünü təcəssüm etdirir. İnsan da bu bütövlüyün ayrılmaz hissəsi kimi özünü təbiətlə harmoniyada hiss edir..

Tarixin müxtəlif mərhələlərində Novruz bayramı milli özünüdərkin qorunmasında mühüm rol oynamışdır. Xalq çətin dövrlərdə belə bu bayramı yaşadaraq öz mədəni kimliyini qoruyub saxlamışdır.

Novruz milli həmrəyliyin rəmzidir. Bu bayram zamanı fərqli sosial təbəqələr, yaş qrupları və bölgələr arasında ortaq dəyərlər ön plana çıxır. Hamı eyni tonqal ətrafında toplaşır, eyni arzunu dilə gətirir: sülh, əmin-amanlıq və bolluq.

Qloballaşma şəraitində milli dəyərlərin qorunması xüsusi əhəmiyyət daşıyır. Novruz bu baxımdan milli identikliyin canlı simvoludur. Müasir dövrdə də Novruz yalnız folklor hadisəsi kimi deyil, həm də mədəni diplomatiya vasitəsi kimi çıxış edir.

Bu bayram vasitəsilə Azərbaycan öz qədim mədəniyyətini dünyaya təqdim edir və mədəni müxtəliflik içində özünəməxsus yerini qoruyur.

Sonda vurğulamaq istərdim ki, mədəni irsimizin qorunması hər birimizin vətəndaşlıq borcudur. Bayramlarımızı yaşatmaqla biz təkcə keçmişə hörmət göstərmir, həm də gələcək nəsillərə sağlam mənəvi miras ötürürük.

**Qoy Novruzun işığı hər zaman ocaqlarımızda yansın, qəlblərimizdə ümid, birlik və sevgi duyğularını yaşatsın.**

**Sevda AXUNDOVA**

## *"Azyaşlı uşaqların reklam məqsədilə istifadə olunması psixoloji risklər yarada bilər..."*

**Son zamanlar azyaşlı qız uşaqlarının ətir mağazalarına reklam çarxlarına cəlb edilərək, yaşlarına uyğun olmayan rəqsləri cəmiyyət tərəfindən qınaqla qarşılanıb.**

Mövzuyla bağlı Adalet.az-a danışan psixoloq Zeynəb Əyyubova bildirdi ki, reklam və satış məqsədilə azyaşlı uşaqların xüsusən qızların sosial mediada və müxtəlif reklam çəkilişlərində istifadə olunması ilə bağlı videoların o da şahididir:

Psixoloqun sözlərinə görə, bu yaş dövrü uşağın şəxsiyyətinin formalaşmağa başladığı, özünü və ətraf dünyanı tanıdığı həssas mərhələlərdən biridir:

"Bu yaşda uşaq reklamın və kommersiya məqsədlərinin nə olduğunu tam dərk etmir. Onun üçün əsas motivasiya böyüklərin diqqətini qazanmaq, tərif almaq və bəyənilməkdir. Buna görə də uşağın belə fəaliyyətlərdə iştiraka razılığı əslində şüurlu və yetkin qərar hesab olunmur.

Azyaşlı uşaqların reklam və satış məqsədilə tez-tez istifadə olunması bir sıra psixoloji risklər yarada bilər. Uşaq zamanla öz dəyərini diqqət, bəyənilmə və görünüş üzərindən ölçməyə başlaya bilər. Bu isə gələcəkdə özünə inamın zəifləməsinə, özünü başqaları ilə davamlı müqayisə etməyə və xarici qiymətləndirmədən asılı olmağa səbəb ola bilər".

Z.Əyyubova deyib ki, digər tərəfdən, erkən yaşda diqqət mərkəzində olmaq uşağın üzərinə yaşına uyğun olmayan gözləntilər və məsuliyyət də qoya bilər:

**"Uşaq "bəyənilməli olmaq", "gözəl görünmək" və ya "hamını razı salmaq" kimi düşüncələrlə böyüyə bilər. Bu isə gələcəkdə narahatlıq, özünə qarşı tənqid, emosional gərginlik və sosial münasibətlərdə çətinliklər yarada bilər. Bəzi hallarda isə uşaq özünü daha çox bir "görünüş obyekti" kimi qəbul etməyə başlayır. Bu da yeniyetməlik və gənclik dövründə bədən obrazı ilə bağlı narazılıq, aşağı özünə dəyər hissi və psixoloji həssaslıq yarada bilən amillərdən biri ola bilər. Unutmaq olmaz ki, bu yaş dövründə uşağın ən vacib ehtiyacları sərbəst oyun, təhlükəsiz mühit, emosional sabitlik və sağlam inkişafdır. Uşaqların reklam və sosial mediada iştirakı məsələsində çox diqqətli olmaq və ilk növbədə onların psixoloji rifahını düşünmək vacibdir. Uşaqlar heç vaxt kommersiya maraqları naminə istifadə olunan alətə çevrilməməlidir".**

**Vasif ƏLİHÜSEYN**




**Vaqif Yusifli**
**Filologiya elmləri doktoru**


# YADA DÜŞÜR NAHİD HACIZADƏ

**"Könül dünyamda lay-lay, bəl-kə də qalın-qalın cildlərə sığma-yan xatirələr uyuyur. Hərdən ay-rı-ayrı sənətkarların yubileyləri, anım günləri ilə bağlı yaddaşımı silkələyir, uzaq-yaxın illərin təəs-süratlarını, epizod və əhvalatları-nı qələmə alır, qəzet və jurnallar-da dərc elətdirirəm. Saralmış mətbuat səhifələrində nə qədər xatirələrim, məqalələrim pərən-pərən olub, yaddan çıxıb..."**

Nahid Hacızadə - bütün sənət adamlarının çox yaxşı tanıdığı bu görkəmli yazıçı və publisist bu sə-tirləri özünün "Yada düşdü" xatirə-lər kitabında SON SÖZ kimi qələ-mə almışdı. YADA DÜŞDÜ ifadəsi onun həyatının, yaradıcılığının axa-rını, məna və mahiyyətini açıqlayır desəm, səhv etmərəm.

1936-cı ildə Gədəbəyin Düz Rə-sullu kəndində dünyaya göz açan və 19 yaşında o kəndi tərk edib ADU-nun filologiya fiakültəsinə da-xil olan, elə ali təhsilini başa vuran-dan sonra Televiziya və Radio Ve-rilişləri Komitəsində redaktor kimi işə başlayan Nahid Hacızadə çox tez bir zamanda sənət adamlarının dostuna, sevimlisinə çevrildi. O, 36 il bu şirkətdə çalışdı, redaktorluq-dan şirkətin sədr müavinlifyinə qə-dər çətin görünən o pillələri qalxdı və ucaldı.

Mənim Nahid müəllimlə tanışlı-ğım və ünsiyyətim də keçən əsrin 80-ci illərindən başlandı. O, "Gənc-lik" və ədəbi dram verilişləri baş redaksiyasında baş redaktor işlə-yəndə məni də hərdən o verilişlərə dəvət edirdi.

Nahid Hacızadə haqqında düşü-nəndə mən üç Nahid Hacızadə ob-razı ilə qarşılaşıram. Bu üç Nahid Hacızadə əslində, bir Nahid Hacı-zadə obrazında birləşir. NASİR, PUBLİSİST, QURUCU-TƏŞKİLAT-ÇI Nahid Hacızadə bütün fəaliyyəti boyu eyni amala xidmət edirdi. Real həyatın bədii həyatda ifadəsi-nə, Xatirələr dünyasına, Yada Düş-dü həqiqətinə, sənətkarların söz aləminin incələnməsinə...

Öncə onun nəsr əsərləri haqqın-da söz açmaq istəyirəm. Çünki müxtəlif illərdə yazdığı hekayələr, povestlər hələ öz elmi-tənqidi təhli-lini tapmayıb.Nahid Hacızadənin nəsr əsərləri əsasən 70-90-ci illər-də qələmə alınmışdı. Müxtəlif ədə-bi nəsillərin iştirakı ilə yaradılan nəsrimiz o zamankı Ümumittifaq nəsrində də seçilir, fərqlənirdi. Görkəmli tənqidçi Akif Hüseynlinin təbirincə desək, "Yeni Azərbaycan nəsri" ədəbiyyatda bir sıra orijinal xüsusiiyyətləri ilə diqqəti cəlb edir-di. Nahid Hacızadənin hekayə və povestləri də məhz müəyyən dərə-cədə bu yeniliklərlə uzlaşırdı. Onun "Qərib axşamlar", "Məhəbbət ölün-cə var", "Köçündən ayrılan durna", "Payız leysanları", "Dağlar, səndə gözüm qaldı", "Hələ gec deyil" nəsr əsərlərində əsas mövzu mənəvi problemlərlə bağlı idi. Nahid Hacı-zadə adını çəkdiyim bu povestlərdə xatirələr dünyasına yol alır, bir vax-tlar şahidi olduğu hadisələri, insan-ları bədii həqiqət aynasında can-landırırdı.Onun təsvir etdiyi qəhrə-manların bir çoxu sənət adamları-dır. "Məhəbbət ölüncə var" poves-tində Bəhruz aktyordur, öz sənəti-ni sevir.

Amma bu sənətin zirvəsinə ye-tincə çox sınaqlardan keçir. Bu po-vestdə Nahid Hacızadə Azərbay-can teatrının korifeylərindən biri olan Kazım Ziyanın da obrazını ya-ratmışdır.

Məhz Kazım Ziyanın sənət dərs-ləri sayəsində Bəhruz böyük uğur-lar qazanır. Yeri gəlmişkən qeyd edim ki, Kazım Ziyanın sənətkar obrazı ilk dəfə məhz Nahid Hacıza-dənin povestində canlandırılıb. "Köçündən ayrılan durna" poves-tində Nahid Hacızadə böyük türk şakiri Nazim Hikmətin obrazını ya-radır. Daha doğrusu, qəriblik möv-zusunu əsas götürüb ömrü boyu öz doğma vətənini arzulayan Nazim



Hikməti təsvir etdiyi Ceyhun və Qaşqay obrazları vasitəsilə qəribli-yin necə üzücü bir həyat olduğunu xatırladır.

Ümumiyyətlə, Nahid Hacızadə-nin nəsr əsərlərində yaşadığımız o dövrün-yetmiş-səksəninci illərin reallıqları öz əksini tapır.Yeri gəl-mişkən qeyd edim ki, müxtəlif illər-də Nahid Hacızadənin Moskovski komsomolets" qəzetində, "Nedel-ya" həftəliyində, "Oqonyok" jurna-lında hekayələri çap olunub. Mos-kvanın .

"Sovetski Pisatel" nəşriyyatı onun iki nəsr kitabını - "Dağlar yu-xuma girir" (1978) və "Hələ gec de-yil" (1989) nəşr etmişdir. O, həm də dramaturgiya janrında qələmini sı-namışdır. İki əsəri Milli Akademik Dram Teatrında öz səhnə təcəssü-münü tapıb.

Nahid Hacızadənin "Yada düş-dü" kitabı xatirələr silsiləsi üzərin-də qurulub. Öncə qeyd etdiyimiz ki-mi, Nahid müəllim XX əsrin (elə bu əsrin də) sənət aləminə üz tutur, demək olar ki, Azərbaycanın üzdə olan sənət adamlarının portretlərini yaradır. Məlumdur ki, portret janrı ilk baxışda asan görünsə də, müəl-lifdən peşəkarlıq tələb edir. Gərək o sənətkarla bağlı xatirələrlə məh-ludlaşmayasan, onun daxili alәmi-ni, sənətə bağlılığını və bir insan ki-mi özünəməxsus xüsusiyyətlərini canlandıra biləsən.

"Yaddaşımın Rəsul Rza səhifə-ləri" xatirəsində Nahid müəllim 1943-cü ilin qarlı bir qış axşamını yada salır. Dərsliyə salınmış bir şeirdə ispaniyalı bir pionerin öz və-təni İspaniyadan Sovet İttifaqına gəlməsi, amma həmişə vətən həs-rətiylı yanıb-yaxıldığı təsvir olu-nur. Öyrənir ki, bu şeirin müəllifi Rəsul Rzadır. İllər gəlib keçir, tələ-bə Nahid bir kitab mağazasında Rəsul Rza ilə tanış olur. Onun nəsi-hət və tövsiyələrini eşidir. Daha sonrakı illərdə Nahid Hacızadə ilə böyük şairin neçə görüşü baş tu-tur. Əlbəttə, Nahid Hacızadə bu xa-tirədə Rəsul Rzanın təkcə bir sə-nətkar kimi deyil,həm də bir Şəx-siyyət kimi də obrazını yaradır. Ey-ni məhəbbət və səmimiyyətlə o, bi-zim bir çoxlarının müəllimi olmuş böyük yazıçı və ədəbiyyatşünas Mir Cəlalın, görkəmli yazıçı və dra-maturq İlyas Əfəndiyevin,sənət alə-mində, ictimai həyatda öz dərin iz-lərini buraxmış Mirzə İbrahimovun, nəsr ustası Ənvər Məmmədxanlı-nın, şair-tərcüməçi Əliağa Kürçaylı-nın da ədəbi portretlərini yaradır.

Nahid Hacızadə çox bəxtli adam idi. Onun tələbəlik illəri, Televiziya-da çalışdığı dönəmlər XX əsrin bö-yük sənətkarlarını görmək, onlarla gö-rüşmək, ünsiyyətdə olmaq və onların ya-radıcılığı haqqında söz demək onun şə-rəfli işiydi. Məqalələr də yazırdı. Xalq şair-ləri - Bəxtiyar Vahab-zadə, Qabil, Zəlim-xan Yaqub, Musa Yaqub onun sevdiyi şairlər idi.Və onlara həsr etdiyi məqalə-lərdə Nahid Hacıza-də bir ədəbiyyatşü-nas kimi qələm işlə-dirdi. Hiss olunurdu ki, o, müasir ədəbiy-yatımızın poeziya ustadları olan bu şairlərin yaradıcılığına yaxşı bələd-dir.

Məsələn, Musa Yaqub haqqında yazırdı ki: "Kitablarından birini belə adlandırıb: "Nanə yarpağı". Müəllif bu adı təsadüfi seçməyib. Nanə yarpağı sənətkar qəlbinin rəmzidir. Şair ürəyi gözəllik qarşısında nanə yarpağı tək əsir. Musa Yaquba tə-biət şairi deyirləfr. Bu ad ona halal-dan halaldır".

"Yada düşdü" kitabında Nahid Hacızadənin öz yaxın dostları-İl-yas Tapdıq, Oqtay Rza, Əlövsət Bəşirli, Əlibala Hacızadə və Əbül-fət Mədətoğlu haqqında da məqalə-ləri ilə rastlaşırıq. Ancaq bu yazılar heç də dostlara yazılan təbriklər ki-mi oxunmur. Həmin yazılar onların yaradıcılığına obyektiv münasibəti ifadə edir.

Yaxşı xatırlayıram ki, Nahid müəllim İlyas Tapdığın seçilmiş əsərlərindən ibarət bir əlyazmanı mənə təqdim etdi və bir ön söz yaz-mağımı xahiş elədi. Mən də böyük məmniyyətlə "Bu İlyas Tapdıqdır" adlı geniş bir ön söz yazdım. İlyas Tapdıq doğrudan da Nahid Hacıza-dənin yazdığı kimi: "Balalarımızın sevimli şairidir". Amma onun poe-ziyasını təkcə bununla məhdudlaş-dırmaq olmaz. Onun xalq ruhunda köklənmiş şeirləri, təbiətə, Vətənə, Gədəbəyə yazdığı poetik nümunə-lər indi də sevilə-sevilə oxunur. O, Əlibala Hacızadəni müasir Azər-baycan nəsrinin ustadlarından biri hesab edirdi. Yazırdı ki: "O, bən-zərsiz söz ustadıdır. Nə o, kiməsə bənzəyir, nə də kimsə ona". Tanın-mış yazıçı-publisist Əlbvsət Bəşirli və şair Oqtay Rza haqqında yazıla-rı da eyni səmimiyyətlə qələmə alı-nıb. Nahid müəllim özündən xeyli cavan olan şair Əbülfət Mədətoğlu-nun şeirləri barədə gözəl bir məqa-lə yazıb - "Sinəmdə yurd dağı var". Və mən deyərdim ki, Əbülfətin şeir-ləri barədə ən düşündürücü yazılar-dan biridir.

Nahid Hacızadə təkcə ədəbiyyat adamları - şairlər, nasirlər haqqın-da deyil, öz sahəsinin məşhurları olan alimlər, əmək qəhrəmanları, teatr xadimləri və musiqiçilərdən də xatirələr yazıb, məqalələr qələ-mə alıb. Bu yazılarda Nahid müəl-lim əsl publisistik hünər göstərir, yeni kimdən söz açırsa, o şəxsin həyat və yaradıcılıq yolunu izləyir, onların yüksəkliyə doğru gedən yollarını gözlərimiz qarşısında can-landırır. Azərbaycanın iki böyük elm xadimi - Qoşqar Əhmədli və Qəzənfər Paşayev haqqında qələ-mə alınan yazılar haqqında da ürəklə söz aça bilərik. Ona görə "ürəklə" deyirəm ki, Nahid müəllim bu elm xadimlərinin təkcə elmi nai-liyyətlərini deyil, həm də bir Şəx-siyyət kimi böyük ürək sahibləri ol-duğunu yazır. Qoşqar Əhmədli çoxdandır dünyasını dəyişib, am-ma elmi nailiyyətləri, gördüyü işlər unudulmayıb. Qəzənfər Paşayev isə yaşayır, yenə əvvəlki kimi elmi tədqiqatlarını, xüsusilə İraq-Türk-mən ədəbiyyatı ilə bağlı araşdır-malarını davam etdirir. Təfərrüata varmaq istəmirəm və mən Nahid müəllimin əmək qəhrəmanı Qüdrət Səmədov, kitab nəşri sahəsində böyük xidmətlər göstərmiş Əjdər Xanbabayev, Xalq artisti Arif Ba-bayev, Xalq artisti Lütfi Məmməd-bəyov, adi bir peşə sahibi Usta Ha-şım, tanınmış aktyor - Xalq artisti İl-ham Namiq Kamal və nurlu şəxsiy-yət kimi tanıdığı Əlbvsət Baxışov haqqında qələmə aldığı səmimi ya-zılardan söz aça bilmirəm.

Nahid Hacızadə həm də yaradı-cı-qurucu bir insan idi. Onun so-nuncu iş yeri Respublika Xatirə Ki-tabı redaksiyası idi. Burada yeni bir redaksiyanın əsasını da məhz o qoydu. İndi onun işini Nəzakət xa-nım Məmmədli davam etdirir.

Mən bu yaxınlarda Nahid Hacı-zadənin 90 illiyilə bağlı Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klu-bunda keçirilən tədbirdə iştirak et-dim. Öz ürək sözlərimi də söylə-dim.

Nahid Hacızadə ilə sonuncu gö-rüşümü də xatırlayıram.

Bir gün təsadüfən ikimiz hansı verilişdəsə çəkilirdik (Nahid müəl-lim artıq orada işləmirdi). Televiza-yadan bir çıxdıq. Heç özümüz də bilmədən birgə yol getdik. Deyə-sən, hər ikimiz acmışdıq. Və bir yeməkxanada oturduq, çörək ye-dik. İlk və sonuncu dəfə. Amma söhbət də elədik. İlyas Tapdığın 70 illik yubileyində - Gədəbəydə işti-rak etdiyimizi xatırladıq. Sonra söhbət şeirdən düşdü. Yaddaşım-dan silinməyən Füzuli qəzəllərin-dən birini söylədim. Xoşuna gəldi. Misilsiz xanəndə Qədir Rüstəmo-vun hansı muğamdasa oxuduğu o qəzəl idi.

*Ey Füzuli, dura məndən ala təlimi-vəfa,*
*Nagəh ər mərqədi Məcnunə düşərsə güzərim.*

**Nahid müəllim, daha bu dün-yada sizə bir də güzarım düşmə-yəcək. Amma işıqlı əməllər sahi-bi olan insanlar heç vaxt unudul-mur. Siz idə unutmamışıüq... Çünki həmişə YADA DÜŞÜR NA-HİD HACIZADƏ...**

## *"Bakcell" Rəqəmsal Sənəd Dövriyyəsi (RSD) sisteminə qoşulub*

**İnnovasiya lideri "Bakcell" Elektron Hö-kumət İnformasiya Sis-teminin Rəqəmsal Sə-nəd Dövriyyəsi (RSD) altsisteminə qoşularaq qurumlararası sənəd mübadiləsini tam rə-qəmsal müstəviyə keçi-rib.**

"Bakcell" sistem vasi-təsilə kağız əsaslı sənəd dövriyyəsini minimuma endirərək, sənədlərin da-ha sürətli, şəffaf və təhlü-kəsiz şəkildə idarə olun-masını təmin edəcək.




RSD-yə inteqrasiya pro-seslərin daha da optimal-laşdırılmasına, əməliyyat səmərəliliyinin artırılma-sına və məlumat təhlükə-sizliyinin gücləndirilməsi-nə xidmət edir.

Bu addım "Bakcell"in rəqəmsal transformasiya strategiyasının tərkib his-səsidir və şirkətin dayanıqlı inkişaf prinsiplərinə sadiqliyini bir daha təs-diqləyir.

Qeyd edək ki, bu ad-dım "Bakcell"in rəqəmsal transformasiya strategi-yasının tərkib hissəsidir və şirkətin dayanıqlı inki-şaf, həmçinin ətraf mühit, sosial və korporativ ida-rəetmə (ESG) prinsipləri-nə sadiqliyini bir daha təsdiqləyir.

İnnovasiya və Rəqəm-sal İnkişaf Agentliyi tərə-findən yaradılan RSD alt-sistemi inteqrasiya olun-muş tərəflərin elektron sənəd dövriyyəsi sistem-ləri arasında real vaxt re-jimində və təhlükəsiz qaydada sənəd mübadi-ləsinin aparılması ilə bağ-lı inteqrasiyanın və sə-nədlərin hərəkəti üzrə uçotun həyata keçirilmə-sini təmin edir. Təkmil sertifikatlı gücləndirilmiş elektron imzalarla isə mə-lumatların məxfiliyi və bü-tövlüyü qorunur.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbayca-nın ilk və ən böyük özəl telekommunikasiya şirkə-tidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sü-rətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qey-ri-neft sektorunun ən bö-yük investorlarından biri olan "Bakcell" süni intel-lekt əsaslı innovativ həl-lərlə Azərbaycanın daya-nıqlı inkişafına töhfə ve-rir.

**"Bakcell" müxtəlif öl-kələrdə telekommunika-siya, enerji, yüksək tex-nologiyalar və tikinti sa-hələrində fəaliyyət gös-tərən "NEQSOL Hol-ding" beynəlxalq şirkət-lər qrupunun tərkibinə daxildir.**



# BAYAT



№ 76 (936)



*Barat Vüsal*

# Qalxıb öz yerini Sözə veribdi, Özü oturmağa yer yoxdu, gördüm!

Martın 18-də dəyərli şairimiz, ədəbiyyatımızda öz yeri olan Barat Vüsalın 75 yaşı tamam oldu. Biz də onu özünün yeni şeirləri ilə təbrik edirik!

## VAR

Elə-belə danışmıram, dinmirəm,
Nəfəsimdə ordan gələn diqtə var.
Maldan, puldan nəzir vermək asandı,
Can deyilən töycü, xərac, iqta var!

Yalan-palan danışmağa nə varmış,
Arada vur sola-sağa, nə varmış.
Belə aşkar danışmağa nə varmış,
Biləydiniz, neçə gizli nöqtə var.

Töka-töka, içə-içə min qanı,
Ya çuvalda gizlədərək cidanı,
A çirkinlər, bürüməyin dünyanı,
Öyünməyin, aranızda saf da var!

Gözüm qaldı o əvvəldə, o ilkdə,
Bir zamanlar ocaq olmuş küllükdə.
Allah verən könül adlı bu mülkdə
Əzab da var, o əzaba tab da var!

Ərənlərdi mizanların mizanı,
Haqdan qaçan tez-gec tapar cəzanı.
Dünyalaşan dünyaları qazanır,
Yoxdu Barat, müftə sərvət, müftə var!

## NƏSİMİNİN TÜRBƏSİ ÖNÜNDƏ

Mən də yanındaydım "Bəzmi-Əzəl"də,
Ruhkən söylədiyin "Bəli"nəm babam!
Məniydim "Nəsimi mənəm!" deyən gənc,
Onda da varıydım bəli, mən babam!

Türbənin önündə daim durmuşam,
Amanat deyiləm, qaim durmuşam.
Olub yeddi qatı Göyün, durmuşam,
Yerin təki qədər dərinəm, babam!

Həmişə yanında olmuşam sənin,
Yanında kamala dolmuşam sənin.
Balanam...balanam...bilmişəm sənin,
Göyərən qolunam, əlinəm, babam!

Mən şeir yazmıram, səni gəzirəm,
Mən Dan içindəki Danı gəzirəm.
Mən sənin dediyin dini gəzirəm,
Mən Elməm, mən Eşqəm, Təliməm, babam!

Dözüb könüldə qəm, dözüb gözdə nəm,
Gərək gizlənməyəm, gərək gizlənəm.
Mən gizlin Aşkaram, aşkar Gizlinəm,
Açılmaz açımın...sirrinəm, babam!

Səni elə duydum, qüvarlanıram,
Ah, sənə kim qıydı...qubarlanıram.
Səni elə sevdim, ölsəm, sanıram,
"Nəsimi!" söyləsəm, dirilləm, babam!

Adı bir olanın min adı mənəm,
O Kəbədi, mənəm Minadı, mənəm,
Bütün həyatların həyatı mənəm,
Bütün ölümlərə ölüməm, babam!

Gəlmişəm, görsünlər çıxmayıb canın,
Saralıb...sönməyib Günəşi Danın!
Gəlmişəm, kəsilsin tökülən qanın,
Dur, geyin, soyulmuş dərinəm, babam!

## ALPLAR

Sanırsan gördüyün adicə dağdır,
Qayası hədərdir, daşı hədərdir.
Alpların tarixi sarp qayaların
Tarixi qədərdir, yaşı qədərdir!

Bacarsan torpağın dərinliyindən,
Altun əvəzinə qaya tap, çıxar!
Axtarsan, dünyanın hər qarışından
Alp-qaya göyərər, qaya-alp çıxar!

Haradan gəliblər, hara gediblər,
Çaşıb durmayıblar alplar yarıda.
Hər yanda, hər yerdə izləri qalıb,
O Alp kişilərmi Alp dağları da?!

Quranda könüldə taxt qurubdular,
Çıxıbdı beləcə qayalar taxta.
Ən qədim dastanlar kimlər haqdadı?
Alp-qaya haqdadı, qaya-alp haqda!

Sevmir mən bildiyim tarix yanlışı,
Deyim, xəbər tutsun dünya alplardan.
Alpoud elləri tarix danışır,
O Alp-qayalardan, qaya-alplardan!

Qayadır ümmanlar, okeanlar da,
O axan bulaq da, nəhr də nədir?
Qayı oğuzları dedikləri də
Qaya oğuzları deyil də, nədir?!

Alp-qaya xəncərdir, qaya-alp tiyə,
Alpların haqqını itirən üçün.
Başdaşı bülövdür, itiləməyə,
Məzarı qılıncdır- götürən üçün!

Biləmməz ölsə də, bilməzlər, məni,
Suyum çəkən zaman çəkib Altaya.
Adımı dəyişə bilməzlər mənim,
Mən də qaya- alpam, mən də alp-qaya!

## GÜL BAXÇASI

Arada döyüşə gedir,
Arada bax, gül əkirəm.
Mən çıxmışam öz əlimlə,
Dara da, bax, gül əkirəm.

Əkir, sözü oxşayıram,
Könlü-gözü oxşayıram.
Sənə özüm oxşayıram,
Yaradan, bax, gül əkirəm!

Mən Abbasam,Gülgəziynən,
Gəl, iyləyib gül, gəziynən!
Mən gülşəndə gül gəzmirəm,
Xarabada gül əkirəm!

Atsan göyə, nə düşməyir,
Nə dönməyir, dəyişməyir?
Ətri beyinə işləyir,
Harada bax, gül əkirəm!

Haqdandı bil, yaşam, haqdan,
Heç artarmı yaş, nahaqdan?
Bezməmişəm yaşamaqdan,
Hələ də bax, gül əkirəm!

Sanma burda qarşındayam,
Orda-pirdə peşimdəyəm.
Niyə zirvə başındayam,
Dərədə bax, gül əkirəm!

Gələcək yazım, gələcək,
Güləcək arzum, güləcək.
Öləndə lazım gələcək,
Gora da bax, gül əkirəm!

Dostam çiçək-güllər ilə,
Gül bəsləyən ellər ilə.
A könlüm, könüllər ilə,
Barata bax, gül əkirəm!

## MƏNƏM

Beşikdəki körpəyəm,
Gordaki indi mənəm.
Yenə nardaki şeytan,
Nurdaki indi mənəm.

Altımda boz köhlənim,
Adım Xızırdır mənim.
Musa adı köhnəlib,
Turdaki indi mənəm.

Demə ki, hanı,aşiq?
Bu can canana aşiq!
Nəsimi Dardan düşüb,
Dardakı indi mənəm!

Nə ki, bu suda axır,
Butadı, buta, axır.
O Əvvəl, bu da Axir,
Burdakı indi mənəm!

Harda bəndə yaşayır,
Ölür, həm də yaşıyır.
O yar məndə yaşıyır,
Yardakı indi mənəm!

İz də həqdi, yol da həq,
Ağacda həq, kolda həq.
Orda həq var, orda həq,
Harda ki, indi mənəm.

## BÖYÜDÜB

Sönməzdir ocağımız,
Közü nənəm böyüdüb.
Süfrəmizdə çörəyi,
Duzu nənəm böyüdüb.

İstəyəndə götürüb,
Evə aşıq gətirib.
Beşiyimdə yatırıb,
Sazı nənəm böyüdüb,

Dönübdü baş tacıma,
Acıyıbdı acıma.
Paylayıb beş bacıma,
Nazı...nənəm böyüdüb.

Gülür, sevinir hər gün,
Qəlbtək döyünür hər gün.
Niyə böyüyür hər gün?
İzi nənəm böyüdüb!

Dalda yox, öndəyik biz,
Birdəyik, mindəyik biz.
Nə xoşbəxt bəndəyik biz,
Bizi nənəm böyüdüb!

Niyə mail olmayım,
Sözə dair olmayım?
Necə şair olmayım,
Sözü nənəm böyüdüb!

## QORUDUĞUM UŞAQ

Deyirlər balaca uşaq kimisən,
Bu sözlər yalan yox, düzdü haqq üçün.
Çünki yaranmışam yarınmağa yox,
Kiməsə, nəyəsə yaramaq üçün!

Özümlə vuruşub hərb eyləmişəm,
Özümü ümmana qərq eyləmişəm.
Az qala bir ömür sərf eyləmişəm,
Özümü axtarıb aramaq üçün!

Əldən verməmişəm öz sağlığımı,
Hamıya çox yaxın uzaqlığımı.
Üzündən öpmüşəm uşaqlığımın,
Nəyim var, qurbandı o uşaq üçün!

Möhtac olmamışam sənə, ay gədə,
Öz odum-ocağım olub hər vədə!
Mən ömür sürmədim kimlərdənsə də,
Alov ummaq üçün, od ummaq çün!

Yaman hallanıram uşağam deyə,
Yaman şellənirəm uşağam deyə.
Yaman aldanıram uşağam deyə,
Neynim, zirehim yox qorunmaq üçün!

Hərdən orda-burda şeir yazıram,
Deyimmi nə adla şeir yazıram?
Bu qoca Baratla şeir yazıram,
O uşaq Baratı qorumaq üçün!

## EHTİRAM

Özüdür Yaradan... yaratdığı da,
Bircə bir var,
Başqa bir yoxdu, gördüm.
Həyatla ölümün arasındayam,
Belə beşik yoxdu, gor yoxdu, gördüm.

Sən Ona vararsan ha varsan Eşqə,
Suvarsan ata yox, suvarsan Eşqə!
Nə varsa Gizliymiş nə varsa Aşkar,
Nə varsa srr imiş...
Sirr yoxdu, gördüm?!

Yermi var hər kəsin öz yeri kimi,
Ocaq yeri kimi, köz yeri kimi?
Dünyada Allahın nəzəri kimi,
Ocaq yoxdu,gördüm, pir yoxdu, gördüm.

Barat, Allah nə var, bizə veribdi,
Ürəyə veribdi, gözə veribdi,
Qalxıb öz yerini Sözə veribdi,
Özü oturmağa yer yoxdu, gördüm!

## BOZ ATLI OĞLAN

Ay Barat oğlan,
Dağları dolan!
Altında Boz at,
Qızdara söz at!

*(Nənəmin oxşamalarından)*

Necə gözəl demisən,
Nənə, olsam baş olum.
Boz ata mindirmisən,
Xızıra yoldaş olum!

İstəmisən Xızırtək,
Hamıya kömək edim.
Ölümü də sevməyə
Qorxmayım, ürək edim.

Uğurlar söyləmisən
Ömrümə, həyatıma.
Dualar eyləmisən
Həm mənə, həm atıma!

Kimsəsizin hayına
Öz atımla getmişəm.
Yetmişəm harayına,
Bozatımla yetmişəm.

Buyruğuna hazıram,
Nənə, bax qarşındayam.
Dünyanın bu başında
Sanki o başındayam!

Öz işimdə-gücümdə,
Qurğu-busatımdayam.
Heç kimin atında yox,
Nənə, Boz atımdayam,
Nənə, öz atımdayam!

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 11 (2483) 20 mart 2026-cı il




# SABİRABADI GÖZƏL GÖRDÜM, SEVİNDİM...



**Bir vaxtlar əksər rayonlarımızın küçələri, yolları çox bərbad gündəydi. Yəni o qədər bərbad idi ki, hətta rayon mərkəzinə getmək üçün beş-on dəqiqəlik yolu bir saata və bir az da artıq getməyə məcbur olurdun. Başqa sözlə demiş olsaq, yollar çox bərbad gündəydi. Hələ biz onun digər infrastrukturunu demirik. Onu da desək, oxucularımızın qanını bir az qədər qaraltmış olarıq.**

Elə ki müstəqillik dövrünə qədəm qoyduq və Ulu Öndər Heydər Əliyev xalqın dəvəti ilə hakimiyyətə gəldi, bax, bundan sonra da yollarımız, küçələrimiz, prospektlərimiz yenidən tikilməyə, qurulmağa başladı.

Yəni respublikamıza ikinci bir nəfəs verildi. Bunu etmək üçün isə təbii ki, dövlət büdcəsində kifayət qədər maliyyə vəsaitləri olmalı idi. Amma müstəqilliyin ilk dövründə bu bir qədər çətinlik törətsə də, Ulu Öndər Heydər Əliyev həmin yolları da axtarıb tapdı, regionların sosial-iqtisadi inkişafı üçün bütün rayonlara dövlət büdcəsindən pul ayrılması üçün göstəriş verdi.

Aydındır ki, Ulu Öndərin bu tapşırıqlarından sonra Azərbaycanın bütün yol infrastrukturu, eləcə də işıq, qaz, su və istilik sistemi yenidən qurulmağa başladı. Əlbəttə, bu işlərin həyata keçirilməsi üçün öncədən böyük Dövlət Proqramı hazırlandı və həmin proqramın icrası isə dövlət başçısının nəzarətində oldu. Bərbad gündə olan rayonlarımız beş-on ilin ərzində yenidən tikilməyə, qurulmağa və inkişaf etməyə başladı. Belə rayonlardan biri də Sabirabaddır.

Sabirabad rayonu Sovet dönəmində Bərdədən sonra ikinci pambıqçılıq bölgəsi kimi tanınırdı. Burda pambıqçılıqla yanaşı, heyvandarlıq, tərəvəzçilik və digər kənd təsərrüfatı məhsulların istehsalı da kifayət qədər idi. Bütün bunlar əhalinin daha normal və yaxşı yaşamasına imkan verirdi. Amma Xalq Cəbhəsinin vaxtında bütün sahələrdə olduğu kimi kənd təsərrüfatı sahəsində də böyük durğunluq yarandı. Pambığı əkdilər, toplamadılar ki, bu Sovet hökumətindən qalan məhsuldur. Görün onda hansı düşüncə sahibləri bu milləti idarə edib. Amma Heydər Əliyevin hakimiyyətinin elə ilk illərində respublikada bütün sahələrdə dirçəliş və inkişaf yarandı. Və bu dirçəliş və inkişafı xalq özü də görürdü.

Sabirabadın sosial-iqtisadi tərəqqisi üçün böyük layihələr həyata keçirilməyə başlandı. Burda küçə və prospektlər yenidən tikildi, yollara asfalt örtüklər salındı, səkilərə isə qiymətli daşlardan ibarət tikinti materialları döşəndi. Bütün bunlar istər-istəməz rayonun həm gözəlliyini yaxşılaşdırdı, həm də yollarda nəqliyyat vasitələrinin rahat hərəkətini təmin etdi. Bununla yanaşı, Sabirabadda bir-birindən gözəl tikililər, sosial obyektlər inşa edildi. Məktəblərin, uşaq bağçaların, xəstəxanaların, tibb məntəqələrin tikilməsi diqqət mərkəzində saxlanıldı. Təbii ki, bu addımların atılması rayon əhalisi tərəfindən çox böyük sevinclə, istəklə qarşılanırdı. Çünki sakinlər bərbad və qaranlıq küçələrdə hərəkət etməkdən lap təngə gəlmişdilər.

Amma indi bu küçə və prospektlər hamısı abad olmuşdu və bir-birindən gözəl görünüşü vardı. İldən-ilə, aydan-aya, gündən-günə Sabirabad yenidən gözəlləşir və füsunkar bir görkəm alırdı.

Bu günlərdə yolumuz bu gözəl məkana düşmüşdü. O qədər müasir üslubda və milli memarlıq ənənələrinə uyğun binalar tikilib ki, adam baxdıqca yenə baxmaq istəyir. Düşünürsən ki, bütün bu gözəlliklər və qeyri-adi tikililər Sabirabad camaatı üçündür. Bir-birindən gözəl parklar, xiyabanlar, küçə və prospektlər adama gəl-gəl deyir. Hələ yeni salınmış yaşıllıqları, yeni əkilmiş ağacları, gülləri və çiçəkləri demirik. Bu gözəlliklərə baxanda adam özünü çox rahat və xoşbəxt hiss edir. Ən azından ona görə ki, 30 il bundan əvvəl rayon mərkəzində belə möhtəşəm tikililər və gözəllik yox idi. Xüsusən də bu gün Sabirabaddakı parklar və xiyabanlar göz oxşayır. Diqqətlə fikir verdik, insanlar bu gözəl məkana daha çox can atırlar. Bakıda yazın nəfəsi hiss olunmasa da Sabirabadda artıq əməlli-başlı bir yaz havası var. İnsanların çoxu gödəkçəsini, paltosunu, plaşını çıxarıb yaza uyğun geyiniblər. Bütün bunlar ona dəlalət edir ki, bu yaz havası da həm də insanların iç dünyasında hiss olunur.

İki nəfərin istirahət parkında domino oynadığını gördük. Maraqlanıb onlarla tanış olduq. O qədər də yaşlı adamlar deyildilər, olardı 45-50 yaş yarası. Elə tanış olan kimi də adlarını, soyadlarını dedilər. Biri Arif Hacıyev idi, biri də Məmməd Məmmədov. Öyrəndik ki, Arif müəllim xırda bizneslə məşğuldur, istirahət günü olduğu üçün sadəcə olaraq, bu gün işə getməyib, obyektini də telefonla idarə edir. Arif müəllim dedi ki, bu gün rayonumuzda kifayət qədər iş yerləri var, elə mənim özümün mağazamda beş nəfər işləyir, hamısı da qanuni. Yəni onlar Sosial Müdafiə Fonduna və digər fondlara vergi ödəyir, dolanışıqları da normaldı. İşdən çıxandan sonra isə təsərrüftla məşğul olurlar.

Məmməd kişi də sevinə-sevinə dilləndi ki, mən də ilboyu göy-göyərti əkirəm. Hələ xeyli torpaq sahəm var, ona da qarpız əkirəm. Əlbəttə, torpaq o kəsləri sevir ki, səhərdən-axşamadək əziyyət çəkirsən, tər tökürsən, sonra da bəhrəsini görürsən. Mən kənd adamıyam və bununla da fəxr edirəm. Malım da var, qoyunum da, üstəlik də tərəvəzçiliklə məşğulam, bostan əkirəm. Hər il mənim yetişdirdiyim qarpız çoxlarının razılığına səbəb olur. Çünki mən həmişə yerli toxumdan istifadə edirəm və o toxumdan da əkilən məhsullar həm dadlı, həm də təhlükəsiz olur. Həm böyük çillədə, həm də kiçik çillədə qarpız kəsmək bizim adətimizdir. Bax, o vaxta qədər bizim qarpızımız qalır. Şükür Allaha, çörəyimiz var, suyumuz var, süfrəmiz də həmişə boldur. Allahdan can sağlığı istəyirik ki, bizi qorusun və biz də əkib-becərək.

Sabirabadda kiminlə söhbət elədiksə rayonda gedən abadlıq-quruculuq, tikinti işlərindən danışdılar. Onlar yeni asfalt yolların çəkilməsindən, yeni məktəblərin tikilməsindən, yeni xəstəxanaların inşa edilməsindən çox razı qaldılar. Dedilər ki, Ulu Öndər Heydər Əliyevin vaxtında da, prezident İlham Əliyevin hakimiyyəti dövründə də Sabirabada həmişə dövlət rəhbərliyi tərəfindən böyük diqqət göstərilib. Şükürlər olsun ki, bu gün rayonumuzda iş-gücümüz var, bolluqdur və rahat yaşayırıq. Buna görə göydə Allaha, yerdə rəhbərlərimizə borcluyuq.

**Qarşıdan yaz gəlir, bu yaz bizim elimizə-obamıza bol bərəkət, sevgi və həyat eşqi gətirir. Biz inanırıq ki, Sabirabadın gələcəyi bundan da gözəl olacaq.**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Səməd Vurğun: XX əsr Azərbaycan poeziyasının görkəmli siması

**Martın 18-də ”Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında” Sərəncama müvafiq olaraq Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə təşkil etdiyi ”XX əsr Azərbaycan ədəbiyyatının görkəmli siması Səməd Vurğun” mövzusunda tədbir keçirilib.**

Bu barədə Milli Kitabxanadan məlumat verilib.







Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov Səməd Vurğunun yaradıcılığından söz açıb. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev böyük şairin yaradıcılığına həmişə önəm verərək onun ”Azərbaycan” şeirinin misralarını yüksək kürsüdən xüsusi hissiyyatla söyləyib.

Professor bildirib ki, Səməd Vurğunun dili Azərbaycan ədəbi dilinin ən parlaq, sadə və xalq ruhuna yaxın nümunəsi hesab olunur, onun poeziyasında milli ruh, folklor ənənələri və zəngin bədii təsvir vasitələri hakimdir. Şairin dili ”qılınc kimi” kəsərli, eyni zamanda son dərəcə axıcı və aforizmlərlə zəngindir. Tədbirdə Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan ”Azərbaycanın Xalq şairi Səməd Vurğun” adlı elektron məlumat bazası və ”Xalqımızın ilk Xalq şairi Səməd Vurğun” adlı virtual sərginin təqdimatı keçirilib.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun icraçı direktoru Mehman Həsənli qeyd edib ki, Səməd Vurğun yaradıcılığı, şəxsiyyəti, vətənpərvərliyi, milliliyi, milli olduğu qədər də beynəlmiləlçiliyi və digər saya gəlməyən insani keyfiyyətləri ilə hələ sağlığında xalq arasında simvollaşmış, rəmzləşmiş şəxsiyyət idi.

Filologiya üzrə fəlsəfə doktoru Ədəbiyyat İnstitutunun elmi işçisi Aslan Salmansoy bildirib ki, Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq və təkrarsız səhifələrindən birini təşkil edir. Müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində böyük rol oynamış sənətkarın bədii irsi mədəniyyətimizin inkişafında bütövlükdə yeni mərhələ olub. Azərbaycan Elmlər Akademiyasının ilk akademiklərindən biri olan Səməd Vurğunun görkəmli ictimai-siyasi xadim kimi xidmətləri də təqdirəlayiqdir. Səməd Vurğunun ev-muzeyinin direktoru Vurğun Vəkilov Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanmış elektron məlumat bazası və virtual sərgini yüksək dəyərləndirib, kitabxananın rəhbərliyinə və əməkdaşlarına dərin təşəkkürünü bildirib.

**Tədbir iştirakçıları sonda ənənəvi sərgi ilə tanış olublar.**

## *Əməkdar artist: “Onun 10 manatı mənim 100 manatımdan bərəkətlidir”*



**Əməkdar artist Elnarə Abdullayeva şəxsi həyatı ilə bağlı açıqlaması ilə diqqət çəkib.**

Adalet.az bildirir ki, o,ilk dəfə həyat yoldaşının hansı işlə məşğul olduğundan danışıb:

”Bunu hər kəs bilir ki, müğənninin qazancı digər peşə sahiblərindən daha çoxdur. Ancaq onun 10 manatı mənim 100 manatımdan bərəkətlidir. Heç vaxt pərakəndə yaşamadıq. Hər şeyi ölçü ilə, nizamla etdik. Əvvəllər ticarətlə məğul idi. Kostyumlar satırdı.

İndi isə özünün şəxsi biznesi var. İnsan bu həyatda nə istədiyini bilməlidir. Onunla mübahisə etdiyim vaxtlar da olur. Ancaq bu mübahisələr müsbət xarakter daşıyır.

O, həmişə mənə deyir ki, özünə zaman ayır, dincəl. Ancaq mən daim hərəkətdə olmağı, çalışmağı, qurub- yaratmağı sevirəm”.

**Əntiqə**

## *Afət Fərmanqızı: “Savadlı aparıcılara ehtiyac var”*

**Son zamanlar efir qadağası alan müğənnilər sırasında Afət Fərmanqızı da yer alır.**



Adalet.az bildirir ki, müğənnin bunun əksinə olduğunu söyləyib:

”Mənim efir qadağası almağım doğru xəbər deyil. Mən efirlərə çıxırdım ki, mənə efir qadağası qoyusun.

Efirlərə getməmək qərarını özüm vermişəm. Mənim əsas platformam sosial şəbəkələrdir. Efirim telefonumdur. Sosial şəbəkə hesablarımda yayımlar edirəm. Mənə yetəcək qədər izləyici kütləm var.

Sevənlərim mənim yaradıcılığıma dəyər verir. Bu, mənə bəsdir. Bəzi müğənnilərə efir qadağası olduğu kimi, aparıcılara da bu qayda tətbiq olunmalıdır. Çünki efir məkanlarında savadlı aparıcılara ehtiyac var.

**Əntiqə**

# 3400 işıq ili uzaqlıqda qeyri-adi KƏŞF

**Astronomlar ilk dəfə olaraq daha çox ”Kəpənək” kimi tanınan NGC-6302 planetar dumanlığında quru buz - donmuş karbon qazını aşkar ediblər.**

Adalet.az xəbər verir ki, müşahidələr ”Ceyms Uebb” kosmik teleskopu vasitəsilə aparılıb və mərkəzi ulduzu əhatə edən toz buludunda donmuş CO?-nin xarakterik spektral izləri qeydə alınıb. Planetar dumanlıqlar ömrünün son mərhələsinə çatmış ulduzların kosmosa atdığı qaz qabıqlarından ibarətdir.



NGC-6302 Yer kürəsindən təxminən 3 400 işıq ili uzaqlıqda yerləşir. Yeni məlumatlar teleskopun infraqırmızı diapazonda işləyən orta ayırdetməli spektroqrafı MIRI vasitəsilə əldə olunub. Alimlər dumanlığın mərkəzi hissəsindən gələn şüalanmanı təhlil edərək bərk haldakı karbon qazına uyğun aydın udulma xətlərini qeydə alıblar. Quru buz dumanlığın mərkəzini əhatə edən sıx maddə halqasında - toz torunda aşkar edilib. Kəşf tədqiqatçıları təəccübləndirib. Çünki planetar dumanlıqlar ölməkdə olan ulduzun güclü ultrabənövşəyi şüalanması ilə doludur və bu şüalanma adətən kövrək molekulları parçalayır, buzları isə buxarlandırır. Buna baxmayaraq, quru buz bu mühitdə qorunub qalıb.

## *Azərbaycan Yaponiyada beynəlxalq dostluq festivalında təmsil olunub*



**Azərbaycanın Yaponiyadakı səfirliyi Tokioda keçirilən Mequro beynəlxalq dostluq festivalında ölkəmizi təmsil edib.**

Səfirlikdən bildiriblər ki, festival beynəlxalq mədəni dialoqun təşviqi, müxtəlif ölkələrin mədəni irsinin təqdim olunması və xalqlar arasında qarşılıqlı anlaşmanın gücləndirilməsi məqsədi daşıyır.

Yaponiyadakı bir sıra ölkələrin səfirlikləri ilə yanaşı, yerli təşkilatlar və şirkətlərin də iştirak etdiyi festivalda Azərbaycan stendi böyük marağa səbəb olub. Stenddə xalqımızın zəngin və çoxşaxəli mədəni irsini əks etdirən milli geyimlər, əl işləri, eləcə də dekorativ-tətbiqi sənət nümunələri nümayiş etdirilib. Qonaqlar sərgilənən eksponatlar vasitəsilə Azərbaycanın tarixi, qədim sənətkarlıq ənənələri, milli estetikası və mədəni dəyərləri ilə yaxından tanış olmaq imkanı əldə ediblər.

## *XXXIII Minsk Beynəlxalq Kitab Sərgisi keçirilir*




**XXXIII Minsk Beynəlxalq Kitab Sərgisində Azərbaycan öz milli kitab stendi ilə iştirak edir.**

Bu barədə Mədəniyyət Nazirliyindən məlumat verilib.

Bildirilib ki, sərgi çərçivəsində təşkil olunan təqdimat tədbirində M. Tank adına Belarus Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan dili və Mədəniyyəti Mərkəzinin direktoru Fuad İbrahimov çıxış edərək ölkəmizin zəngin ədəbi irsi, mədəniyyəti və kitab sənayesinin inkişafı barədə məlumat verib.

Təqdimat zamanı Azərbaycan haqqında ətraflı videoçarx nümayiş olunub, həmçinin milli mədəniyyətimizi əks etdirən bir neçə rəqs nümunəsi təqdim edilib.

Sərgi martın 22-dək davam edəcək.

Qeyd edək ki, beynəlxalq sərgi müxtəlif ölkələrin nəşriyyatlarını, müəlliflərini və oxucularını bir araya gətirərək mədəni mübadiləyə və ədəbiyyatın təşviqinə mühüm töhfə verir.

## *Tolik aparıcılara səsləndi: “İkiüzlü yox, üçüzlü olmalıyam?”*

**Prodüsser, aparıcı Tarix Əliyev (Tolik) həmkarlarını qınaq atəşinə tutub.**



Adalet.az bildrir ki, o, aparıcıların efirdən qorxaq göründüyünü iddia edib: ”Deyirəm ki, insan həyatda cəsarətli olmalıdır. Nəyin bahasına başa gəlsə də, qorxaq olmamalıdır. Həmkarlarım inciməsin, verilişlərinizə evdən baxıram. Açığı, çox qorxaq görünürsünüz. Siz aparıcısınız, qabaqcıl söz deyən insanlarsınız. Axı biz sizi tanıyırıq. Aparıcının ən böyük uğuru onun cəsarətində, hünərindədir.

Yoxsa mən verilişi itirəcəyəm deyə qorxaq olmalıyam? İkiüzlü yox, üçüzlü olmalıyam? Hamıya xoş gəlmək üçün başqa cür danışmalıyam?

Açığı, bu hal çox gülünc görünür. Olduğunuz kimi olun. İnsanlar sizi məhz belə sevəcəklər. Bir kütlə onsuz da sizi sevməyib və sevməyəcək. Amma sevənlər sizin hər səhvinizlə belə sizi sevəcəklər.

İndi isə sanki ingilis bayrağı kimisiniz - maşasız. Bu gün sizə deyirlər belə görün, belə görünürsünüz. Sabah deyirlər başqa cür görün, yenə dəyişirsiniz.

Doğrudan da çox gülünc görünür. İncimәyin, sadəcə olduğunuz kimi olun”.

**Əntiqə**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 271
Çapa imzalanmışdır: 19.03.2026